**Hər kəs ədalətli olacaq**

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 27 (6169) 24 iyul 2026-cı il | Qiyməti 40 qəpik

# Strateji dialoqun başlanğıcı



Bax:səh-2

## Azərbaycanda 5 ölkənin iştirakı ilə hərbi təlim keçiriləcək



**Azərbaycanda təşkili nəzərdə tutulan "Birliyin Gücü - 2026" birgə hərbi təlimin planlaşdırma konfransı keçirilib.**

Adalet.az xəbər verir ki, Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Cəmşid Naxçıvanski adına Hərbi Liseydə keçirilən konfransda Azərbaycanla yanaşı Türkiyə, İran, Qırğızıstan, Özbəkistan və Pakistanın nümayəndə heyətləri iştirak ediblər.

Qonaqları salamlayan general-leytenant Azər Əliyev ölkələr arasında hərbi əməkdaşlığın uğurla inkişaf etdiyini qeyd edib. Bildirilib ki, "Birliyin Gücü - 2026" birgə hərbi təlimin əsas məqsədi ölkələrin orduları arasında əməkdaşlığın genişləndirilməsi, şəxsi heyətin praktiki vərdişlərinin təkmilləşdirilməsi, qarşılıqlı təcrübə mübadiləsi, həmçinin dayanıqlı sülhə və təhlükəsizliyə töhfə verməkdir.

Tədbir iştirakçılarına təlimin sualları, ssenarisi və yerinə yetiriləcək döyüş epizodları haqqında ətraflı məlumat verilib.

Konfrans çərçivəsində qonaqlar təlim keçiriləcək ərazi ilə əyani tanış olaraq, tapşırıqları dəqiqləşdiriblər.

Sonda iştirakçı ölkələr konfransın yekununa dair protokol imzalayıb, maraq doğuran digər məsələlər haqqında ətraflı fikir mübadiləsi aparıblar.

## FHN: Ötən həftə 672 yanğına çıxış olub, 9 meyit aşkarlanılıb




**Ötən həftə 672 yanğına çıxış olub. Bu barədə Adalet.az-a Fövqəladə Hallar Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında Nazirliyin aidiyyəti qurumları tərəfindən ötən həftə ərzində 672 yanğına çıxış, 48 halda köməksiz vəziyyətdə qalma və 5 avtonəqliyyat qəzası faktı üzrə qəza-xilasetmə əməliyyatları həyata keçirilib.

Görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların operativ söndürülməsi, insanların həyatının xilas olunması təmin edilib.

**Ümumilikdə, Fövqəladə Hallar Nazirliyinin qüvvələri tərəfindən ötən həftə ərzində 15-i azyaşlı olmaqla 55 nəfər xilas edilib, 30 nəfər təxliyə olunub, 9 nəfərin meyiti təhvil verilib.**

## Türkiyə rəsmən elan etdi: S-400-ləri satır



**Türkiyə Rusiyanın S-400 sistemlərinin təkrar ixracı ilə bağlı üçüncü ölkələrlə danışıqları davam etdirir.**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin milli müdafiə naziri Yaşar Gülər deyib.

"ABŞ ilə hərbi və siyasi sahələrdə müsbət dinamika ilə davam edən proses çərçivəsində keçmişdən qalan və üçüncü ölkələri də maraqlandıran məsələlər üzrə qarşılıqlı anlaşma və əməkdaşlıq əsasında həll yolları axtarılır", - o bildirib.

Qeyd edək ki, Rusiyadan S-400 hava hücumundan müdafiə sistemlərinin alınmasından sonra yaranmış çətinliklər Türkiyənin F-35 proqramından çıxarılmasına səbəb olub.

## DYP motosiklet və moped sürücülərinə müraciət etdi




**Baş Dövlət Yol Polisi İdarəsi motosiklet, moped və digər bu tip ikitəkərli nəqliyyat vasitələri idarə edən sürücülərə xəbərdarlıq edib.**

İdarədən bildirilib ki, dünən saat 12:00 radələrində Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Qurbanəfəndi kəndi ərazisindən keçən hissəsində paytaxt sakini Nihad Allahverənovun idarə etdiyi motosikletlə Qəbələ rayon sakini İsa Rzayevin idarə etdiyi "Opel" markalı avtomobil toqquşub. Qəza nəticəsində hər iki sürücü, eləcə də İsa Rzayevin avtomobilində olan qadın sərnişin hadisə yerində həyatlarını itiriblər. Əraziyə DYP əməkdaşları cəlb olunub. Faktla bağlı araşdırma aparılır. "Baş Dövlət Yol Polisi İdarəsi bir daha motosiklet, moped və digər bu tip ikitəkərli nəqliyyat vasitələri idarə edən sürücülərə müraciət edərək onları təhlükəsizlik qaydalarına qeyd-şərtsiz əməl etməyə, özlərinin və başqalarının həyat və sağlamlığını təhlükəyə atmamağa çağırır", - deyə məlumatda qeyd olunur.

## *5 ayda 8 mindən çox boşanma qeydə alınıb*

**Azərbaycanda bu ilin ilk beş ayında minlərlə nikah və boşanma rəsmiləşdirilib.**

Adalet.az xəbər verir ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, hesabat dövründə 15 min 107 nikah, 8 min 87 boşanma halı qeydə alınıb.

Bildirilib ki, 2025-ci ilin eyni dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 4,7-dən 3,6-ya, boşanmaların sayı isə 2,0-dan 1,9-a enib.

Beləliklə, həm nikahların, həm də boşanmaların nisbi göstəricisində ötən ilin müvafiq dövrü ilə müqayisədə azalma müşahidə olunub.

## "Ukrayna Silahlı Qüvvələrinin Baş komandanı vəzifəsində qalır"



**Ukrayna Silahlı Qüvvələrinin Baş komandanı Sırski vəzifəsinin icrasını davam etdirir.**

Bakıvaxtı.az xəbər verir ki, bu bəyanatı Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı Baş komandan Aleksandr Sırskinin bu gün vəzifədən azad ediləcəyi barədə Ukrayna mediasında yayılan məlumatlara cavab olaraq yayıb.

"General Sırski Ukrayna Silahlı Qüvvələrinin Baş komandanı vəzifəsində öz səlahiyyətlərini yerinə yetirməyə davam edir. Onun vəzifədən azad olunması ilə bağlı yayılan məlumatlar həqiqətə uyğun deyil", - bəyanatda bildirilir.

## *GÜNÜN LƏTİFƏSİ*

Cavan tərbiyəçi otağa kompyuter gətirir. Çətinliklə əyilib onu yerə qoyub uşaqlardan soruşur:

**- Uşaqlar, deyin görüm, otaqda neçə kompyuter var?**

- Bir!

**- Düzdür, - tərbiyəçi çox çətinliklə ikinci sonra isə üçüncü kompyuteri gətirir:**

**- İndi neçə kompyuter oldu?**

Bu vaxt müdirə otağa gəlib soruşur:

**- Nə edirsən?**

**- Uşaqlara üçə qədər saymaq öyrədirəm!**

- Biz həmişə bunu alma ilə öyrədirik. Elə bil bunu sən də eləyə bilərdin!

- Axı kitabda kompyuter yazılıb.

**- Kitabın növbəti səhifəsində 10-a qədər saymağı avtobuslarla öyrədiblər. Ümidvaram otağa avtobus gətirməyə hazırlaşmırsan?**

## İlham Əliyev “Ümumi təhsil haqqında” qanunda dəyişiklikləri təsdiqləyib



**Prezident İlham Əliyev ”Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklikləri təsdiqləyib.**

Sənədin mətni Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib. Dəyişikliyə əsasən, millilik və dünyəvilik - milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi ümumi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsi ümumi təhsil sahəsində dövlət siyasətinin əsas prinsipi hesab edilib. Dövlət ümumi təhsil müəssisələrində təhsilalanlar üçün geyim formalarının təsvirlərini və təhsilverənlər üçün geyim ilə bağlı tələbləri təsdiq etmək ümumi təhsil sahəsində dövlətin vəzifələri sırasına daxil edilib.

Dəyişikliyə əsasən, dövlət ümumi təhsil müəssisəsində təhsilalanlar və təhsilverənlər tərəfindən geyim ilə bağlı tələblərə riayət olunmalıdır. Dövlət ümumi təhsil müəssisəsində təhsilverənlər üçün geyim ilə bağlı tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunacaq.

Fərmana əsasən, Nazirlər Kabineti iki ay müddətində dövlət ümumi təhsil müəssisəsində təhsilverənlər üçün geyimlə bağlı tələbləri təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Valideynlərin və ya digər qanuni nümayəndələrin ümumi təhsil sahəsində vəzifələri sırasına dövlət ümumi təhsil müəssisəsində (qəyyumluğunda və himayəsində övladları ya olan şəxslər) tərəfindən geyim forması ilə bağlı tələblərə riayət olunmasını təmin etmək də daxil edilib.

## Azərbaycan və Almaniya siyasi dialoqun dərinləşdirilməsi barədə razılaşıblar

**Azərbaycan və Almaniya siyasi və diplomatik əməkdaşlığın daha da inkişaf etdirilməsi barədə razılığa gəliblər.**

Bu barədə Berlində iyulun 21-də Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında imzalanmış İkitərəfli Tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamədə qeyd edilib. Bəyanatda qeyd edilib ki, tərəflər nazirliklər və dövlət qurumları arasında müntəzəm məsləhətləşmələrin aparılmasını, yüksək səviyyəli səfərlərin və dialoqların davam etdirilməsini, eləcə də qarşılıqlı maraq doğuran ikitərəfli, regional və beynəlxalq məsələlər üzrə praktiki əməkdaşlığın gücləndirilməsini nəzərdə tuturlar.

Sənəddə vurğulanub ki, Azərbaycan və Almaniya uzunmüddətli və dostluq münasibətlərinə əsaslanaraq qarşılıqlı etimad çərçivəsində tərəfdaşlığı daha da dərinləşdirmək niyyətindədirlər.

## Azərbaycanın Almaniyaya ixracının əsas hissəsini xam neft təşkil edir

Ötən il Almaniya ilə ticarət dövriyyəmiz təxminən 1,5 milyard dollar təşkil edib. Bizim ixracımızın əsas hissəsini xam neft təşkil edir.

Bu sözləri Prezident İlham Əliyev Almaniyanın Federal Kansleri Fridrix Merts ilə mətbuat konfransında söyləyib.

”Azərbaycan tələb olunan həcmdə neft tədarük edə bilər. Bu, həm daxili mənbələr, həm də enerji şirkətimiz SOCAR-ın treydinq bölməsi vasitəsilə həyata keçirilə bilər. Yəni burada hər hansı problem yoxdur”,- deyə Prezident İlham Əliyev vurğulayıb.

# Strateji dialoqun başlanğıcı

**Azərbaycan ilə Almaniya arasında münasibətlər qarşılıqlı hörmətə, etimada və ortaq maraqlara əsaslanan uzunmüddətli əməkdaşlıq ənənələrinə malikdir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra iki ölkə arasında diplomatik münasibətlər qurulmuş, sonrakı illərdə siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi, ticarət, təhsil və mədəni-humanitar əlaqələr ardıcıl şəkildə inkişaf etmişdir. Almaniya Avropanın aparıcı siyasi və iqtisadi güclərindən biri kimi Azərbaycanın Avropa məkanında mühüm tərəfdaşlarından hesab olunur. Eyni zamanda, Azərbaycan Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə, əlverişli geostrateji mövqeyi, nəqliyyatlogistikaimkanları və regional sabitliyin təmin edilməsindəoynadığı rol sayəsində Almaniyanın Cənubi Qafqaz siyasətində xüsusi yer tutur.**

Son illər ərzində dövlət və hökumət nümayəndələrinin qarşılıqlı səfərləri, yüksək səviyyəli görüşlər, iqtisadi forumlar və birgə layihələr iki ölkə arasında əməkdaşlığın daha da dərinləşməsinə xidmət etmişdir. Xüsusilə enerji, yaşıl iqtisadiyyat, bərpaolunan enerji mənbələri, sənaye, yüksək texnologiyalar və nəqliyyat sahələrində formalaşan tərəfdaşlıq münasibətləri Azərbaycan-Almaniya əlaqələrinin strateji məzmununu daha da zənginləşdirmişdir.

Müasir dövrdə dəyişən geosiyasi və geoiqtisadi reallıqlar fonunda bu əməkdaşlığın yeni mərhələyə qədəm qoyması hər iki dövlət üçün mühüm əhəmiyyət kəsb edir.

Məhz belə bir şəraitdə 2026-cı il iyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına rəsmi səfəri iki ölkə arasında münasibətlərin inkişafında mühüm siyasi hadisə kimi qiymətləndirilir. Səfər çərçivəsində keçirilən yüksək səviyyəli görüşlər, imzalanan sənədlər və dövlət başçısının verdiyi bəyanat göstərir ki, Azərbaycan ilə Almaniya arasında əməkdaşlıq artıq yeni keyfiyyət mərhələsinə qədəm qoyur.

Prezident İlham Əliyev bəyanatında xüsusi olaraq qeyd etdi ki, Azərbaycan və Almaniya artıq strateji dialoqun başlanmasına nail olublar. Bu fikir iki ölkə arasında münasibətlərin yalnız iqtisadi və ticarət çərçivəsində deyil, həm də siyasi, təhlükəsizlik, enerji, nəqliyyat, elm və innovasiya kimi sahələrdə daha sistemli şəkildə inkişaf etdirilməsi niyyətini ifadə edir. Strateji dialoq dövlətlər arasında qarşılıqlı etimadın möhkəmlənməsinə, regional və qlobal məsələlər üzrə məsləhətləşmələrin intensivləşməsinə, eləcə də uzunmüddətli əməkdaşlıq mexanizmlərinin formalaşmasına xidmət edir.



Səfər zamanı imzalanmış Birgə Bəyannamə Azərbaycan-Almaniya münasibətlərinin gələcək inkişafının yol xəritəsi kimi mühüm əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin sözlərinə görə, bu sənəd iqtisadi əlaqələrin daha da genişləndirilməsinə, investisiyaların təşviqinə, sənaye əməkdaşlığının inkişafına və yeni layihələrin həyata keçirilməsinəciddi təkan verəcək. Almaniya dünyanın ən güclü sənaye və texnologiya mərkəzlərindən biri olmaqla yanaşı, Avropanın aparıcı iqtisadiyyatıdır. Bu baxımdan alman şirkətlərinin Azərbaycanın qeyri-neft sektoruna yatıracağı investisiyalar ölkənin iqtisadi şaxələndirmə siyasətinə mühüm dəstək verə bilər.

Azərbaycan son illərdə əlverişli investisiya mühiti, müasir infrastruktur, rəqəmsal iqtisadiyyatın inkişafı və yaşıl enerji layihələrinin həyata keçirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edib. Almaniyanın qabaqcıl texnologiyaları və yüksək innovasiya potensialı ilə Azərbaycanın iqtisadi inkişaf strategiyasının uzlaşdırılması hər iki ölkə üçün qarşılıqlı faydalı nəticələr vəd edir. Xüsusilə bərpa olunan enerji, rəqəmsallaşma, nəqliyyat-logistika, sənaye istehsalı, kənd təsərrüfatı və peşə təhsili sahələrində əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar mövcuddur.

Prezident İlham Əliyev bəyanatında Azərbaycan-Almaniya münasibətlərinin yalnız ikitərəfli çərçivə ilə məhdudlaşmadığını, bu əməkdaşlığın bütövlükdə Cənubi Qafqaz regionunda sülhün, sabitliyin və əməkdaşlığın möhkəmlənməsinə xidmət etdiyini də vurğuladı. Son illərdə regionda yeni geosiyasi reallıqlar formalaşıb və iqtisadi inteqrasiya, nəqliyyat-kommunikasiya layihələri regional əməkdaşlığın əsas istiqamətlərindən birinə çevrilib.

Almaniyanın Avropa İttifaqının aparıcı dövləti kimi regiona artan marağı və fəallığı Cənubi Qafqazın beynəlxalq əməkdaşlıq məkanı kimi əhəmiyyətini daha da artırır.

Azərbaycan uzun illərdir Avropa ilə Asiyanı birləşdirən mühüm nəqliyyat və logistika qovşağı rolunu uğurla yerinə yetirir. Orta Dəhlizin inkişafı, beynəlxalq yükdaşımaların genişləndirilməsi, müasir liman və dəmir yolu infrastrukturu ölkənin tranzit imkanlarını əhəmiyyətli dərəcədə artırıb. Almaniya kimi iri iqtisadi gücün bu layihələrdə maraqlı tərəf kimi iştirakı təkcə ikitərəfli iqtisadi əlaqələrin deyil, Avrasiya məkanında ticarət əlaqələrinin inkişafına da müsbət təsir göstərə bilər. Enerji sahəsində əməkdaşlıq da Azərbaycan-Almaniya münasibətlərinin mühüm istiqamətlərindən biri olaraq qalır. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsindəetibarlı tərəfdaş kimi tanınır.

Eyni zamanda, ölkə yaşıl enerji strategiyasını sürətlə həyata keçirir, günəş və külək enerjisi üzrə iri layihələr reallaşdırır.

Almaniyanın bu sahədə malik olduğu qabaqcıl texnologiyalar və uzun illərin təcrübəsi birgə layihələrin həyata keçirilməsi üçün geniş perspektivlər açır. Yaşıl hidrogen, enerji səmərəliliyi və karbon emissiyalarının azaldılması istiqamətində mümkün əməkdaşlıq hər iki ölkənin strateji maraqlarına cavab verir.

Elm, təhsil və humanitar sahələrdə əlaqələrin genişləndirilməsi də əməkdaşlığın vacib istiqamətlərindəndir. Universitetlər arasında tərəfdaşlıq proqramları, tələbə və müəllim mübadiləsi, birgə elmi tədqiqat layihələri və innovasiya ekosistemlərinininkişafı gələcək əməkdaşlığın dayanıqlı əsaslarını formalaşdırır. Mədəniyyət sahəsində qarşılıqlı layihələrin təşviqi isə xalqlar arasında dostluq və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edir.

**Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri Azərbaycan-Almaniya münasibətlərinin inkişafında yeni strateji mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Strateji dialoqun qurulması, Birgə Bəyannamənin imzalanması, iqtisadi əməkdaşlığın genişləndirilməsivə regional sülhə verilən önəm göstərir ki, iki ölkə qarşılıqlı etimada və ortaq maraqlara əsaslanan uzunmüddətli tərəfdaşlıq modeli formalaşdırmaqəzmindədir. Bu əməkdaşlığın gələcək illərdə daha da dərinləşməsi həm Azərbaycan və Almaniyanın milli maraqlarına, həm də Avropa ilə Cənubi Qafqaz arasında sabitlik, təhlükəsizlik və davamlı inkişafın təmin olunmasına mühüm töhfə verəcəkdir.**

**“Ədalət”**

## Gürcüstan və Azərbaycan rəqəmsal icazələrin tətbiqinə başladı

**Gürcüstan və Azərbaycan beynəlxalq avtomobil yükdaşımaları üçün rəqəmsal icazələrin verilməsi və mübadiləsi prosesinə uğurla başlayıblar.**

Adalet.az xəbər verir ki, bu barədə Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyin məlumat yayıb.

Bildirilib ki, beynəlxalq yük daşımaları ilə məşğul olan gürcü daşıyıcıları, Türkiyədə olduğu kimi, Azərbaycanda da icazələrin elektron formatından istifadə edəcəklər.

Oxşar yenilik 2026-cı ilin iyul ayının əvvəlində Türkiyədə də tətbiq edilib. Nazirliyin Quru Nəqliyyatı Agentliyinin direktoru Bakur Mikadze deyib ki, rəqəmsal sistem daşımalarla bağlı inzibati prosedurları əhəmiyyətli dərəcədə sadələşdirir, sürətli və təhlükəsiz məlumat mübadiləsini təmin edir, texniki manelələri və kağız sənədləşmə ehtiyacını azaldır, beynəlxalq avtomobil yükdaşımalarının idarə olunması üçün müasir, şəffaf və səmərəli mexanizmlər yaradır. Onun sözlərinə görə, icazələrin elektron formatda verilməsi və monitorinqi prosesi xeyli sürətlənir və beynəlxalq daşıma əməliyyatlarının səmərəliliyini artırır.

İkitərəfli əməkdaşlığa əsaslanan rəqəmsal icazə sistemi Gürcüstan və tərəfdaş ölkənin icazə sənədlərinin mübadiləsi və idarə olunması üçün vahid elektron sistemdən istifadəsini təmin edir.

Effektiv Gürcüstan-Azərbaycan danışıqları nəticəsində 2026-cı ilə qədər hər növ icazə sənədinin 1000 elektron forması mübadiləsi aparılıb və 2027-ci il üçün rəqəmsal formata tam keçid planlaşdırılır.

**Agentlikdən bildirilib ki, bu yeniliklər və imkanlar beynəlxalq yol nəqliyyatı sektorunun inkişafına töhfə verəcək, nəqliyyat əməliyyatlarını sadələşdirəcək və Gürcüstanın regional tranzit mərkəzi kimi rolunu daha da gücləndirəcək.**

# Ankara Zirvəsi: Yüksələn Türkiyə




*Fikrət Əkbərli,*
*Türkiyə üzrə araşdırmaçı-yazar*


**Ankara, 07-08 İyul 2026 tarixlərində 36-cı NATO Dövlət və Hökumət Başçıları Zirvəsinə ev sahibliyi etdi. Bu paragrafın qəzet üslubuna, akademik səviyyəyə və Azərbaycan türkcəsinin təbii ifadə tərzinə uyğun tərcüməsi belədir:**

Şübhəsiz ki, NATO Zirvəsi Türkiyənin müdafiə sənayesinin həm tanıdılması, həm də gələcək əməkdaşlıqların genişlənməsi və dərinləşməsi baxımından olduqca mühüm imkan yaratdı. Dünya mediası NATO Zirvəsini addım-addım izlədiyi bir vaxtda Ankara, nümayiş etdirilən məhsullar vasitəsilə müdafiə texnologiyaları sahəsində əldə etdiyi nailiyyətləri əsl vizual nümayişə çevirdi. Bu baxımdan Türkiyə NATO-nun ehtiyac duyduğu müdafiə qabiliyyətləri üçün təkcə geostrateji mövqeyi, güclü ordusu, döyüş təcrübəsi və hərbi bilikləri ilə deyil, eyni zamanda inkişaf etmiş müdafiə sənayesi ilə də nə qədər strateji əhəmiyyət daşıdığını bir daha bütün dünyaya nümayiş etdirdi.

Zirvəni əvvəlkilərdən fərqləndirən bir sıra məqamlarla yanaşı, NATO-nun dəyişimini ən aydın şəkildə simvolizə edən iki mühüm gündəm mövzusu vardı.

Birincisi; NATO yeni təhlükəsizlik anlayışına dair dünyaya çox açıq mesaj verdi. Rusya-Ukrayna müharibəsi ilə birlikdə konvensional müharibə geri döndü və bu, NATO-nun sərt gücünü ən yüksək səviyyədə çəkindirici vasitəyə çevirmək üçün yenidən qazanması demək idi. Bu çərçivədə zirvə, əvvəlkilərdən fərqli olaraq NATO-nun gələcəyinə dair yeni təhlükəsizlik konsepsiyasını və bu konsepsiyanın əsasını ilk dəfə bu qədər açıq şəkildə ortaya qoymuş oldu

Yeni subyekt artıq yalnız ABŞ-ın hegemonluğu və himayəsi altında fəaliyyət göstərən NATO deyildi. Eyni zamanda bu yanaşma, ABŞ-ın səlahiyyət, rol və məsuliyyətlərini tam şəkildə öz üzərinə götürəcək bir Avropa təsəvvürünə də əsaslanmırdı. Əksinə, yeni konsepsiya ABŞ ilə Avropa arasında tarazlığın təmin olunduğu ortaq bir təhlükəsizlik strukturunun formalaşdırılmasını hədəfləyirdi. Artıq Avropa NATO-nun yeni təhlükəsizlik konsepsiyasının qətiyyətli müdafiəçisi kimi daha böyük rol




oynamaq və bu rolu daha geniş məsuliyyət daşımaqla doğrultmaq niyyətində idi.

Beləliklə, NATO-nun yeni mərhələsində Avropa həm Rusiya-Ukrayna müharibəsinin Kiyevin xeyrinə nəticələnməsi üçün daha geniş hərbi, diplomatik və iqtisadi dəstək verməyə hazır olduğunu nümayiş etdirir, həm də yaxın və orta perspektivdə baş verə biləcək mümkün konvensional müharibə şəraitində ehtiyac duyacağı müdafiə və hücum imkanları ilə hərbi qabiliyyətləri əldə etməyi qarşısına məqsəd qoyurdu.

NATO Avropasının dünyaya verdiyi mesaj ABŞ-dan asılılıq deyil, tərəfdaşlıq statusuna əsaslanan yeni bir yanaşmanı ifadə edirdi. Qısası, söhbət Transatlantik təhlükəsizlik arxitekturasının süqutundan deyil, NATO Avropasının mövcud təhlükəsizlik sisteminə daha fəal və daha təsirli şəkildə yenidən inteqrasiyasından gedirdi. Məhz bu məqsədlə yeni təhlükəsizlik konsepsiyası, müdafiə potensialı və hərbi imkanların gücləndirilməsi çərçivəsində ilk dəfə bu qədər ətraflı, konkret və praktik müstəvidə müzakirə olundu.

İkinci əsas gündəm mövzusu isə birinci başlığın nəzəriyyədən praktikaya keçirilməsi üzərində qurulmuşdu. İttifaqın hədəflədiyi çəkindirmə potensialına nail ola bilməsi üçün Rusiya-Ukrayna müharibəsindən çıxarılan dərslərin yalnız bəyanatlarda deyil, NATO-nun müdafiə siyasətində və praktiki fəaliyyətində də öz əksini tapması zəruri idi. Bu məqsədlə müdafiə sənayesində daha çevik, operativ və real vaxt rejiminə uyğun inkişaf tempinin təmin olunması məsələsində üzv dövlətlər arasında ortaq mövqe formalaşdı.

Beləliklə, NATO Zirvəsi çərçivəsində keçirilən Müdafiə Forumu, ittifaqın gələcək təhlükəsizlik strategiyası və hərbi planlaşdırması istiqamətində müdafiə sənayesi sahəsində çoxsaylı əməkdaşlıq layihələrinə ev sahibliyi etdi. NATO-nun Baş katibi Mark Rutte də Zirvədən əvvəl yeni müdafiə əməkdaşlıqlarının elan ediləcəyini bildirmiş, daha sonra isə 2026-cı ilin aprel ayında ASELSAN-a etdiyi səfərə istinad edərək Türkiyənin müdafiə sənayesini yüksək qiymətləndirmişdi.

Türkiyənin müdafiə sənayesinin NATO Zirvəsindən gözlədiyi nəticələri əldə edə bilməsi üçün bir sıra ilkin şərtlərin mövcud olduğunu da nəzərdən qaçırmamaq lazımdır. Bu şərtlərin başında siyasi mexanizmin müdafiə ekosistemini dəstəkləməyə davam etməsi dayanmaqdadır.

Bununla yanaşı, hərbi, təhlükəsizlik, müdafiə və xarici siyasət bürokratiyası arasında əməkdaşlıq və koordinasiya mexanizminin səmərəli fəaliyyəti də həlledici əhəmiyyət daşıyır. NATO prizmasından baxdıqda Türkiyənin ittifaq ölkələri ilə həyata keçirdiyi hərbi və təhlükəsizlik diplomatiyası ilə müdafiə sənayesi diplomatiyasının qarşılıqlı şəkildə güclü tərəfdaşlıq nümayiş etdirməsi xüsusi önəm kəsb edir.

Digər mühüm məsələ isə zəruri iqtisadi şərtlərin təmin edilməsidir. Çünki müdafiə sənayesinin dayanıqlı inkişafı üçün iqtisadi mühitin etibarlı və sabit olması həyati əhəmiyyət daşıyır. Bu, həm mövcud layihələrin uğurla başa çatdırılması və seriyalı istehsal mərhələsinə keçirilməsi, həm də yeni innovasiya layihələrinin həyata keçirilməsi və bunun üçün zəruri infrastrukturun yaradılması baxımından vacib şərtdir.

Digər mühüm ilkin şərt isə Türkiyənin müdafiə sənayesinə milli məsələ kimi yanaşılması və onun gələcək nəsillərə hesablanmış strateji model əsasında qorunub inkişaf etdirilməsidir. Bu yanaşma müdafiə sahəsində savadlılığın təşviqinə, cəmiyyətdə bu istiqamətdə maarifləndirmənin və yüksək şüurun formalaşmasına imkan yaradır. Çünki müdafiə sənayesinin inkişafı üçün ən vacib amil peşəkar, ixtisaslı və təcrübəli insan resursudur.

Bu potensialın qorunması və daha da zənginləşdirilməsi üçün intellektual kapitala davamlı investisiyaların yatırılması zəruridir. Belə investisiyalar həm Türkiyənin gənc insan resurslarının məşğulluq imkanlarının genişləndirilməsi baxımından, həm də müdafiə sənayesinin ABŞ və Avropanın qabaqcıl texnologiyaları ilə yüksək rəqabət qabiliyyətinə malik olması üçün mühüm əhəmiyyət kəsb edir.

**Bütün bu şərtlər yerinə yetərsə, Türk müdafiə sənayesinin yaxın gələcəkdə NATO bazarının ən güclü oyunçularından biri kimi önə çıxması ehtimalı yüksəkdir.**


*Elxan Şükürlü*


# Türkiyə–İran yaxınlaşması...



**ABŞ-İsrail ittifaqının Türkiyə və İran arasında nifaq salmaq, məzhəbçi düşüncəni yenidən coğrafiyamıza daşımaq və körükləməklə bu iki müsəlman ölkəni üz-üzə gətirmək cəhdləri alınmır.**

**Şübhəsiz ki, bu işdə həm Türkiyə, həm də İran rəhbərliyinin soyuqqanlı davranışları və kritik məqamlarda birbirini qoruyacaq açıqlamaları çox önəmli rol oynayır.**

**Diqqət yetirin: sonuncu dəfə NATO-nun 7-8 iyul tarixlərində Ankarada keçirilən sammiti zamanı ABŞ prezidenti Tramp elan etmişdi ki, guya, Türkiyə İrana qarşı əməliyyatlarda ABŞ-İsrail ittifaqına kömək edib. İsrail və Qərb mediası dərhal bu fikrin daha geniş auditoriyada yayılmasına, sosial şəbəklərdə nifaqsalıcı tərzdə müzakirəsinə başlamışdı. Azərbaycan da bu təfriqəçi fikrin daha çox tirajlandığı və saxta səhifələrlə, profillərlə ictimai rəyin məqsədli yönləndirildiyi ölkələr sırasındaydı...**

**Ancaq bugünlərdə İranın xarici işlər naziri Abbas Arakçının açıqladığı bircə fakt Türkiyə ilə İranı üz-üzə gətirməyə, bu iki ölkə arasında yeni bir ”Çaldıran savaşı” salmağa çalışanların arzularını anındaca puça çıxardı. Arakçı elan etdi ki, ABŞ və İsrailin silahlı kürdlərin əliylə İranı parçalamaq planlarının qarşısının alınmasında Türkiyə mühüm rol oynayıb!**

**Paralel şəkildə, İran silahlı qüvvələrinin hazırda İraqdakı silahlı kürd qruplaşmalarına qarşı keçirdiyi əməliyyatlara Türkiyə kəşfiyyatının böyük informasiya dəstəyi verdiyi haqda da iddialar yayılıb.**

**Beləliklə, NATO-nun Türkiyədəki sammitinin ardınca başlanan ”Türkiyə İrana qarşı yeni əməliyyatlarda ABŞ-la birgə hərəkət edəcək” tezisinin ictimai rəyə təsiri getdikcə zəifləyir, əvəzində isə ”Türkiyə İranla birgə hərəkət edir” düşüncəsi ön plana keçir.**

**Hazırda Türkiyədə Qərbçi düşüncənin əsas siyasi dayağı olan CHP-də baş verənlər də bir daha təsdiqləyir ki, Ərdoğan komandasının strategiyasında Türkiyənin gələcəyi NATO ilə birgə təsəvvür edilmir və uyğun alternativ formalaşan kimi, Türkiyə bu blokdan uzaqlaşacaq. Çünki Türkiyəyə ən böyük təhdid məhz NATO üzvü olan ölkələrdir.**

**Müasir Türkiyənin xarici siyasət kursunun müəyyənləşməsində və həyata keçməsində prezident Ərdoğanla bərabər müstəsna rol oynayan, əksər analitiklərin ”Ərdoğanın siyasi varisləri” kimi nəzərdən keçirdikləri digər iki mühüm fiqurun - İbrahim Kalın və Hakan Fidanın fəaliyyətləri də təsiqləyir ki, onlar Türkiyənin İranla birgə addımlamasının Yaxın Şərqdə sülhün və sabitliyin təmin edilməsinə, eləcə də bütövlükdə İslam dünyasının yenidən dirçəlişinə böyük təkan verəcəyi qənaətindədilər.**

**Türkiyə və İranın ənənəvi məzhəbçi yanaşmanı bir kənara ataraq, strateji coğrafiyalarda ümumi düşmənə qarşı ortaq hərəkət strategiyaları seçmələri təkcə bu iki ölkəyə yox, elə Azərbaycana da olan əsas təhdidləri neytrallaşdırmaq gücündədir.**

# "Qarşılıqlı hava hücumları qısa müddət ərzində dayandırılmasa..."

**”Rusiya-Ukrayna müharibəsini elə bir həddə çatdırıblar ki, artıq cəbhə döyüşlərindən daha çox qarşılıqlı şəkildə hava hücumları həyata keçirilir ki, bu da kifayət qədər ciddi bir məsələdir. Yəni cəbhə döyüşlərində müəyyən irəliləmələr qət edilə bilər. Amma tərəflər çox ciddi nəticə əldə edə bilmirlər. Rusiya Ukraynanı nəzarətə götürməli idi, amma götürə bilmədi. Bu ciddi bir məsələdir”.**

Bunu Adalet.az-a açıqlamasında politoloq Samir Hümbətov deyib. Onun sözlərinə görə, Ukrayna da döyüşdə ciddi bir uğur əldə edə bilib:

”İşğal edilmiş ərazilərini geri qaytarıb və bu da araşdırılacaq bir məsələdir.



Amma demək olar ki, son iki ildə hava hücumlarına kökləniblər. Xüsusilə də son üç ayda hava hücumları intensivləşib və daha çox strateji obyektlər hədəfə alınır. Düzdü, son iki ildə Moskva və Peterburq şəhərləri nəzərə alınmaqla Rusiyanın bir çox şəhərlərini Ukrayna dronları hədəfə alırsa, Moskva da Ukraynanın Kiyev kimi böyük şəhərlərini vurur. Amma son iki ayda Rusiyanın strateji obyektləri sıradan çıxarılır. Rusiya da bunun qarşılıqlı cavabını verir. Bu isə çox ciddi məsələdir. Əgər bu belə davam edərsə, hər iki ölkənin ciddi iqtisadi böhranı yaranması riski var. Hələ ki, onu indi ciddi hiss etmirlər. Amma bu digər təchizatlara keçəndə problemlərlə üzləşə biləcəklər. Gələcək üçün isə bu böyük böhran deməkdir. Bu baxımdan düşünürəm ki, qarşılıqlı hava hücumları qısa müddət ərzində dayandırılmasa, gələcəkdə hər iki ölkəni böhran halı gözləyir. Humanitar iqtisadi böhran ola bilər ki, bundan da müharibəsiz ölkələr belə ciddi zərər görə bilərlər”.

**Vasif**

# “İndi İrandakı mühafizəkar rejimin məntiqinə görə...”

**”İran Kəşfiyyat Nazirliyi xarici ölkələrdə fəaliyyət göstərən iranlıların təsis etdiyi müxalifət media orqanları, bir neçə xarici ölkənin İranla əlaqəli media qurumları və iranlı media fəallarının adlarını açıqlayıb. Siyahıda Güney Azərbaycan Televiziyası da var. Deməli, Günaz TV-yə müsahibə verən, mesaj yazan, foto və video göndərən şəxslərin ”casusluğa görə cəzanın artırılması haqqında qanunun 4-cü maddəsinə” əsasən ağır cəzalandırılacaqları barədə xəbərdarlıq edilib”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. ”İkinci Qarabağ müharibəsi zamanı güneyli soydaşlarımız Günaz TV-yə işğalçı Ermənistana daşınan hərbi yüklərin foto və videolarını göndərirdilər. İran üzərindən Rusiya hərbi texnikasının Azərbaycanla müharibə aparan Ermənistana daşınmasının üstü açıldıqdan sonra Tehrana kəskin reaksiya bildirildi və proses dayandırıldı. İndi İrandakı mühafizəkar rejimin məntiqinə görə, həmin foto və videoları Günaz TV-yə göndərən soydaşlarımız cəzalanmalıdır. Günaz TV Güney Azərbaycanda çanaqlar vasitəsilə izlənilir, müxtəlif proqramlara mesajlar yazılır, zənglər edilir, şərhlər verilir. İran rejimi bunun qarşısını almağa çalışır.Azərbaycan da oxşar qərar verməlidirmi? Başda ”Səhər” kanalı olmaqla İranda Azərbaycan əleyhinə təbliğat aparan, dezinformasiya yayan televiziya kanallarına müsahibə verən, foto və video göndərən şəxslər hüquqi məsuliyyətə cəlb olunmalıdırlarmı? Çünki, ”Səhər” televiziya kanalının əməkdaşları tez-tez Azərbaycanın siyasi ekspertlərinə də zənglər edir, rəylər almağa çalışırlar”, - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**



Səxavət Məmməd

# DOMENİSTAN: Əkinçilikdən malakeşliyə

*(Tarixi-elmi-fakktoloji araşdırma)*

*Hadisə vaqe olub manatdan (milad, yox bir hicri! Dedim manat, demək ki, manat!) 3 min il öncə.*

*Təbəri yazırdı: savadsızlıq, cəhalət tüğyan edən, böyüklük barədə çoxlu utopiyaları olan, ancaq heyvandan çox hüquqı olmayan bir toplumda "Əkinçi" adlı bir qəzet meydana gəlir. Qəzetin ana xətti şumlamaq, əkmək, biçmək və maldarlıq olacaqdı. Oxuması-yazması olan əhali mərkəzdə yaşayır, onlar da nə heyvandarlıqla, nə də əkinçiliklə məşğul olurdular. Qəzetin arada insan hüququndan da yazmışlığı olurdu - onu da heyvanlarla müqayisə apararaq. Heyvanlardan danışıldığı yerdə qəfil hökumətə söz soxmaq üçün insanları misal gətirirdilər. Misal üçün: "Heyvan haraya getsə gedər, hər tərəfə istəsə baxar, nə istəsə eləyər, keyfi necə istəsə mələyər; amma insan nəinki öz istədiyini edə bilmir, hatta keyfi istədiyi kimi danışa da bilmir".*

*"Əkinçi" arada əkinçilikdən reketçiliyə də meyil edir. Ancaq Təbəri qeyd edir ki, çox da şey eləmək lazım deyil. 1875-ci ilin bu günü "Əkinçi" əkin-biçindən yazmağa başlayanda, artıq qəzetlər Danimarkada 1848-ci il inqilabına dəstək olmuşdu, 1849-cu ilin yeni konstitusiyası isə Danimarka mətbuatını azad etmişdi.*

*Təbəri yazırdı: Domenıstan adlı ölkədə əkinçilər Əlinin papağını Əhmədin, Əflatunun papağını Rəşadın başına qoymaqla yaşamaq uğrunda mübarizə aparırdılar. Kastalaşma domen sahiblərinin ortaya çıxması ilə başlayır. Domen sahiblərinin əkinçiləri əzməsi və istismar etməsi nəticəsində əkinçiliyə ağır zərbə dəyir.*

*Aristotel yazırdı: Domenıstan adlı məmləkətdə əkinçilər tədbirdən tədbirə qaçmaqdan əkin-biçin üçün vaxt tapmırdılar. Səhər yeməyində bal-qaymaq yeyir, onları adam yerinə qoymayan kastaların (su, gübrə) tədbirlərinə qatılır, qarınlarını yaxşıca otarır, şəkillər çəkdirib paylaşır və əkinçiliyin inkişafından dəm vururdular.*

*Buxari yazırdı: Domenıstan adlı məmləkətdə Ramazan ayında əkinçilər iftarlarda ağızlarının suyunu axıdırdılar. Səhih məlumata görə, hətta oruc tutmayan əkinçilər onları niyə iftara çağırmırlar deyə dava-dalaş edir, kastalara çürümüş kartof, sovkaya düşmüş pomidor atır, peyin atmaqla hədələyirdilər. Araşdırmalar göstərir ki, pomidor və peyin atmağı müasir dövrdə şantaj və təhdid kimi ifadələrlə eyniləşdirmək mümkündür.*

*Aristotelin "Qələm fahişələrinin üsyanları" adlı əsərində qeyd olunub ki, əkinçilər gördükləri, səhih mənbələr isə görmədikləri işə görə medal almaq üçün yuxarı kastaların elçi daşlarının üzərində oturub məktublar yazaraq kastaların beynini xarab edirmişlər. Aristotelin əkinçiləri niyə "qələm fahişələri" adlandırması isə günümüzə gəlib çatmayıb. İddia olunur ki, hansısa bicbala daş lövhələri götürüb kasta başçısının divarına hörüb, üstünü də bərk-bərk malalayıb.*

*Titi Livi yazırdı: Əkinçilər apardıqları ağır və keşməkeşli mübarizədən sonra, zamanın tələbinə uyğun olaraq əkibbiçməyin daşını atıb keçirlər malakeşliyə. Artıq əkinçilər anlayırlar ki, əkib-biçməklə bala saxlamaq olmaz; ona görə də əllərinə mala alıb düşürlər kastaların canına. Əvvəl kastalara qarşı gələrək nəyinsə düzələcəyinə ümid edən əkinçilər, çörəyin malada olduğunu anlayırlar. Beləliklə, əkinçilərin iki sinfə ayrılması prosesi başlayır. Malakeşlər əkinçilərin başına keçirlər. Keçmiş əkinçibaşılar o qədər mala vururlar ki, bir gün qərar verilir: "Malakeşlər mükafatlandırılsın!" Əkinçilər işləyir, malakeşlər qazanır. Təbəriyə görə, bəzi malakeşlər hətta dövrünün kasta rəhbərləri qədər geniş imkanlara malik olublar. Svetoninin "İdeoloji cındırlıq, yaxud Əkinçinin həyatı" adlı fəlsəfi əsərində qeyd olunur ki, Domenıstan adlı məmləkətdə malakeşlər bir yerə yığılanda, gizli toplantılarında cəsarətdən, vicdandan, düzlükdən və inkişafdan dəm vururmuşlar. Bəzi malakeşlər hətta Xalq Əkinçisi Bayramında ləyaqətli, vicdanlı əkinçiləri təbrik edəndə sinələrini irəli verib təbrikləri öz üzərlərinə götürürmüşlər. Fukidid bu prosesi "ləçərliyin ləçəkləri" kimi səciyyələndirirmiş.*

*İbn Xəldun "Mələkə-i Malakeşiyyə" əsərində yazırdı ki, əkinçilər mala vurmağa başladıqca onların arasında elə bir həmrəylik yaranır ki, onlar artıq öz malalarını kasta rəhbərlərinin yox, bir-birinin kürəyinə çəkməyə başlayırlar.*

*Sıma Çyan "Əkinçilik qeydləri" əsərində xarici istilaçıların əkinçiliyə yeniliklər gətirdiyi bir zamanda, Domenıstanda əkinçilərin ağır vəziyyətdə yaşadığını, malakeşlərin isə dəmşalaqlıq uğrunda canfəşanlıq elədiyini bir neçə yerdə qeyd edib.*

*Korneli Tatsit "Ananızı..." adlı əsərində yaranmış vəziyyəti kəskin tənqid edirmiş. Ancaq tarixi mənbələr göstərir ki, onun dəriyə yazdıqları gönüqalınlara təsir etmirmiş.*

*Strabon: "Coğrafiya qədərdir, mənim balam" deyə-deyə ölüb.*

*Bunları oxuyan Səxavət Məmməd yazırdı: "Sizin də, malakeşlərin də, bayramların da..."*

# "Həqiqətə inanan siyasətçi isə güzgünü daha da şəffaf edir ki..."

**"Həqiqətin güzgüsündə görünən siyasi reallıq. Dünyada siyasi güzgüləri cəmiyyətin baxış bucağında dəyişə bilən, güclü, məqsədli və planlı oyunlara sahib olan, strateji siyasi yol ortaya qoyan düşüncənin fəlsəfi mahiyyəti çox dərinliklərdə gizlənir. O qədər dərin ki, hətta güzgü ilə belə o dərinliyə baxanda görmə məhdudiyyəti kifayət qədər mövcuddur. Bəzi siyasətçilər güzgünü sındırmaqla üzlərindəki ləkələri, qəlblərindəki xainliyi, millətə satqınlıqlarını gizlədə biləcəklərini düşünürlər. Amma anlamırlar ki, güzgünü sındırmaqla ləkə silinmir, satqınlıq aradan qalxmır, xainlik yox olmur".**

Bunu Adalet.az-a açıqlamasında "Yeni Xətt" Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

Onun sözlərinə görə, həqiqətdən qaçan siyasətçi güzgünü sındırır və onu günahlandırır:

"Amma həqiqətə inanan siyasətçi isə güzgünü daha da şəffaf edir ki, o şəffaflıq dünyaya səpələnsin. Bütün insanlar şəffaf, ədalətli mübarizə metodlarını güzgüdə əks olunmaqla həqiqətlərə örnək olsun. Dünyanın siyasi mahiyyətini əks etdirən güzgülərə təsirimiz olsun ki, sivilliyin bəşəriyyət üçün təhlükəli olmayan düşüncəsinin mahiyyətini, fəlsəfəsini aydın şəkildə o güzgüdə görək. Həqiqətləri İlham Əliyev öz siyasi metodologiyası, öz klassik dəyərləri, milli dəyərlərimizə sadiqliyi ilə dünyaya o güzgüdən çatdırmaq üçün əlindən gələni etdi və ciddi nəticə qazandı. Nəticə milli maraqlara xidmət, ərazi bütövlüyü, suverenlik, milli ideologiya, şəffaf etdiyi güzgüyə siyasi liderlərin baxışlarını təmin etmək və o baxışlarda dünyaya açılan yeni mövqeləri, ədalət, həqiqət və reallıqları təlqin etməkdir. Son Qarabağ Forumu, Qarabağın beynəlxalq media nümayəndələrinə açıq təqdim olunması bu baxımdan faktların yerində müşahidə olunmasına xidmət edən növbəti təşəbbüslərindən biridir".

Politoloq bildirib ki, bBu gün biz və bizim kimi düşünənlər, dünyanın tərkib hissəsi olaraq, dünyaya şəffaflıq gətirən, işıq gətirən, ədalət gətirən ideya daşıyıcılarıyıq:

"Amma dünyanın siyasi güzgüsünü qaranlığa çevirmək istəyənlərin məqsədi həqiqətlərin yerini dezinformasiyaya qurban vermək oldu. Qarşılıqlı etimadın əvəzinə rəqabət yaratdılar, beynəlxalq hüququn yerini çox vaxt güc siyasəti tutdu və cəmiyyətin, bəşəriyyətin baxışlarını dəyişdilər ki, o şəffaflığı dumanlı görsünlər. Amma biz həqiqətləri kölgədə qoymağa imkan vermədik. Bu, bizim üçün çox böyük dəyərdir. Bu, milli dəyərə çevrilən, milli sərvətə çevrilən düşüncə təfəkkürünü qoruyub saxlamaq və inkişaf etdirmək bizim vətəndaşlıq borcumuzdur.



Azərbaycanda güzgünü sındıran, güzgünü ləkələndirən jurnalistlər, siyasətçilər, ictimai insanlar olduğu kimi, dünyada da bu tip varlıqlar var və olacaq. Əslində, buradakılar dünyada xaricdən gələn o çürük ideyalara özlərini əsir edən, tabe edən zavallı güzgü sındıranlardır. Amma dünyanın bu kəsiminə artıq yer yoxdur. Şəffaflığa, ədalətə qarşı çıxan, baxışları qaranlıq, qəlbləri xəbis olanlar, sizin sındırdığınız güzgülər artıq effektini itirib. Siz hər tərəfdən Azərbaycanın dünya üçün yaratdığı siyasi güzgüdə özünüzü olduğu kimi görürsünüz - ləkəli. Dəyərli soydaşlar, əziz həmvətənlər! İnanın, çox acınacaqlı belə siyasi baxışların məhv olması üçün dünyada böyük düşüncəyə malik olan liderlərin siyasətinin mahiyyəti məhz bu ləkəlilərlə mübarizə aparmaqdır.

Azərbaycanın siyasətini, diplomatiyasını bu səviyyəyə çatdıran, ölkəmizi bu gün qürurlu bir dövlət, qüdrətli bir ölkə kimi qəbul etdirən siyasi düşüncəyə qoy həmişə var olsun! Yeri gəlmişkən Mənim bir dostum güzgü istehsalı ilə məşğul olur. O sahə ilə bağlı detallı məlumata malikik.

Böyük, müasir standartlara uyğun, işıqlı zavod sahibi olan sahibkar dostumdan bir xahişim var: güzgü çox strateji sahədir, çox ehtiyatlı olmaq lazımdır".

**Sübhan**

# «Ailələrin dağılması və nikahların azalması vətəndaş artımını da bloklayır...»

**"Ölkədə ailə quranların sayı boşananların sayından azdır - artıq mənfi tendensiya Azərbaycan ailəsinin qırmızı kitaba düşməsinə doğru aparır.Ailəni qorumaq lazımdır, lazım idi, ailə ölkənin varlığının sütunu idi. Özü də Ana Qanunun 17-ci maddəsinə görə ailə cəmiyyətin özyədiri-filan və s.".**

Adaet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib. "Ailələrin dağılması və nikahların azalması vətəndaş artımını da bloklayır. Gələcək üçün əsgər, işçi, kadr, evlənməyə insan və s. tapılmayacaq. Bəs, bu düzələnə oxşayırmı?Münasibətlər sistemi ləng nəticələr verir, bu gündən düzəltməyə çalışsaq, 5-10 ilə durumu ancaq balanslaşdırmaq mümkün olacaq.İşçi ehtiyatı əldən çıxan cəmiyyətlərdə sosium büdcədə yük hesab edilən qocalardan ibarət olacaq.Alternativ isə miqrant gətirməkdir ölkəyə.



Bu isə ən arzuedilməz haldır. Çünki bizim ölkəni təssüf ki, keyfiyyətli kadrlar seçmir. Əvəzində ölkəmizin dəyərli kadrları, beyinləri tərk edir. Əlimizdə qırmızı bir lampa gəzirik günün ortasında, işığı düşməsə də yandırır, yanacağı".

**Vasif**

# "Krımın və Donbasın Rusiyaya aid olduğu qənaətinə gəlmək olar"

**"Doğru Pərinçəkin lideri olduğu Türkiyə Vətən Partiyasının təşəbbüsü ilə iyulun 18-i və 19-da Ankarada "Böyük Müharibənin Qarşısını Alacaq İttifaq" adlı beynəlxalq konfrans keçirilib. Yayılan xəbərlərə görə, konfransda 17 ölkədən nümayəndə heyəti iştirak edib. İştirakçı dövlətlər arasında Azərbaycanın da adı var. Konfrans iştirakçıları Rusiya, Türkiyə, Çin və İran arasında strateji ittifaq yaratmağa çağırıblar".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Onun sözlərinə görə, yekun bəyanatda dörd Avrasiya ölkəsindən ibarət ittifaq təhlükəsizliyi təmin etməyə və böyük qlobal müharibə təhlükəsinə qarşı çıxmağa qadir olan yeganə qüvvə kimi müəyyən edilib:

"Sənəddə ABŞ və İsrailin hərəkətləri, eləcə də İran, Ukrayna, Qəzza zolağı və Livan ətrafındakı vəziyyət genişmiqyaslı hərbi münaqişə təhlükəsinin əsas mənbələri kimi vurğulanıb.

Doğu Pərinçək aylardır "dördlü ittifaq" ideyasının təbliğatıyla məşğul olur. Ona bu işdə rusiyalı "avrasiyaçı" dostu, Ukraynaya qarşı işğalçı müharibənin əsas ideoloqu, "Azərbaycan, Qazaxıstan və digərləri Rusiyaya bağlı olmalıdırlar" deyən Aleksandr Duqin dəstək verir. Pərinçək-Duqin ikilisinin ideyası Türkiyə və Azərbaycanın maraqlarına ziddir. Azərbaycan qonşu dövlətlərlə normal münasibətlərin tərəfdarıdır, ancaq Rusiya və İrandakı indiki reallıqlar şəraitində ölkəmiz bu dövlətlərlə vahid siyasi blokda yer ala bilməz. Çünki, Türkiyəni Rusiya və İranla strateji müttəfiqliyə sürükləmək istəyən anlayış Cənubi Qafqaz ölkələrini təhlükə altına atır. Digər tərəfdən Ankara konfransında iştirak edənlərin əksəriyyətinin Krımın və Donbasın Rusiyaya aid olduğu qənaətinə gəlmək olar. Azərbaycan Ukraynanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Prezident İlham Əliyev ukraynalılara "işğalla barışmayın" deyərkən, işğalçının ünvanını göstərir". Politoloq bildirib ki, Ankarada iştirak edən konfrans iştirakçıları isə Cənubi Qafqaz ölkələrinə, o cümlədən Azərbaycana Rusiyanın işğalçı siyasətinə dəstək verməyi və anti-Amerika siyasəti yürütməyi məsləhət bilirlər:

"Bu Azərbaycanın milli və təhlükəsizlik maraqlarına ziddir.

Beləliklə, bir ayın içində Ankarada, həm NATO sammiti, həm də anti-NATO beynəlxalq konfransı keçirilib. Ancaq orası da var ki, anti-NATO sammitinə də şərait yaradılıb, əks halda Türkiyənin paytaxtında "avrasiyaçıların" beynəlxalq konfransını keçirmək mümkün olmazdı, tədbirə az pul da xərclənməyib".

**Sübhan**

## Milli Mətbuat Gününə həsr olunan tədbir keçirildi



**Medianın İnkişafı Agentliyinin (MEDİA) təşkilatçılığı ilə 22 iyul - Milli Mətbuat Gününə həsr olunan tədbir keçirilib.**

Adalet.az xəbər verir ki, tədbirdə açılış nitqi ilə çıxış edən MEDİA-nın Müşahidə Şurasının sədri, AZƏRTAC-ın İdarə Heyəti sədrinin müavini Dağbəyi İsmayılov Azərbaycan milli mətbuatının 151 illik inkişaf yolunun ölkənin ictimai-siyasi və mədəni həyatında mühüm rol oynadığını bildirib.

Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi media siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, medianın müstəqilliyinin gücləndirilməsi, peşəkar jurnalistikanın inkişafı və informasiya təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Vurğulanıb ki, milli mətbuatın zəngin ənənələrinin qorunması və gələcək nəsillərə ötürülməsi qarşıda duran əsas vəzifələrdəndir.

Milli Məclisin deputatı, ”İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə qeyd edib ki, Azərbaycan milli mətbuatı ölkənin ictimai fikir tarixində mühüm dönüş nöqtəsi olmaqla yanaşı, milli özünüdərkin və maarifçilik ideyalarının formalaşmasında mühüm rol oynayıb.

O vurğulayıb ki, Azərbaycan mətbuatı ötən dövr ərzində cəmiyyətin inkişafına, milli dəyərlərin qorunmasına və ictimai şüurun formalaşmasına mühüm töhfələr verib.

Mətbuat Şurası sədrinin müavini Səadət Məmmədova çıxışında müasir media mühitində etik jurnalistika prinsiplərinin, peşəkar həmrəyliyin və media subyektləri arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Qeyd olunub ki, etibarlı informasiya mühitinin formalaşdırılması və cəmiyyətin düzgün məlumatlandırılması istiqamətində media nümayəndələrinin üzərinə mühüm vəzifələr düşür.

”Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin sədr müavini Rafiq Həşimov çıxışında Azərbaycan milli mətbuatının ayrılmaz tərkib hissəsi olan televiziya və radionun cəmiyyətin maarifləndirilməsində, milli-mənəvi dəyərlərin təbliğində və mədəni irsin gələcək nəsillərə çatdırılmasında mühüm rol oynadığını qeyd edib.

O bildirib ki, sürətlə dəyişən informasiya mühitində medianın üzərinə düşən məsuliyyət daha da artır, peşəkarlıq, operativlik və ictimai etimad isə bu sahənin əsas prinsipləri olaraq qalır.

Daha sonra Azərbaycan milli mətbuatının keçdiyi inkişaf yolunu əks etdirən videoçarx nümayiş olunub.

## “Ermənistan TRİP layihəsi üzrə çərçivə sazişini təsdiq edir”




**”Ermənistan hökuməti TRİPP layihəsi ilə bağlı təsdiq prosesinə başlayıb. ABŞ və Ermənistan arasında imzalanmış TRİPP layihəsini ilə bağlı strateji çərçivə sazişini hökumət təsdiq etdi. Müqavilə Konustitusiya məhkəməsinin müsbət rəy verdikdən sonra parlamentin təsdiqinə göndəriləcək”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. Politoloqun sözlərinə görə, təbii ki, bu layihəni hökumət təsdiq edibsə, Konustitusiya məhkəməsi və parlamentdə təsdiq olunacaq:

”Bununla da TRİP layihəsi -Zəngəzur dəhlizinin açılması rəsmi Yerevan tərəfindən təsdiq olunmuş oldu.Rusiya və İran bu marşuruta qarşıdır. Rusiyanın bu istiqamətdə sərhəd qüvvələri var. Həmçinin İranla sərhəddə olması marşruta qarşı təxribatların olması istisna deyil.Rusiya və İranın Cənubi Qafqazda ABŞ iqtisadi maraqlarının rəsmiləşməsinə dözümlü yanaşmayacaq. Rusiya Azərbaycana və Ermənistana bu layihəyə görə müxtəlif istiqamətlərdə təzyiqlər edə bilər. İrana gəldikdə isə, ABŞ hücumları fonunda İranın bir dövlət kimi hərbi-iqtisadi cəhətdən çökməsi yaxın perspektivdə gözlənilir. Rusiyaya gəldikdə isə, Ukrayna kifayət qədər Rusiyaya zərbələr vurmaqla bu böhranda ilişib qalıb. Rusiya və İranın TRİP marşrutuna strateji təhdid olması gözlənilmir”.

**Vasif**

# 36 ilin "ƏDALƏT"İ

**Ön söz əvəzi:**

Bu il 36-ün əlini sıxırıq. Və xatırladım ki, mən bu yazını yazanda da, indi də düşündüm ki, 25-də də, 30-da da oxucu qarşısına gəlib çatdığımız kimi, 36-ya da o cür gəlib çatmışıq.

Hə, bu da 36 il!.. Düz 36 il bundan öncə Azərbaycan adlı məmləkətdə ”Ədalət” adlı qəzet dünyaya gəldi... Düz 36 il bundan öncə həmin o Azərbaycan adlı məmləkətin ”Ədalət” adlı qəzeti müstəqil mətbuatın ilk carçılarından, ilk qaranquşlarından biri kimi tarixə düşdü. Yəni bu məmləkətdə azad sözün, azad jurnalistikanın nəfəsini, hərarətini oxucu üzünə açdı ”Ədalət”. Hər kəs qəzeti ilk dəfə olaraq birinci səhifədən oxumağa başladı. Bu, ”Ədalət”in uğuru idi, bu, ”Ədalət”in yolu idi. Və 34 ildir ki, bu yol belə də davam edir...

Bəlkə də 36 rəqəmi bir riyazi yanaşma baxımından o qədər də böyük önəm kəsb etmir. Amma 25-i yaş kimi görəndə, təqdim edəndə istər-istəməz gözünün qarşısında boylu-buxunlu, yumruqları düyülmüş, sözü ötkəm, səsi qətiyyətli bir lay divar oğlan canlanır. Deməli, ona güvənmək də olar, ona iş də tapşırmaq mümkündü və hətta ondan qəhrəmanlıq da ummaq. Bax, bu mənada 36 yaşlı ”Ədalət” dolanbac yolları, ağrılı-acılı günləri, Qarabağsız ayları, şəhid qanlarını, ölkədəki xaosu, qardaş qarşıdurmasını və nəhayət, uğurlu bir inkişafı öz canına-qanına hopdura-hopdura, köynəyindən keçirə-keçirə gəlib çatdı Qarabağlı günlərə - yəni 36 yaşa!..

Bəli, indi oturub bu 36 illik yolu kimlərlə, necə gəldi düşünürəm... Hansı çətinliklərdən keçdiyimizi, hansı uğurları qazandığımızı muncuq kimi sapa düzürəm. Bu məqamda ürəyimin dağ boyda olduğu anları da qürur hissi ilə yaşayıram. Üzüldüyümüz məqamları da kədərlə xatırlayıram.

Çünki bu bizim həyatımızdı, bu bizim ömür yolumuzdu və bu yolda biz ilk addımları ”Azərbaycan” nəşriyyatının 2-ci mərtəbəsində dizimizin üstündə dəhlizdə atmışıq. Ürəyimiz əsə-əsə, həyəcandan əlimiz titrəyə-titrəyə dünyaya bir ”Ədalət” gətirmişik.

Özü də bu ”Ədalət” indiki texnikanın olmadığı, sovet dönəminin primitiv çap maşınları ilə yığılıb işıq üzü görübdü. Onun dünyaya gəlməsində dəyərli Adil Minbaşının, qəzetin ilk redaktoru Aqil Abbasın və onların ətrafında toplaşan Babək Yusifoğlunun, Faiq Qismətoğlunun, Rəşid Faxralının, Lətif Süleymanlının, Məhəmmədəli Mustafanın, Əyyub Kərimovun əməyi danılmazdır.

Üstəlik, dünyaya ilk sözünü çatdıran ”Ədalət”in bir pöhrə kimi böyüməsində, bir ağac kimi qol-budaq atmasında həmin illərin ziyalılarının, aydınlarının dəstəyi, təqdim etdikləri sanballı materialları doğru sözün həsrətini çəkən oxucular üçün sanki göydəndüşmə olmuşdu. Ha-




mı səbirsizliklə məmləkətimizdə öz izini açan, öz işığını yandırıb hər kəsi ətrafına yığan ”Ədalət”in növbəti saylarını gözləyirdi. Hər yeni nömrə oxucuya yeni imzalar da təqdim edirdi. Artıq”Ədalət”in oxucuları mərhum Mirmayıl Cəbrayılovu, Baba Pünhanı, Adil Mirseyidi, Yusif İsmayılı, Hidayət Elvüsalı, Yusif Misiroğlunu, Əliyusif Məmmədovu, Pərviz Əliyevi, Ərşad Mirzəni, Oqtay Salamovu, Qeyrət Quliyevi, Çingiz Ələkbərzadəni, Vahid Əlifoğlunu, Tofiq Abdini, Söhbət Səfərlini, Vəsilə Usubovanı, Oqtay Abbasovu, Nəriman Səttaroğlunu, Vaqif Əliyevi, Məhəmmədəli Mustafanı, Lətif Süleymanlını, Nicat Rüstəmovu sözündən tanıyırdılar.

Eləcə də ”Ədalət”i oxuyanlar Məzahir Əhmədoğlunu, Kamran Nəzirlini, Adil Şirini, Vaqif Bəhmənlini, Rəşad Məcidi, Asif Mərzilini, Asif Talıboğlunu, Daşdəmir Əjdəroğlunu, Nazim Ağamirovu, Lətif Novruzovu, Faiq Sadıqovu, Zaur Vəliyevi, Mehman Cavadoğlunu, Vahid Qazini, Şakir Qurbanovu, Şakir Həşimovu, Ceyhun Musaoğlunu, Nicat Bəşirzadəni, Nicat Rüstəmovu, Elçin Namazı, Rəhman Hacıyevi, Qələndər Xaçınçaylını, Surxay Əlibəylini, Yusif Rzayevi, İsrafil Quliyevi, Səxavət Məmmədovu, Nərgiz Cabbarlını, Murad Nəbibəyovu, Asəf Quliyevi, Füzuli Rüzgarı, Kərim Kərimlini, Kənan Hacını, Hidayət Elvüsalı, Bəsti Əlibəylini, Ağakişi Bahaduru, Samir Sədaqətoğlunu, İqbal Aydınoğlunu, , Nizami Allahyarovu, Şamxal Şəbiyevi, Rüstəm Hacıyevi, Gülər İsmayılovanı, Mehriban Cəfərovanı, Tahirə Cəlilovanı, Elnarə Quliyevanı, Fəridə Rəhimlini, Tünzalə Xəlilovanı, Qəşəm Nəcəfzadəni, Əsəd Cahangiri, Vaqif Yusiflini, Əlövsət Bəşirlini, Sevinc Seyidovanı, Qərənfil Dünyaminqızını, Xatirə Hafizqızını, Möhtərəm Rəcəbovanı, Ülviyyə Rzayevanı, Kamil Rzakovu, Qəşəm Həşimovu, Rüstəm Hacıyevi, Elşən Quliyevi, Gültəkin Qəhrəmanlını,Vüqar Tofiqlini, Elnur Astanbəylini, Rüfət Soltanı, Nicat Qafuroğlunu, Sahib Əsədbəylini hər gün qarşılayır və onların bir-birindən maraqlı yazılarının yaratdığı ovqatın aurasında sabaha böyük ümidlər bəsləyirdilər. Şükürlər olsun ki, həmin ümidləraz-çox fərqlərlə öz təsdiqini tapdı.

Bəli, ”Ədalət”in şinelindən çıxıb indi Azərbaycan mətbuatında böyük nüfuz qazanan, imzasını hərkəsə birmənalı şəkildə sevdirən yazarlar, redaktorlar bu gün öz yolları ilə getsələr də, amma onların müstəqil məmləkətdə ilk sözlərini oxucuya çatdıran ”Ədalət” oldu. Sevindirici haldır ki, dünyasını dəyişmiş həmkarlarımız,əməkdaşlarımız öz sağlıqlarında ”Ədalət”in səhifəsində olan möhürlərini, yəni imzalarını son anlarına qədər sədaqətlə, şərəflə qorudular və bu dünyadan köç edəndə onların yarımçıq qalan fikirləri, deyilməmiş sözləri tirajlanan ”Ədalət”də susmadı, dayanmadı.

Əksinə, onların ruhu da, sözü də bizimlə qaldı, həm də bizim oxucularla.

Bəli, mən 36 il yol gələn ”Ədalət”in bu günündən üzü geri boylananda bir məqamı da gördüm və onu xüsusi vurğulamaq istəyirəm.

Belə ki, ”Ədalət”in təqdimatı ilə ”Ədalət”in şinelindən çıxıb müxtəlif vəzifələrə, xüsusilə hüquq-mühafizə orqanlarına işə gedən kifayət qədər müəlliflərimiz olub.

Onlar bu gün də vəzifə sahibidilər və bu gün də ”Ədalət” onlar üçün doğmadı. Onların arasında Elşad Əliyev, Rafiq Abbasov, Elşad Həsənov, Amil Dosiyev, Aydın Ağazadə, Faiq Sadıqov, Rövşən Əhədoğlu və başqaları da var. Deməli, bütün bunlar göstərir ki,”Ədalət” bir xalq qəzeti olaraq ilk gündən atdığı doğru, dürüst və ədalətli addımını bu gün də yaşadır, bu gün də davam etdirir. Təbii ki, indi onun ilk baş redaktoru millət vəkili olmaqla yanaşı, həm də qəzetin təsisçisidi və ilk baş redaktoru Azərbaycanın ”Əməkdar jurnalist”i, dəyərli yazıçı-publisist İradə Tuncay əvəz edibdi. Həmin zamandan İradə xanımın rəhbərliyi altında ”Ədalət”in köhnə, yəni ilk komandasından olan Faiq Qismətoğlu, Məzahir Əhmədoğlu, Yaşar Nəbiyev, eləcə də yeni ”Ədalət”çilər Sübhan Mahmudlu,Əntiqə Kərimzadə ( bu gün başqa ünvanlarda şalışan Ədil Ədilzadə, Oğuz Ayvaz, Əntiqə Rəşid, Şəfiqə Şəfa, Emin Piri, Ulucay Akif, Ayxan Ayvaz, Orxan Saffari, Eminquey - Ə.M) hər gün sizin oxucu süfrənizə özlərinin dövlətə, dövlətçiliyə,xalqa xidmət edən fikirlərini təqdim edirlər. Mən bu bir növü xatırlatma xarakterli yazını bilgisayara diktə edəndə yaddaşımı demək olar ki, xeyli sağa-sola vərəqlədim. Kimlərsə diqqətdən kənarda qaldısa bu sadəcə texniki, yəni yaş məsələsidir... Yəqin ki, anlayışla qarşılanacaq!

Bəli, 36 illik yolumuzla bağlı çalışdım ki, heç kim yaddan çıxıb kənarda qalmasın. Çünki bizim unutmağa haqqımız yoxdu. Ən azından ”Ədalət”çi olduğumuz üçün!..

**Və bu yazıya son olaraq demək istəyirəm ki, biz 36 ili bir ailə kimi necə yaşadıq, onu sizdən gizlətmədik. Nə qazandıq sizin gözünüzün önündə oldu və bir də adımızın saflığını, sözümüzün kəsərini sizə güvənib yaşatdıq. Bunun üçün ”Ədalət”çilər olaraq Sizə, yəni bizə dayaq olan oxucularımıza təşəkkür edirik. Sağ olun ki, bizi yaşatdınız! Sağ olun ki, bizi yaşadırsınız! Biz də çalışacağıq ki, bu 36 ildə sizinlə olduğumuz kimi, bundan sonra da sizinlə olaq! Doğrudur, bu gün qəzetçilik bir sınaq yaşayır!!! Yazılan söz daha çox sosial mediada izlənir! Amma QƏZET tarixin arxivinə doğru istiqamətləndirilsə də Tarix çap formasında DAHA GÖZƏL Görünür!!! Nə isə... Bizim və Sizin 36 yaşımız mübarək!!!**

**Hörmətlə:**
**”Köhnə Ədalətçilər”dən**
**Əbülfət MƏDƏTOĞLU**

## Azərbaycan əhalisinin sayı açıqlandı

**Azərbaycanda əhalinin sayında artım qeydə alınıb.**

Adalet.az xəbər verir ki, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2026-cı il iyunun 1-i vəziyyətinə ölkə əhalisinin sayı ilin əvvəli ilə müqayisədə 9 287 nəfər və ya 0,1 faiz artaraq 10 milyon 271 min 638 nəfərə çatıb. Məlumata görə, əhalinin 54,3 faizi şəhərlərdə, 45,7 faizi isə kənd yerlərində yaşayır.



**Ölkə əhalisinin cins bölgüsünə əsasən, sakinlərin 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Dostları çevirdim astar üzünə...

**... Mən sizi çox istəyirəm, çünki siz də məni çox istəyirsiniz... Deyirlər ki, insan sevincli və kədərli günlərdə tanınır! Bu fikrə heç kimin şübhəsi ola bilməz... Mənim də sevincli və kədərli günlərim az olmayıb. Və həmin günlərdə mənə yaxın olan insanların hamısın yaxşı tanımışam! Tanımışam ki, gözlərimin yağını yedirtdiyim, canımı verdiyim, hətta sonuncu tikəmi ona bağışladığım bəzi adamlar çürük çıxıb!**

**Allaha and olsun ki, beləlırindən qətiyyən inciməmişəm! Demişəm ki, insandı, yəqin başı qatışıq olub! Amma mən həmişə onların yanında olmuşam ha! Yetmiş illik yubileyimlə əlaqədar Mətbuat Şurasında çox möhtəşəm tədbir keçirildi. Və bir daha əmin oldum ki, əsl dostlarım məni çox istəyirmiş... Bu əsl dostlardan biri də uzun illər isti münasibətimiz olan, 1992-ci ilin mayın 13-də bir yerdə Laçına getdiyimiz, şair-publisist, Mətbuat Şurasının sədri Rəşad Məciddir!**

**Elə tədbirə gələnlər də yaxın dostlar idi. Hamısı ürək sözlərini səsləndirdilər və məni qaldırıb göyün yeddinci qatına qoydular! Bir daha bu səmimi münasibətə görə, Mətbuat Şurasının sədri Rəşad Məcidə, toplantıda iştirak edən şair Vaqif Bəhmənliyə, "7 gün" qəzetinin baş redaktoru Emin Eminbəyliyə, Türkiyə Universitetlərinin professoru Qafar Çaxmaqlıya, tələbə yoldaşım, jurnalist, siyasi icmalçı Elşad Həsənova, sabiq prokuror Kamran Əhmədova, məşhur jurnalist Əminə Yusifqızına, Seyid Əbdürrəhimə, Mətbuat Şurasının əməkdaşı, istedadlı yazar İlqar Tağıyevə, köhnə "Ədalət"çilər Asif Talıboğluna, Nizami Allahyarova, Zaur Vəliyevə, İqbal Aydınoğluna minnətdarlığımı bildirirəm.**

**Eləcə də mənim təbrik edən millət vəkillərinə, ayrı-ayrı sənət adamlarına, sadə insanlara təşəkkür edirəm. Və bir təşəkkür də Aşıqlar Birliyinin sədri, professor Məhərrəm Qasımlıya və Birliyin katibi Musa Nəbioğluna, Birliyin sədr müavini Altay Məmmədliyə, aşıq Şəhriyara düşür.**

**Çünki onlar məni sevgiylə qarşıladı və mükafatlandırdı. Həm də minnətdarlığımı mənim barədə əziyyət çəkib gözəl yazılar qələmə alan BDU-nun professoru, mənim sevimli müəllimim Cahangir Məmmədliyə, Seyran Səxavətə, Emin Eminbəyliyə, Daşdəmir Əjdəroğluna, Əntiqə Rəşidə, Asif Talıboğluna, Əlirza Xələfliyə bildirmək istəyirəm! Hətta məni təbrik etməyib, çürük çıxan "dost" lara da təşəkkür edirəm. Çünki onları da bir daha yenidən tanıdım.**

**Və burda böyük Ramiz Rövşənin iki misrası yada düşür:**

***... Dostları çevirdim astar üzünə,***
***Nə yaxşı ki düşmən çıxan olmadı...***

## Yayda zəhərlənmələr niyə tez-tez olur?



**Yay ilin ən gözəl fəsillərindəndir. Və biz bu ayı çox böyük səbrsizliklə gözləyirik. Çünki isti aylarda İstirahətə gedir, dincəlirik! Əlbəttə , insan heç olmasa, ildə bir dəfə məzuniyyət götürməli və istirahət etməlidir.**

Amma yayda bir məsələ də var ki, qida məhsullarından zəhərlənmə hadisələri çox olur. Xüsusilə də qarpızdan. İnsan məsuliyyətli olanda bunun da qarşısını almaq mümkündür! Bir də var yeməkdən, boyat xörəklərdən zəhərlənmək.

Bax , bu istər-istəməz hər bir insanı narahat edir. Bəs , yayda müxtəlif qidalardan zəhərlənməmək üçün nə etmək lazımdır? İlk növbədə sanitar-gigiyenik normalara diqqət yetirilməlidir.

Başqa sözlə demiş olsaq boyat xörəklərdən uzaq olmalıyıq.

Bununla yanaşı, bişirilmiş xörəklər bir gündən artıq saxlanılmamalı, onlar soyuducuda alüminium qazanda deyil, mis qazanda saxlanılmalıdı. Son vaxtlar ölkəmizdə müxtlif qidalardan zəhərlənmə faktları bir qədər artıb. Rayonlarda birində yas məclisində verilən yeməkdən 10- dan çox adam zəhərlənib.

**Təbii ki, onlar xəstəxanaya yerləşdiriliblər. Vəziyyətləri qənaətbəxşdir! Rayon Prokurorluğu bu hadisə ilə bağlı araşdırma aparır. Görünən odur ki, yay vaxtı hamı diqqətli olmalı, vaxtı keçmiş yeməkdən və qidalardan uzaq durmalıdır!**

**Emil FAİQOĞLU**

## Ətin qiyməti kəllə-çarxa qalxacaq...



**Son illər ölkəmizdə mal və qoyun ətinin qiyməti sürətlə artmaqdadır. Bu isə insanları daha çox düşündürür və narahat edir. Başqa cür də ola bilməz! Ən azından ona görə ki, bizim millət digər xalqlara nisbətən ətə meyillidir.**

Hec şübhəsiz ki, bu da ətin qiymətinə az da olsa , təsir edir. Ölkəmizdə artıq ət qıtlığı hiss edilir. Ona görə də xarici dövlətlərdən - Ukraynadan, Gürcüstandan, Monqolustandan, Braziliyadan ölkəmizə ət idxal olunur. Amma bu da qiymətlərin qalxmasının qarşısının alınmasına kömək etmir.Artıq yerli mal ətinin bir kiloqramı 18, quzu əti isə 21 manata satılır. Hələ heç t deyə bilməz ki, qiymətlər belə sabit olacaq və qalxmayacaq! İndi də daşınma ilə bağlı məsələlərin gündəmə gəlməsi qiymətlərin bir qədər də, artacağına ehtimal yaradır.

Bu isə birmənalı olaraq əhali tərəfindən birmənalı qarşılanmır. Elə bil ki, kimlərsə, süni surətdə qiymətləri qaldırmaqda maraqlıdır.

Əlbəttə, kiminsə belə bir marağı ola bilər, amma əlaqədar qurumlar imkan verməməlidir ki, ətin daşınması qiymət artımına şərait yaratsın! Hər halda , xalq arasında narazılıq yarada biləcək qiymət artımına yol vermək olmaz! Və bir də ölkəmizdə 2026- 30- cü illər kənd təsərrüfatının inkişafi ilə bağlı Dövlət Proqramı qəbul edilib.

Heç şübhəsiz ki, bu proqramın həyata keçirilməsi qiymət artımının qarşısını alacaq!!!

## Bax, bu gün dənizə getmək olar...



**Bu gün- yəni iyulun 14- də dənizə getmək olar. Ən azından ona görə ki. havanın temperaturu müsbət 36-ı dərəcədən yüksəkdir. Üstəlik də, külək əsmir. Bəlkə əsəcək, amma saat 11- dur və hava da çox isti , sakitdir. Hər şey gözəldir! Sadəcə dənizə gedəndə bəzi məsələləri unutmaq olmaz. Başqa sözlə demiş olsaq, Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının tövsiyələrinə qulaq asmaq lazımdır. Yəni nəzarət olunun çimərliyə getmək və orda çimmək lazımdır. Spirtli içki qəbul edib, dənizə girmək olmaz. Üstəlik də üzməyi bacarmayan insanlar ən azından dərinliyə getməməli, dayaz yerdə çimməlidirlər!**

Bir çoxları üzməyi bacarsalar da qadağanedici yeri keçib , həyatları üçün təhlükə yaradır və dənizlə zarafat edirlər! Dənizsə, zarafatı sevmir. Elə bu zarafatın nəticəsidir ki, bu mövsüm dənizdə və sularda 50- dən çox adam suda boğularaq ölüb.

Məgər bu faciə bir söz demir??? Deyir , sadəcə olaraq bu çox insanlar bu faciədən nəticə çıxarmaq istəmir. Və nəticə çıxarmaya n da sonu da belə faciə ilə qurtarır! Ona görə də dəniz gedəndə ehtiyatı əldən vermək olmaz .Dənizə ölməyə yox , çimməyə gedərlər!!!

## Sükan arxasında yatmayın...



**Havalar istiləşəndə avtomobilləri idarə etməkdə çətinləşir. Heç kimə sirr deyil ki, elə sürücülər var ki, belə isti yay günlərində 18 saat sükan arxasında əyləşərək sərnişin daşıyır. Heç olmasa, yarım saat, bir saat avtomobili saxlayıb, dincəlmir, əksinə hərəkəti davam etdirir. Amma mövcud qanunda deyir ki, uzaq məsafəyə gedərkən ən azından sürücülər iki saatdan bir nəqliyyat vasitəsini saxlamalı və dincəlməlidir! Bu zaman maşında dayanır və texniki problem yaranmır , Amma çox təəssüf ki, bu gün əksər sərnişin daşıyan . avtobus və mikroavtobus sürücüləri istirahət etmədən mənzil başına gedirlər.**

Yol polisinin stasionar postlarında da sürücülərl maarifləndirici söhbətlər aparılmır.Hər iki tərəfin səhlənkarlığı ucbatından bir çox halda qəzalar qaçılmaz olur.Məsələn , bu yaxınlarda Hacıqabul rayon ərazisində avtobus sürücüsünün səhlənkarlığından nəqliyyat vasitəsi aşıb və 35 sərnişin müxtəlif dərəcəli bədən xəsarət alıb. Onlar Şirvan və Hacıqabuldakı xəstəxanaya yerləşdiriliblər.

Sürücü deyir ki, gözümə gün düşdü, avtobusu aşırdım. Gözünə gün düşürsə , eynək tax! Çox güman ki, sürücü sükan arxasında yatıb və idarəetməni itirib, nəticədə ağır qəza baş verib. Aydındır ki, əsas həqiqət avtotexniki ekspertizanın rəyindən sonra məlum olacaq.Bax , bu hadisədən digər avtobus sürücüləri də nəticə çıxarmalı, yorğun və yuxulu halda sükan arxasında əyləşməməlidirlər!!!

## Yayda çay içərlər, yoxsa su?





**Bir çoxlarımız isti yay günlərində həddindən artıq ya çay, ya da su içirik. Görəsən, bunun hansı insan üçün xeyirlidir. Həkim-kardioloq Natiq Şükürov deyir ki, bizim millətin mentalitetində ən çox çay içməyə üstünlük verilir. Bu da normaldır.**

Amma normal olmayan odur ki, ürək və böyrək xəstələri həddindən çox çay və su istehlak etməməlidir! Ən azından çoxlu çay içmək təzyiqi qaldırır və onları narahat edir! Bununla yanaşı, bir həkim- kardioloq olaraq onu deyə bilərik ki, hər bir insan gün ərzində 3 litr su içməlidir! İsti yay günlərində insanlar çox tərlədiyinə görə , çox da su içməlidir. Əlbəttə, çay içməkdən su içmək daha yaxşıdır.

Özü də qaynanmış deyil, çiy halda ! Çünki çiy su müxtəlif minerallarla zəngindir və o insan üçün daha çox xeyirlidir.Heç kimə sirr deyil ki, yayda insanlar su ilə yanaşı, qarpız , yemiş də istehlak edir.

Bu , məhsullar da insan üçün sərfəlidir! Bir sözlə, isti yay günlərində çaydansa, su içmək tibb nöqteyi-nəzərdən məqsədəuyğun sayılır. Və çay da içində üç stəkan, üç fincandan artıq olmamalıdır!!!

## Çiçəkləri əzməyin!



**Bakıda bir - birindən gözəl parklar , xiyabanlar var! Bunlar paytaxtımıza xüsusi bir gözəllik verir. Dövlətimiz çox sağolsun ki, küllü miqdarda pul xərcləyib belə gözəl parklar saldırıb . Belə gözəl parklardan biri də " Fatimeyi - Zəhra" məscidinin yanındakı parkdadir. Demək olar ki, bu parkda hər növ ağaclar, güllər, çiçəklər, yaşıllıq zolağı salınıb.**

Adam parka baxanda bir də baxmaq istəyir. Və isti yay günlərində yüzlərlə insan burada istirahət edir. Havalar istiləşəndən bura gələnlərin sayı daha da artıb.Və hər gün də parkın bağbanı Fikrət qardaşımız yaşıllıqları sulayır, onlara xidmət edir. Üstəlik də axşamdan atılan məişət tullantılarını təmizləyir. Hər dəfə də zibili yerə atanları qınayır. Deyir ki, zibil qutusu ola- ola bəzi mədəniyyətsiz adamlar əllərinə gələni parkın ortasına , otların üzərinə atır. O, parka atılmış nə qədər çörək qırıntısını yığıb səliqə ilə bir kənara qoyur! Və orda səliqə-sahman yaradır.Nə gözəl! Amma parka istirahətə gələnlər uşaqlarına nəzarət etmir, onlarsa gülləri, çiçəkləri, yaşı otları əzirlər.

Dəfələrlə bu sətirin müəllifi və Məhəmməd qardaşımız çiçəkləri əzən uşaqlara və onların valideynlərinə öz narazılığını bildirib. Ancaq daşdan səs çıxıb , onlardan səs çıxmayıb.Deyək ki, onlar uşaqdı, qanmır. Bəs onların valideynləri buna niyə göz yumurlar??? Hətta bir çox orta yaşlı insanlar otların, çiçəklərin üzərinə xalça salıb orda uzanır , cay içir, yemək yeyirlər. Həmin otlar , çiçəklər isə bir neçə gündən sonra əzilir və quruyub məhv olurlar! Böyüklərin bu hərəkəti isə lap təəccüblüdür! Əlaqədar qurumlar isə parka nəzarət etmir .

**Əgər o gülləri , çiçəkləri ayaqlayanların bir neçəsi inzibati məsuliyyətə cəlb edilib, cəzalansa, ikinci dəfə kiməsə belə hərəkət edib , təbiətə ziyan vurmaz. Yoxsa hər gün Məhəmməd qardaşımla mən "gülləri, çiçəkləri əzməyin"- deməkdən dilimiz qabar olub! Biz yaşıllıqları göz bəbəyi kimi qorumalıyıq! Ki, dövlət milyonlarla pul xərcləyib park salıb, hər bir sakinsə onu qorumağa borcludur. Yəni ictimai qınaq olmalıdır! Bəlkə bundan sonra bəzi mədəniyyətsiz insanlar gülləri, çiçəkləri əzməz!!!**

**Emil FAİQOĞLU**



# Güclü media etibarlı informasiya təminatını həyata keçirən vacib institutdur



*Könül NURULLAYEVA,*
*Milli Məclisin deputatı*

**Azərbaycan mətbuatı 151 yaşını qeyd edir. 1875-ci il iyulun 22-də Həsən bəy Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə əsası qoyulan milli mətbuat ənənəsi yeni bir dövrün başlanğıcı oldu. "Əkinçi" Azərbaycan cəmiyyətində maarifçilik ideyalarının yayılmasına, milli kimliyin formalaşmasına və ictimai fikrin inkişafına güclü təsir göstərdi. Müstəqillik dövründə isə Azərbaycan mediası keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoydu. Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi media siyasəti, xüsusilə 1998-ci ildə senzuranın ləğv edilməsi ölkədə söz və mətbuat azadlığının inkişafına mühüm təkan verdi. Bunun nəticəsində Azərbaycan jurnalistikası daha müasir prinsiplər əsasında formalaşdı, cəmiyyətin məlumatlandırılmasında və ictimai nəzarətin təmin olunmasında rolunu daha da gücləndirdi. Sonrakı illərdə qanunvericilik bazasının təkmilləşdirilməsi, informasiya texnologiyalarının inkişafı və media institutlarının güclənməsi milli mətbuatın rəqabət qabiliyyətini artırdı.**

Bu gün Azərbaycan mediası dövlətin beynəlxalq informasiya siyasətinin mühüm iştirakçılarından biridir. Müasir dövrdə informasiya təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsinə çevrilib.

Əgər əvvəllər müharibələr əsasən silahlarla aparılırdısa, indi informasiya məkanı da əsas döyüş meydanlarından biri hesab olunur. Dezinformasiya, saxta xəbərlər, manipulyasiya texnologiyaları və sosial şəbəkələr vasitəsilə aparılan psixoloji təsir kampaniyaları dövlətlər üçün ciddi çağırış yaradır. Bu reallıq 2020-ci ildə 44 günlük Vətən müharibəsində özünü xüsusilə qabarıq göstərdi. Azərbaycan döyüş meydanında tarixi Zəfər qazandığı kimi, informasiya cəbhəsində də üstünlüyünü qorudu. Azərbaycan mediası beynəlxalq ictimaiyyəti operativ cə dəqiq informasiya ilə təmin etdi, düşmən tərəfindən yayılan çoxsaylı dezinformasiyaların ifşasında fəal rol oynadı.

Dünyanın aparıcı media qurumları hadisələrlə bağlı operativ və dəqiq məlumatları əsasən Azərbaycan mənbələrindən əldə edirdi. Dövlət qurumlarının, xüsusilə Prezident İlham Əliyevin xarici mediaya verdiyi çoxsaylı müsahibələr informasiya müharibəsində Azərbaycanın mövqeyini beynəlxalq ictimaiyyətə çatdırmaq baxımından mühüm rol oynadı.

İnformasiya müharibəsi hərbi əməliyyatların başa çatması ilə bitməyib. Əksinə, postmünaqişə dövründə bu mübarizə daha mürəkkəb xarakter alıb. Bu gün Azərbaycan haqqında qərəzli məlumatların yayılması, tarixi faktların təhrif edilməsi və ölkəmizə qarşı müxtəlif informasiya kampaniyalarının aparılması göstərir ki, media daim ayıq-sayıq olmalı, peşəkarlıq və məsuliyyət prinsiplərinə sadiq qalmalıdır. Süni intellekt, informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi dövrdə medianın qarşısında yeni və daha mürəkkəb vəzifələr dayanır. Süni intellekt vasitəsilə hazırlanmış saxta görüntülər, kiberhücumlar və informasiya manipulyasiyası jurnalistikanın fəaliyyətinə yeni risklər gətirib. Bu şəraitdə operativlik qədər dəqiqlik, xəbərin ilk verilməsi qədər onun doğruluğunun yoxlanılması da əsas peşə meyarına çevrilir. Media savadlılığının artırılması, faktların yoxlanılması mexanizmlərinin gücləndirilməsi və rəqəmsal təhlükəsizliyin təmin edilməsi bütövlükdə cəmiyyətin qarşısında duran mühüm vəzifələrdəndir.

Bu reallıqlar fonunda artıq 4-cü ildir keçirilən Şuşa Qlobal Forumu bir da vacib əhəmiyyət kəsb edir.

Bu gün müasir media təkcə informasiya daşıyıcısı deyil, həm də ictimai etimadın, dövlət təhlükəsizliyinin və beynəlxalq kommunikasiyanın mühüm elementidir.

Bu gün Azərbaycan mediasının qarşısında duran əsas vəzifələrdən biri peşəkarlıq, obyektivlik və dövlətçilik prinsiplərini qorumaqdır. Saxta xəbərlərin qlobal miqyas aldığı, informasiya manipulyasiyalarının geniş yayıldığı şəraitdə cəmiyyətin etibarlı informasiya ilə təmin olunması xüsusi əhəmiyyət kəsb edir.

Milli media həm vətəndaşların düzgün məlumat almaq hüququnu təmin etməli, həm də ölkənin milli maraqlarını beynəlxalq informasiya məkanında layiqincə müdafiə etməlidir.

Təəssüf ki, bəzi hallarda xarici təsir mərkəzlərinin media üzərindən ictimai rəyə təsir göstərmək, dövlətə və cəmiyyətə qarşı manipulyasiya aparmaq cəhdləri müşahidə olunur. Məqsəd Azərbaycanın beynəlxalq imicinə xələl gətirmək, həyata keçirdiyi siyasətlə bağlı mənfi rəy formalaşdırmaq və regionda yaranmış yeni reallıqlara kölgə də salmaqdır.

İnformasiya texnologiyalarının sürətli inkişafı, sosial media platformalarının geniş auditoriyaya çıxışı və süni intellekt imkanlarının artması bu cür manipulyasiya cəhdlərini daha mürəkkəb və təsirli edir.

Lakin Azərbaycan milli mətbuatı tarix boyu olduğu kimi, bu gün də dövlətçilik maraqlarını əsas prioritet hesab edir və milli maraqları hər cür şəxsi və ya qrup maraqlarından üstün tutur.

Azərbaycan jurnalistikasının çoxəsrlik ənənəsi göstərir ki, milli mətbuat ən çətin sınaqlardan belə peşəkarlıq və məsuliyyətlə çıxmağı bacarıb.

**Prezident İlham Əliyevin vurğuladığı kimi, "Biz vahid siyasət aparırıq. Dövlət və media milli maraqları müdafiə edir. Ümummilli məsələlərdə heç bir kənar fikir ola bilməz." Bu yanaşma müasir dövrdə Azərbaycan mediasının fəaliyyət fəlsəfəsini də ifadə edir. Çünki güclü dövlətin güclü mediası yalnız informasiyanı çatdıran deyil, həm də həqiqəti qoruyan, milli maraqları müdafiə edən və cəmiyyətin etibarlı informasiya təminatını həyata keçirən mühüm institutdur.**

# Ekspert: «Bir çox gənc kollec təhsilini universitetə keçid üçün vasitə kimi görür»

**"Son illərin qəbul statistikası göstərir ki, Azərbaycanın orta ixtisas (kollec) təhsili ciddi böhran yaşayır. Ötən ilin nəticələrinə əsasən, kolleclər üzrə ayrılmış 8 144 plan yerindən 677-si boş qalıb. Bu isə ümumi plan yerlərinin 8,31 faizinin dolmadığını göstərir. Bəzi kolleclərdə vəziyyət daha da ağırdır. Məsələn, Ağdam Musiqi Kollecində plan yerlərinin 68,63 faizi, Sumqayıt Musiqi Kollecində 44,35 faizi, Şuşa Humanitar Kollecində isə 35,92 faizi boş qalıb".**

Adalet.az xəbər verir ki, bunu təhsil üzrə ekspert Məzahir Məmmədli deyib.

Ekspertin sözlərinə görə, bu rəqəmlər təsadüfi deyil:

"Onlar orta ixtisas təhsilinə marağın azaldığını və bu pillənin cəmiyyət üçün cəlbediciliyini itirdiyini göstərir. Əsas problem ondadır ki, kolleclər əmək bazarının ehtiyaclarına uyğun rəqabətqabiliyyətli mütəxəssis hazırlamaqda çətinlik çəkirlər. Bir sıra pedaqoji istiqamətlər bağlanıb, bəzi ixtisaslar isə əmək bazarının real tələblərinə cavab vermir.



Nəticədə, kolleclərin əsas missiyası olan praktik və peşəkar kadr hazırlığı arxa plana keçir".

M.Məmmədli bildirib ki, digər diqqətçəkən məqam isə odur ki, bir çox gənc kollec təhsilini məqsəd deyil, universitetə keçid üçün vasitə kimi görür:

"Yeni kollec, bilik və peşə qazanmaq üçün deyil, gələcəkdə ali məktəbə qəbul imkanını artıran bir "tramplin" funksiyasını yerinə yetirir. Bu yanaşmanın nəticələri ali təhsil müəssisələrində də hiss olunur. Bəzi universitetlər subbakalavr qəbulu ilə bağlı narahatlıqlarını ifadə edərək bu kateqoriyadan qəbul olunan tələbələrin akademik hazırlıq səviyyəsinin kifayət etmədiyini bildirirlər. Bu isə kolleclərdə tədrisin keyfiyyəti və məzun hazırlığı ilə bağlı ciddi suallar yaradır. Artıq orta ixtisas təhsili ilə bağlı kosmetik dəyişikliklər deyil, sistemli islahatlara ehtiyac var. Kolleclərin ixtisasları əmək bazarının tələblərinə uyğun yenilənməli, işəgötürənlərlə əməkdaşlığı gücləndirilməli, praktik hazırlıq artırılmalı və bu təhsil pilləsinin nüfuzu yenidən formalaşdırılmalıdır.Əks halda, hər il plan yerlərinin boş qalması, kolleclərin yalnız universitetə keçid mərhələsinə çevrilməsi və əmək bazarının keyfiyyətli orta ixtisaslı kadrlardan məhrum olması davam edəcək. Bu isə təkcə kolleclərin deyil, bütövlükdə ölkənin təhsil və iqtisadi inkişafı üçün ciddi çağırışdır. Statistika artıq xəbərdarlıq edir. İndi qərarvermə mərhələsidir".

**Vasif ƏLİHÜSEYN**

*Fuad Hüseynzadə,*
*Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri*



# Milli mətbuatımızın zəngin irsi və uğurlu gələcəyi

**Bu gün Azərbaycan milli mətbuatının yaranmasından 151 il ötür. "Əkinçi" qəzetinin ilk nömrəsinin çap olunduğu gün - iyulun 22-si ölkəmizdə Milli Mətbuat Günü kimi qeyd edilir.**

**XIX əsrin sonlarında yalnız Azərbaycanda deyil, bütün Qafqazda böyük əks-səda doğuran "Əkinçi" qəzetinin nəşri milli maarifçilik hərəkatının təməl daşlarından biri oldu.**

**Bu qəzetin həm naşiri, həm redaktoru, həm də korrektoru Azərbaycan tarixində silinməz iz qoymuş təbiətşünas-alim Həsən bəy Zərdabi idi.**

**1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı nəşr olunan "Əkinçi" qəzetinin ömrü qısa olsa da, milli mətbuatımızın tarixində dərin və silinməz iz buraxdı.**

**Bu qəzet maarifçilik ideyalarını əsas missiya seçərək xalqı elmə, savada və düşüncəyə səsləyirdi. Hər səhifəsi bir çağırış, hər yazısı bir oyanış olan "Əkinçi" qısa müddətdə həm ziyalılar arasında, həm də sadə oxucuların qəlbində özünə yer qazandı. Təəssüf ki, bu fəaliyyət uzun sürmədi. Çar Rusiyası qəzetin insanları maarifləndirməsindən, ictimai-siyasi proseslərə nüfuz etməsindən ehtiyatlanaraq maneələr yaratdı və sonda onun nəşri dayandırıldı.**

**Buna baxmayaraq, o dövrün görkəmli maarifçiləri "Əkinçi" qəzetinin səhifələrində öz mütərəqqi və demokratik ideyalarını təbliğ edərək ictimai-siyasi və bədii fikrin inkişafına böyük təsir göstərə bildilər.**

**Bildiyimiz kimi, Azərbaycan milli mətbuatı uzun və şərəfli yol keçərək müxtəlif tarixi dövrlərin sınaqlarından çıxıb, zamanla güclənərək bugünkü inkişaf səviyyəsinə çatıb. Bu inkişafın müasir mərhələsi isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər mətbuatın cəmiyyətdəki rolunu hər zaman yüksək qiymətləndirir, onu, sadəcə, informasiya vasitəsi deyil, ictimai düşüncənin formalaşmasında mühüm bir platforma kimi dəyərləndirirdi.**

**Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra mətbuatın azad və müstəqil inkişafına geniş imkanlar yaradıldı. Bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin hüquqlarının qorunması və peşəkar medianın formalaşması istiqamətində sistemli tədbirlər görüldü.**

**Ulu Öndər Heydər Əliyevin mətbuata və jurnalistlərə göstərdiyi diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.**

**Ölkəmizdə söz və mətbuat azadlığı tam şəkildə təmin olunub, çoxsaylı qəzet və jurnallar nəşr edilir, televiziya kanalları fəaliyyət göstərir, onlayn media şəbəkəsi isə ildən-ilə daha da genişlənir. Müasir texnologiyaların tətbiqi nəticəsində milli mətbuatımız qlobal informasiya məkanına inamla daxil olur, dünya ilə ayaqlaşan müasir medianın bir parçasına çevrilir.**

**Onu da qeyd edək ki, Vətən müharibəsi zamanı Azərbaycan mətbuatı kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında, cəmiyyətin operativ və düzgün məlumatlandırılmasında mühüm rol oynayıb. Həmkarlarım Qarabağla bağlı tarixi həqiqətlərin, o cümlədən işğal dövründə ermənilərin torpaqlarımızda törətdikləri vəhşiliklərin və vandallığın beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində bu gün də yorulmadan fəaliyyətlərini davam etdirirlər.**

**Prezident İlham Əliyevin 2021-ci il 12 yanvar tarixli Fərmanı ilə yaradılmış Medianın İnkişafı Agentliyinin xətti ilə KİV-ə maliyyə yardımı ayırmaqla dövət bir növ öz milli mətbuatını qoruyub.**

**Agentlik ölkəmizdə çap və onlayn medianın inkişafı, media orqanlarının maliyyə müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, mütərəqqi layihələrin davamlı dəstəklənməsi məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Mediaya bu cür yardımlar edilməsi çox uğurlu dəstək mexanizmidir. Bütün bunlar isə, eyni zamanda medianın azadlığının təmin olunmasına və jurnalistlərin peşəkar bacarıq və vərdişlərinin artırılmasına xidmət edir.**

**Göründüyü kimi, Azərbaycan Respublikasında söz və məlumat azadlığının, KİV-lərin maddi-texniki bazasının, iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin rifah halının yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər ardıcıl şəkildə davam etdirilir. Bütün bunlar isə bir daha Azərbaycanda fikir və söz azadlığının yüksək səviyyədə təzahürü və davamlı olması barədə nikbin düşünməyə əsaslı zəmin yaradır.**

**Milli Mətbuat Günü münasibətilə bütün jurnalist həmkarlarımı və media sahəsində çalışan hər kəsi ürəkdən təbrik edirəm.**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Dünyamızın ədaləti

## Və yaxud da "Ədalət"li dünyada yaşadıqlarım

Gəlin etiraf edək ki, biz tez-tez dünyanı qınayırıq. Onu etibarsızlıqda, gəlimli-gedimli olmaqda suçlayırıq, hətta bəzən emosiyalara uyub elə ifadələr işlədirik ki, sonra fərqinə varanda adamın dünyaya da yazığı gəlir, özünə də. Belə məqamda mən daha çox bir atalar sözünü xatırlayıram. Atalar deyib ki, "Ulağa gücü çatmayan palanı döyür". İndi özümüz özümüzlə bacara bilməyəndə üz tuturuq dünyaya. Başlayırıq onu sağdan, soldan vurmağa. Özdə təkcə adi bəndələr yox, bunu dünyaya meydan oxuyan fatehlər də, söz sərkərdələri də, sinəsi sazlı aşıqlar da, əli qələmli ən adi yazar da edir. Hətta bu yerdə yadıma böyük Səməd Vurğunun misraları düşür.

Xalq şairi yazırdı ki:

*Göylərə baxıram qapısı bağlı,*
*Yerlərə baxıram bağçalı-bağlı.*
*Həyat ixtiyari, sirli, soraqlı -*
*Biz gəldi-gedərik, sən yaşa dünya!*

Və yaxud böyük Məmməd Araz yazırdı:

*Dünya sənin, dünya mənim,*
*Dünya heç kimin.*

Bu sıranı kifayət qədər uzatmaq olar, davam etdirmək olar və bu davam edən sırada bir məntiqi məqam da var. Onu da yenə böyük Məmməd Araz deyib:

Məni qınayanın beləsi belə,
Mən belə dünyanın nəyindən küsüm.

Hə, indi bacarırsan küs və yaxud indi bacarırsan yaşa. Hər iki halda seçim ixtiyarı səndə. Mənsə başladığım bu fikir yumağını tərsinə çözürəm. İstəyirəm ki, əvvələ qayıdım. O günə ki, onda dünyaya "Ədalət" gəlirdi. Onda iyul ayının 26-sı idi. İl isə təqvimdə 1990-ı göstərirdi. İndi hesablayın, görün ədalət neçə ildi yol gəlib və bu neçə ildə nə qədər yüksəlib, nə qədər yayılıb, nə qədər qol-qanad atıb. Cərgəsində kimlər olub, kimlər gedib, kimlər köçüb, kimlər hələ də cərgədədi. Bu adi riyazi hesablamadı. Amma bu riyaziyyatda ömür ifadə olunub. Ona görə də xeyir-duası haqdan, adı Allahdan, sözü Tanrıdan olan "Ədalət" bütün çətinliklərin, bütün süni və həyati problemləri aşıb 2021-ci ilin bu gününə gəlib çıxıbdı. Və qəzetin öz dili ilə desək, hələ də "Ədalət" çıxır, hələ də "Ədalət"in təsisçisi, millət vəkili, yazıçı-publisist Aqil Abbasdır və hələ də mənim bu qəzetdə fikirlərimi bölüşmək, duyğularımı sərgiləmək, oxucularımla baş-başa qalmaq imkanım saxlanır...

Dünyanın bax belə qəribəliklərinin içərisində 34 il yol gəlmək və bu yolun da sevincini, kədərini, bütünlüyünü özünə köçürtmək, köçürtdüyünü də tarixləşdirib gələcək illərə daşımaq xoş olduğu qədər də şərəflidi. Bu mənada "Ədalət" şərəfli bir yol keçib və yoluna da davam edir.

Elə bu davam edən yolda hər bir əməkdaş kimi mənim də iynə ucu boyda da olsa, izim, sözüm görünür, yaşayır.

Görünən və yaşanan sözün ünvanı olan Ədalətdə görünmək və yaşamaq da bir xoşbəxtlikdi. Necə deyərlər, şükür xoşbəxtliyimə. Çünki Ədalət mənə dərd ortağı olub. Onunla bütün duyğularımı bölüşmüşəm. Hətta üzümü ona tutub demişəm ki:

*Qayğılı çəkdiyim, dərdli çəkdiyim,*
*Bu boyda Bakıda dərddi çəkdiyim!..*
*Mənim azadlıqda şərti çəkdiyim -*
*Cəzanın adını çəkənlər bilər.*

Hətta onda öncə bu qəzetin səhifələrindən hər kəsə üz tutaraq pıçıldamışam:

*Yandı evim-eşiyim,*
*Yandı divarım, daşım...*
*İsit, qoyma üşüyüm -*
*İsit məni göz yaşım...*

Ədalət mənə həm də olmuşların və olacaqların şahidi kimi sirr ünvanı olub. Bir kadına yazdıqlarımı öncə özü oxuyub, sonra tirajlayıb. Elə bu gün də yazdıqlarını sətir-sətir, cümlə-cümlə büküb özünə aparır oxucu qapısına, oxucu ünvanına. Çatdırır onlara duyğuların ifadəsini. Deməli, Ədalət həm də məni tanıdır, təqdim edir. Bax, bütün bu dediklərimin fonunda 34 yaşlı Ədalətin mənim üçün nə, kim olduğunu siz özünüz təxmin edin, mən bildiyimi bilirəm!..

Yazının bu nöqtəsinə qədər söylədiklərimi, sizinlə bölüşdüklərimi oxuyub zənnimcə, ədalət barəsində iki yol ayrıcında dayandınız. Birinci düşündünüz ki, axı bu dünyada ədalət yoxdur?! İkinci də 34 ildir oxuduğunuz Ədalətin simasında sizi razı salan və salmayan, sizin səsinizə səs verən və verməyən ədaləti düşündünüz. Son olaraq isə kimsə susdu, kimsə başını buladı, kimsə də şükür bu günə dedi. Bax, elə yol ayrıcında sizin çıxara bilmədiyiniz son qərar "Ədalət"in də axtardığıdı, "Ədalət"in də sorağında olduğudu. Deməli, sizli, bizli "Ədalət" olaraq ədalət axtarırıq. İnşallah, taparıq bir gün!

***

Tez-tez eşitdiyim bir söz var. Bu sözü də dostlar həmişə mənə ünvanlayırlar. Xəyalpərvərliyimi, sabahkı günlərə daha çox güvəndiyimi bağışlamırlar mənə. Bəzən birbaşa, bəzən sözarası deyirlər mənə ki, bir saat sonra nə baş verəcəyini heç kim bilə bilməz. Ona görə zamanın özünün yaxasından dərd tutmaq, zamanın özü ilə haqq-hesab çəkmək, qərar qəbul edib addım atmaq lazımdır. Sabahla bağlı isə sabah düşünüb, sabah danışarıq. Təbii ki, mən bununla razılaşmıram. Bu, hardasa bir ümidsizlikdi. Ancaq ümidsizliyin özü ilə özünə qapanmanın arasında da fərq var. Bu mənada mən tənhalığın, təkliyin, özünəqapanmanın xəstəsiyəm. Bunu mənə günah da saya bilərsiz, qəbahət də, xəstəlik də. Bütün hallarda bildiyim, inandığım odur ki, dörd divarın içərisində Allahın şahidliyi və sənin iştirakınla edilən söhbətlər bir ürəyin səsi, bir ürəyin hıçqırtısı, bir ürəyin fəryadıdı. Əgər bu dörd divarın daşlarını iynə ucu ilə ovub töksək, ondan kitab-kitab söz, nəğmə, fəryad, haray, dua əmələ gələr. Bu cilidləri daşımaq üçün isə bir dəvə karvanını kirayə götürmək lazım olar. Bax, bu yozumun içərisində mənim yuxumun da, xəyalımın da, yaşadığım reallığın da hər bir anı bir gül ləçəyi və həmin ləçəyin üstündə də bir damla şeh kimidi. Və bu məqamda öz səsimə oyanıram. O səs deyir ki:

*Qarşında kiprikləri*
*Gül ləçəyi tək şehli...*
*Həmişə küskün, incik,*
*Dili də ki, gileyli -*
*dayanmışam...*

*Gözlərimi son güclə*
*Sıxmışam səhərədək!..*
*Səni yuxuda görmək*
*Anında mən, ay mələk -*
*oyanmışam.*

*Ruhum sızıltılardan*
*Bələnibdir ahlara...*
*Bilirəm ki, qarşında*
*Mən bütün günahlara -*
*batmışam.*

*İndi susmaq, danışmaq...*
*Fərq eləmir heç biri.*
*Əgər bağışlanmırsa,*
*Yozulmursa , heç sirri -*
*ürəyin.*

Bu misralar yaşamın özünü tam ifadə etməsə də, amma bir az təsəllidi. Daha doğrusu, ağrıyan ürəyin yaralarına bağlanan sarğıdı. Və mən də həmin sarğının kimin əli ilə bağlanmasını heç kimə açmıram, demirəm. Düşünürəm ki, o əlin sahibi o yaranı bağlayacaq Kəs özü işarəmi görür, duyur və bilir. Təbii ki, bu qədər şərhdən sonra ikinci şərhə də heç yer qalmır. Amma...

Amma bütün hallarda göy üzündən, tanrının özündən gələn sevgini göstərmək, reklam etmək bir az gülüş doğurur, istehzaya səbəb olur. Axı ürək kimə aiddirsə, kimin üçün döyünürsə, onu deməyə gərək ki, dil dönməsin. Əgər döndüsə, deməli ürək bütünlüklə o sevgiyə aid deyil. Hələ o ürəkdə nəsə çatmır. Bax, elə bu səbəbdən də mən Tanrıdan gələn pıçıltıları misralamağa, şeirə çevirməyə özümü borclu sayıram. Düşünürəm və əminəm ki, Allah məni bir bəndə olaraq bu missiya ilə şərəfləndirib, bu vəzifəni icra etmək üçün Yer üzünə göndərib. Göndərib ki, sevgidən yazım, sevgini yaşayım, sevgini özümdən sənə, səndən özümə daşıyım. Hətta bəzən küskün halda olsa belə, deyim ki:

*Kipriklərin çətirin,*
*Üstümdən yığma, gülüm.*
*Könlümün çəkdiyinə -*
*Könlünü sıxma, gülüm!*

*Günümdən gün kəsirəm,*
*Girovunam - əsirəm...*
*Görməyə tələsirəm -*
*Özünü yıxma, gülüm...*

*Həsrət sanki təmənə,*
*Dən olsa da tən, mənə!*
*"Can" demədən sən, mənə -*
*Yuxumdan çıxma, gülüm!*

Bax, elə bu ovqatın içində də yenə üzümü dünyaya tuturam. Axı, baş verənlər bu dünyanın həm gözünün önündə, həm də ovcunun içərisində gerçəkləşir. Ona görə də "ovcunun içi"ni xüsusi vurğulayıram ki, bu dünya bizi öncə ovuclarını açaraq qarşılayır, sonra da ovuclarını yumaraq öz dərinliyinə çəkib aparır. Bu məqamda mən bir az şairlik edirəm. Necə deyərlər, havalanmış kimi göyə də, yerə də səslənirəm. Səsləndiyim, daha doğrusu, səsdən sözə çevirdiyim isə dörd misradır.

*Məni göydən ayırıb,*
*Qaytarın yerin üstə.*
*Sevgi istəyən olsa -*
*Məni də verin üstə!..*

***

Bir damın altında, bir köynəkdə yaşamaq, bir adı daşımaq və o damın da, o köynəyin də, o adın da hər halını özününküləşdirmək, ona sahib çıxmaq, onunla nəfəs-nəfəsə olmaq böyük hünər tələb edir. Bir az da dəqiq ifadə etsək, dözüm zərurəti yaradır. Bu mənada "Ədalət"in damı altında olduğum illər kəsiyində mən zamanı bir az da yaxından gördüm, yaxından duydum. Az qala bəzən zamanın bütün qatlarına baş vurdum. Və nəhayət, gəldiyim qərar, çıxartdığım nəticə bu oldu ki, Yer üzü bəzən adama göy üzü qədər uzaq olur. Bu uzaqlığı yaradan da anlamaq, anlatmaq məsələsidi. Neyləyək ki, bəzən biz özümüz anlamadığımız kimi, bizi də anlamırlar. Bu da son nəticədə adamın təkcə çevrəsi ilə yox, həm də özü ilə üzüzə qoyur. Hətta bəzən elə bir durum yaranır ki, hər şeyi alt-üst etmək, hər şeyin nöqtəsini qoyub... beləcə, bir ömrün az qala yarıdan çoxu həmin o anlamanın və yaxud da anlamamağın güdazına gedir...elə bu məqamda da son şeirlərimdən biri yadıma düşür. O şeiri başqa ovqatla, başqa istəklə yazmışam Sənə! Əslində mən yazmamışam, mən haqdan gələn pıçıltını misralamışam, vərəqə köçürmüşəm. İndi də uca səslə oxuyuram:

*Elə düşünmə ki, məndən uzaqsan,*
*And olsun Allaha, sən yanımdasan!*
*Havasan, işıqsan, susan, torpaqsan -*
*Allahın özütək hər anımdasan!*

*Elə düşünmə ki, səndən uzağam -*
*Kölgənəm, fikrinəm, dildə sözünəm.*
*Küləyəm, yağışam, odam, sazağam -*
*Anında, ayında, ildə özünəm!*

*Elə düşünmə ki, biz aralıyıq -*
*Sən sərhəd çəkmisən, ya mən ölmüşəm...*
*İkimiz bir dərddən biz yaralıyıq -*
*Sənə, o dünyadan geri dönmüşəm!*

Bəli, buy azı mənim dünya ilə, "Ədalət" ilə, duyğular ilə baş-başa qaldığım anın müəyyən məqamlarıdı. Necə deyərlər, içimdən gəlib keçənləri dünyanı, "Ədalət"i əlimdə bayraq kimi tutub onun altında oxuculara səsləndim. Yəqin ki, səsim, sözüm kimlərəsə çatdı... çatmadısa, demək dinləmək istəmədikləri üçün çatmadı. Onlardan incik deyiləm. Çünki səs də, söz də hərəyə bir cür təsir edir. Bu özü də həyatın, dünyanın, elə "Ədalət"in də özündə ifadə etdiyi nüanslardandır. Və...

Gəlin, dünyanı da, ədaləti də bir az sərbəst, rahat buraxaq. Yapışaq ürəyimizin, sevgimizin əlindən, ətəyindən və bir də sığınaq Allahımıza. Sığınaq ki, ədaləti unutmayaq. Sığınaq ki, sevgimizin bizi daşıdığı ünvana yetişə bilək...

# 22 İYUL – MİLLİ MƏTBUAT GÜNÜDÜR!

## *Vətən sevgisini bir səngərdə birləşdirən hərbi qəzet*



*Mirqiyas Seyidsoylu,*
*Polkovnik*

**Qəzet: - İctimai fikrin formalaşmasında və baş verən hadisələr barədə insanların məlumatlandırılmasına təsir edən yazılı vasitəyə qəzet deyilir. Qəzet adı İtalyada XVI əsrdə kağız vərəqdə çap edilən saray həyatı, ticarət xəbərləri, şəhər məlumatları haqqında xəbərlər oxumaq üçün ən xırda pul vahidi olan " qəzet " ödənilirdi.**

XX əsrə qədər Azərbaycan dilində " Qəzet " ə " Ruzunamə " deyirdilər. Qədim Romada b.e.ə 59-cu ildən " Senatın işləri " adlı indiki " Qəzet " i xatırladan gil lövhələr hazırlanırdı. Lövhələrdə əhali üçün vacib olan hadisələr yazılardı.

Azərbaycanda ilk rəsmi yazılı qəzetin " Əkinçi " adı ilə Azərbaycan dilində 22 iyul 1875-ci ildə Bakı şəhərində görkəmli ziyalı, böyük mütəfəkkir - maarifçi Həsən bəy Zərdabi tərəfindən buraxlışı təşkil edilmişdir. Ancaq xalqımızın milli tarixi keçmişinə nəzər saldıqda görürük ki, Azərbaycanda milli mətbuatın tarixi çox qədimdir. Belə ki, b.e.ə GƏMİQAYA və QOBUSTAN qayalarında çəkilmiş şəkillər, həkk olunmuş yazılar bunu bir daha sübut edir. Bəli, həqiqətən də xalqımızın tarixi qədər Milli Mətbuatımız da, qədim və zəngindir. Gələcəkdə bu mövzuda geniş və ətraflı yazı hazırlamağa çalışacam..

Bu gün ki, tarixi əlamətdar günlərdə bizi düşündürən, bizə yaxın və doğma olan vacib məsələlərdən biri də xalqımızın hərb salnaməsi və Milli Hərbi Mətbuatın yaranış tarixidir. Milli Mətbuat tariximizdə hərb, müharibə mövzuları Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşr olunan mətbu orqanlarında " Azərbaycan ", " İstiqlal ", " Açıq Söz " qəzetlərinin səhifələrində daha geniş yer alıb.1920-ci ilin 28 aprel işğalından sonra AZƏRBAYCAN DİVİZYASININ orqanı olan " QIZIL ƏSGƏR " qəzeti fəaliyyətə başlamışdır. Sonralar " SAVADLI QIRMIZI ƏSGƏR " ilk hərbi jurnal 1922- ci ildə Bakıda nəşr olunur. Bir müddət sonra görkəmli sərkərdə, tam artilleriya generalı Əlağa Şıxlinskinin təklifilə bu mətbu orqan " HƏRBİ BİLİK " jurnalı adlı ilə nəşr edilir. Bu jurnal hərbi elmi əsaslara və hərbi nəzəri biliklərə söykənərək məzmununda və tərkibində yeniliklər edir.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi yenidən bərpa edildiyi ilk günlərdə, obyektiv və subyektiv səbəblər üzündən dərhal Silahlı Qüvvələrimiz də bərpa edildi. Müstəqilliyimizin ilk günlərində Azərbaycan hərb tarixində mövcud olmuş " HƏRBİ BİLİK " jurnalı 70-ildən sonra bərpa edilməklə yanaşı 1992-ci ilin fevral ayında nəşrə başlayan " AZƏRBAYCAN ORDUSU " ( əvvəllər XALQ ORDUSU " adlanırdı. ) qəzeti bu gün, Silahlı Qüvvələrimizin ən dəyərli mətbu orqanlarıdır.

Azərbaycan Respublikasının kütləvi informasiya vasitələri içərisində mühüm yer alan hərbi mətbuatımız, ötən illər ərzində böyük inkişaf yolu keçmişdir. Belə ki, döyüşə - döyüşə yaranan, yarana - yarana döyüşən Silahlı Qüvvələrimizin mətbu orqanları qanlı müharibənin ağrıları içərisində yoğrulub, bərkiyib cilalanmışdır. Milli hərbi mətbuat vasitələrimiz ölkəmizin ərazi bütövlüyü uğrunda illərlə - on illərlə davam edən müharibəni, ŞƏHİDLƏRİMİZİN keçmiş olduğu şərəfli döyüş yolunu, Vətənpərvər, əzimkar döyüşçülərimizin qəhrəmanlıq nümunələrini, döyüşlər zamanı yaralanaraq qazi adına yüksəlmiş cəsur döyüşçülərimizin düşmənə qarşı barışmazlığını, düşmən üzərində qazanılmış uğurlu qələbələri, döyüş və döyüşə hazırlıq məşğələlərini, ordu və xalq birliyini, döyüş əməliyyatları salnaməsini öz səhifələrində qürurla işıqlandırdı və tarixə çevirdi...

1992-ci ilin ağır və qanlı döyüşləri zamanı düşmənin seperatçı, terror - quldur dəstələri FÜZULİ döyüş cəbhəsilə bir başa təmas xəttində yerləşən yaşayış məntəqələrinə tez - tez basqınlar edir, özünün çirkin işğalçılıq niyyətini həyata keçirməyə cəhd göstərirdilər. Düşmənin təxribatçı terror - quldur dəstələri hər gün, 24 saat FÜZULİ şəhərinə və ətraf yaşayış məntəqələrinə müxtəlif çaplı silahlardan və artilleriya qurğularından atəş basqınları edir, insanların sakit həyat tərzini pozmaqla onlar üçün qorxu və təhlükə yaradırdılar. Deməl olar ki, hər gün FÜZULİ şəhərinə və təmas xəttinə yaxın olan yaşayış məntəqələrinə yüzlərlə, minlərlə güllələr, bombalar və mərmilər atılırdı.Yaranmış ağır və üzücü hərbi - siyasi vəziyyətin aradan qaldırılması məqsədilə FÜZULİ ictimaiyyəti, təəsübkeş, Vətənpərvər ziyalı təbəqə və gənc nəsil silaha sarılmışdı. Müharibənin ilk günlərindən Silahlı Qüvvələrimizin Qoşun hissələrilə bərabər rayon ərazisinin düşmənin quldur dəstələrindən qorunması, müdafiə və mühafizə olunması məqsədilə yaradılmış FÜZULİ ƏRAZİ ÖZÜNÜMÜDAFİƏ TABORUNUN bölmələri gücü çatdığı qədər düşmənə qarşı barışmaz mübarizə aparırdı.Bu döyüşlərdə onlarla döyüşçü qəhrəmanlıq nümunələri göstərir, düşmən güllləsindən yaralanır və sağlamlığını itirirdi. Belə çətin, ziddiyətli şəraitdə mərkəzi mətbuat və kütləvi informasiya vasitələri ilə tez - tez əlaqə saxlamaq, müharibə həyatını əks etdirən qəhrəmanlıq mövzulu hekayə və oçerkləri hazırlamaq, xüsusi tele - repotajların yayımlanmasına nail olmaq heç də asan deyildi. Azərbaycan Respublikasının Konstitusiyasını rəhbər tutaraq, Ümumqoşun və Döyüş Nizamnamələrindən irəli gələn tələblər çərçivəsində Döyüşçülərə müharibənin bizim tərəfimizdən ədalətli, düşmənin isə ədalətsiz olduğunu təbliğ etmək ; Vətənə məhəbbət, xalqa sədaqət, düşmənə nifrət hisslərini aşılamaq ; təəsübkeşlik və Vətənpərvərlik ruhunu daha da gücləndirmək ; komandirinə və silahına inamı, əsgəri dostluq - yoldaşlıq münasibətlərini tərbiyə etmək ; hərbi intizamı möhkəmləndirmək, qanunçuluğu gücləndirmək və hərbi qulluqçular arasında döyüş əzmini daha da artırmaq ; Milli həmrəylik, milli təəsübkeşlik, milli qürur, milli ləyaqət, milli dövlətçilik və Azərbaycançılıq məfkurəsi ideoloji konsepsiyasının təbliğat - təşviqat işini genişləndirmək ; bayrağa, Vətənə, torpağa, xalqa bağlılıq, onun uğrunda əzimkarlıq mübarizlik və fədakarlıq göstərmək ; düşmənin çirkin niyyətli işğal siyasətinə qarşı barışmaz olmaq, son qarış torpağımız uğrunda rəşadətlə sarsılmazcasına mübarizə aparmaq.

Döyüş cəbhəsində müntəzəm olaraq aparılan döyüş əməliyyatları ərəfəsində qoşunlarda yerinə yetrilən bütün növ döyüş təminatilə yanaşı ilk növbədə Mənəvi psixoloji təminat mühüm rol oynayırdı. Qoşunlarda Mənəvi psixoloji təminatın həyata keçrilməsində komandirlərin, bu sahədə mövcud olan vəzifəli hərbi qulluqçuların, manqalarda döyüş fəallarının fəaliyətilə yanaşı mətbuatın və kütləvi informasiya vasitələrinin rolu danılmazdır.



CƏBHƏÇİ

СИЗӘ МИННӘТДАРЫГ!

БУ ЈАЗЫН УМИДИНИ ГЫРМАЈЫН!

Ancaq o dövrə görə, yerli və mərkəzi mətbuatın güc və vasitələri, imkanları döyüş cəbhələrini vaxtlı - vaxtında təmin edə bilmirdi. Çünki, vacib olan amillərdən ən əsası, düzgün olan informasiya və təbliğat - təşviqat işi idi. Mövcud şərait, bunun üçün güc və vasitələrin artırılmasını tələb edirdi.

Bir gün, " Azərbaycan ordusu " qəzetinin əməkdaşı, hərbi jurnalist, yazıçı - publisist, mərhum, baş leytenant Nemət Veysəlli və Əməkdar jurnalist, şair, yazıçı - pulisist Əbülfət Mədətoğlu ilə " Üryandağ " yüksəkliyində görüşdük. Həmin vaxt Nemət Veysəlli müşahidə məntəqəsindən düşmən işğalında olan, doğulub boya - başa çatdığı Yuxarı Veysəlli kəndinə baxıb hönkkür - hönkür ağlayırdı. Əbülfət müəllimlə mən, ona yaxınlaşıb sakitləşməsini xahiş etdik. Əbülfət Mədətoğlu : - Nemət müəllim, belə etmə.

Əsgərlər kənardan baxır və onlara da psixoloji təsir edir. Yaxşı olar ki, biz bu döyüşçü əsgərlərlə ruhlandırıcı söhbətər aparaq. Onların haqqında xüsusi oçerk və hekayələr hazırlayaq. Söhbət əsnasında əsgərlər haqlı olaraq qoşunlarda döyüşçülər və şəhidlər haqqında, vaxtlı vaxtında qəzet materiallarının hazırlanmasının azlığından şikayətləndilər. Mərhum Nemət Veysəlli bildirdi ki, çatdıra bilmirik. Belə ki, ölkədə cəmi bir hərbi qəzetimiz var. Əməkdaşlarımız azlıq təşkil edir. Döyüş cəbhəsi genişdir, bu səbəbdən çatdıra bilmirik. Yazı materialları hazırlanır, ancaq səhifələr daima dolu olduğundan günlərlə, həftələrlə gözləməli oluruq ki, materiallar nəşr edilsin. Sonra dedi ki, bu barədə mən, bu gün, Əbülfət müəllimlə birlikdə tabor komandiri Mobil Yusifovla da, söhbətimiz oldu. Danışdıq ki, yaxşı olar öz Hərbi hissənizin orqanı olan bir qəzet təsis edərdiniz. Bu barədə " ARAZ " qəzetinin baş redaktoru Məcnun Nazəliyevlə də söhbətimiz oldu. Məcnun müəllim dedi ki, mən köməklik edəcəm bizim mətbəədə çap olunsun. Belə qərara gəldik ki, sizin tabor üçün adi Döyüş vərəqi ölçüsündə kiçik bir qəzet nəşr edilməsinə köməklik edək. Həmin gün, günün ikinci yarısında Yuxarı Dilağada kəndində, tabor komandiri, mərhum polkovnik - leytenant Mobil Yusifovla taborun qəzeti haqqında məsləhətləşdik. O, belə qərar qəbul etdi ki, bunun üçün ümumi yığıncaq keçirib, protokol tərtib etməliyik.

Biz bunu belə də etdik. Belə ki,1992-ci ilin aprel ayı üzrə Hərbi hissə komandiri Mobil Yusifovun sədrliyi ilə ümumi yığıncaq keçrib protokollaşdırdıq.

Qərarara alındı : Hər ayda iki dəfə nəşr olunmaqla Hərbi hissənin bütün şəxsi heyətini Azərbaycan Respublkasının ərazi bütövlüyü uğrunda aparılan ədalətli müharibədə vahid döyüş cəbhəsində birləşdirəcək " CƏBHƏÇİ " adlı hərbi qəzet təsis edilsin.

- Növü - hərbi qəzet.
- Formatı - a - 24 həcmdə.
- Səhifəsi - 2
- Redaktor - Füzuli rayonu İcra Hakimiyətinin gündəlik ictimai - siyasi qəzeti olan, " ARAZ " qəzetinin əməkdaşı Nəsibə Bəylərovanın ( Balabəyli ) təyin edilməsi xahiş edilsin. ( Sonrakı illərdə Nəsibə xanım dünyasını dəyişdi. Allah rəhmət eləsin. )
- Qəzetin çap edilməsi - Qəzetin hər ayın 15-i və 30-u günlərində nəşr edilməsi Füzuli rayonlararası mətbəənin müdri Oqtay Əliyevdən xahiş edilsin.
- Hərbi hissənin orqanı olan, hərbi qəzetin Azərbaycan Respublikası mərkəzi mətbuatı və kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqənin yaradılması, nəşr ediləcək materialların seçilməsi, hazırlanması, nəşri və yayımı müvafiq vəzifəli şəxslərə həvalə edilsin.

Hərbi qəzetimiz aşağıdakı bölmələr üzrə təsis edilmişdi.

- " Şəhidlər ölməz Vətən bölünməz . " Bu bölmədə Şəhidlərin keçdiyi döyüş yolunu və qəhrəmanlıq nümunələrini əks etdirən yazılar öz əksini tapırdı.
- " Mənim qazi qardaşım " bu bölmədə, döyüşlər zamanı yaralanaraq qazi olmuş qəhrəman döyüşçülər haqqında yazılar dərc edilirdi.
- " Sizə minnətdarıq ! " - bu bölmədə nümunəvi xidmət edən, Vətənin müdafiəsində və döyüşlər zamanı xüsusi şücayət göstərən döyüşçü əsgərlərin valideynlərinə Hərbi hissə komandanlığının müraciəti dərc edilirdi.
- " Təki Vətən yaşasın " - bu bölmədə Vətən torpaqlarının müdafiəsində canlı əfsanə olan və döyüşlər zamanı qəhrəmanlıq nümayiş etdirmiş döyüşçülərimiz barədə xüsusi repotajlar hazırlanırdı.
- " Qarabağım - qədim diyarım. " - bu bölmədə Qarabağın dünəni və bu gününü əks etdirən tarixi araşdırma materialları dərc edilirdi.
- " Əsgər yaradıcılığı " - bu bölmədə bədii yaradıcılıq qabliyyətli döyüşçülərimizin yazıb yaratdığı oçerk, hekayə, povest və şeirləri hissə - hissə çap edilirdi.
- " Döyüşçü lətfələri " - bu bölmədə dünya və ölkə ədəbiyyatında mövcud olan maraqlı lətfələr dərc edilirdi.
- " Hərb tariximizdən səhifələr " - bu bölmədə Azərbaycan hərb tarixindən nümunə götrüləcək döyüşlərin tarixi hekayələri haqqında yazılar dərc edilirdi.
- " Hərbi hüquq və Ümumqoşun nizamnamələri " - bu bölmədə hərbi hüquq və Ümumqoşun nizamnamələrindən vacib olan məsələlər haqqında açıqlamalar verilirdi.
- " Başınız sağ olsun " - bu bölmədə şəhid valdeynlərinə hərbi hissə komandanlığı və bütün şəxsi heyət adında baş sağlığı dərc edilirdi.

Hərbi hissənin orqanı olan hərbi qəzetin ilk nömrəsinin hazırlanması və nəşr edilməsi üçün bir neçə ay çalışmalı olduq. Belə ki, müharibə şəraitində hər gün müxtəlif fors - major hadisələrin baş verməsi və çətinliklər üzündən bunu edə bilmirdik. Sonda bu məsələdə hərbi hissənin qocaman döyüşçü, kapitan Asif Şirinov bizə yaxından köməklik göstərdi. Nəhayət ki, biz hərbi hissənin hərbi qəzetinin ilk nömrəsinin nəşrinə1992-ci ilin avqust ayında nail olduq. Ancaq, çox təəsüflər olsun ki, hərbi hissənin qərargah rəisi kapitan Elxan Yusifova qəzetimizi görmək qismət olmadı. O, həmin gün Yuxarı Veysəlli kəndinin düşməndən azad olunması uğrunda aparılan əks - hücum döyüşündə 8 nəfər cəsur Vətən oğullarımızla birgə böyük fədakarlıq göstərərək qəhrəmancasına həlak oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Hərbi qəzetimizin ilk nömrəsi 15 avqust 1992- ci ildə, sonuncu nömrəsi 15 aprel 1993-cü ildə nəşr olundu. Bu müddət ərzində hərbi qəzetimizin 9-nömrəsi nəşr edilmişdi. 1993- cü ilin ikinci yarsında Füzuli döyüş cəbhəsində yaranmış gərginlik və narahatlıqlar üzündən Füzuli rayonlarararası mətbəənin fəaliyyəti dayandırıldı. Nəticədə mövcud imkansızlıqlar üzündən bizim qəzetin də nəşri dayandırıldı.

**(ardı 12-ci səhifədə)**

# "Bütün arzuların çin olmaq haqqı yoxdur"

*Müsahibim sözün cazibə qüvvəsi ilə cəmiyyətin düşüncəsini doğru istiqamətə yönəldən publisist, yazıçı Bahəddin Həzidir.*

**Öz doğum günündə mənə hədiyyə etdiyi "Göyün cazibə qüvvəsi" kitabı ilə yaxından tanıdım Bahəddin Həzini. Uzun illərdən sonra mənə hədiyyə edilən ilk kitab oldu. İmzasını rəğbətlə izlədiyim jurnalistin həm də publisistikası ilə tanış olmaq imkanım yarandı. Adının mənasını hər səhifəsində, hətta hər cümləsində doğruldan bu kitabın cazibə qüvvəsi mütaliəyə doymaq bilməyən aclıq hissi yaratdı.**

**Müəlliflə tanış olmağımızın səbəbkarı Seyran Səxavət (təmtəraqlı təqdimata ehtiyacı olmadığından, sadəcə, adını qeyd etdim) kitabın ön söz yazısında deyir:**

**"... arzu şəkilli bir "iradım" da doğuldu, gərək əvvəldə yazaydı: "Əsəbi zəif olan adamların oxumağı məsləhət deyil"... Ancaq yenə özü bilən məsləhətdir - Sözə qarşı o cür "qəddar" olan müəllifin "humanistliyinə" inanmağım gəlmədi."**

**Mən isə Sözə "yazığı gəlməyən" bu "qəddar" müəllifi oxucunun zehninə, qəlbinə ziya toxumu səpən, zəhmətsevər bir Əkinçiyə bənzətdim. Səpdiyi toxumların tez ya da gec, amma mütləq cücərəcəyinə inanan Əkinçi - Bahəddin Həzi.**

**- Bahəddin bəy, Seyran Səxavət Sizdən niyə şübhələnib?**

**Bahəddin Həzi:** Seyran Səxavət hamıdan "şübhələnir". Elə özündən də.

**-Özündən niyə?**

**B.H:** Niyəsini deyim. Məsələn, bir cavan oğlan və ya qız gəlir yanına, Seyran Səxavət onun şeirini oxuyur, gələcəyindən "şübhələnir": şair olacaq bu gənc, ya yox? Yaxşı şübhədir. Məndən isə ona görə "şübhələnib" ki, deyəsən, bundan əvvəl Yer üzünə artıq bir neçə dəfə gəlmişəmmiş.

Mən niyə ondan "şübhələnmişəm" deyə soruşsanız, o da başqa sualdır.

**- O zaman, elə o "başqa sualı" da cavablandırın, zəhmət olmasa.**

**B.H:** Həə... Mən də onun yubileyinə bir yazı yazmışdım, başlığı da belə idi: "Ədəbiyyat-adamdan niyə şübhələndim?!" Orda bu suala cavab vermişəm: "mən də səksən yaşlı bu cavan oğlandan "şübhələndim": deyəsən, axı bu talantlı yazıçının "ömür sayğacı" tərsinə işləyir - təqvim səksən yaş göstərir, özü isə bu rəqəmin yarısını. Nə iş?! Bəlkə "sayğac"a "müdaxilə" var?!"

**-Bahəddin bəy, tez-tez "şübhələnirsiz"?**

**B.H:** Demək olar həmişə.

**- Nədən və ya kimdən? Niyə?**

**B.H:** İnsan ən çox özündən şübhələnir. Vicdanınla danışmaq bu şübhədən doğur. İnsan üzdə dünyanı, içəridə özünü həmişə sorğulayır. Bu, normaldır. Siyasət də şübhə üzərindədir: vətəndaş hökumətindən şübhələnməsə, onu dəyişmək istəməz ki Demokratiyanın mayasında şübhə var. Bir insanı yanlış yoludan döndərməyin ən doğru yolu onda getdiyi səmtə şübhə yaratmaqdır. Uşaqlar da şübhəyə düşmüşdülər: it hürən tərəfə getsinlər, ya işıq gələn tərəfə?! Cırtdandan soruşdular, o da işıq gələn tərəfi göstərdi. Ancaq gedib, Divə rast gəldilər. Aristotel məntiqi işıq gələn tərəfi göstərirdi. Bir də Lütvi Zadə məntiqi var: it hürən tərəfdə işıq da gələ bilər. Çünki it ev heyvanıdır, evdə isə işıq olur. Gecə o işıq sönmüş ola bilər, o demək deyil ki, yanmayacaq. Siyasətə elə-belə toxunmadım: müxalif insanın şüuruna təsir etməklə ondakı fanatiki analitikə, sonunda, skeptikə çevirirsən ki, doğru seçim edə bilsin. Neytralı da həmçinin. Çünki neytral - ən şübhəli adamdı.

Bir əlavə edəcəm: mən həmişə şübhələnirəm: doğrudanmı, doğru yaşayıram?

Bir essemdə yazmışdım: "Biz bəzən həyatımızı insanlarla o qədər çox doldururuq ki, yaşamaq üçün özümüzə yer qalmır". Şübhədir, elə deyilmi?!

**- Bəlkə yalnızlıqdan qorxduğumuz üçün həyatımızda özümüzə yer saxlamırıq?**

**B.H:** Ən böyük yanlışımız da elə budur: yalnızlıqdan qorxmaq! Yalnızlıq - yalnız deyil. Cürbəcür yalnızlıqlar var. "Tənhaların planeti"ndə yazmışdım: "Yaradıcılıq xoşbəxt, ya da elə bədbəxt tənhalığın olayıdır. Allah özü də yaradıcı yalnızlığın gücüdür". Biz yalnızlıqdan bir bədheybət düzəltmişik. Ancaq özü ilə tək qalmağı bacaran insan ən güclü insandır. Biz isə, dediyim kimi, bəzən həyatımızı insanlarla o qədər çox doldururuq, axırda o izdihamın içində tənha qalırıq. O boş çoxluqda "yoxa çıxırıq". Əslində isə Artur Şopenhauerin sözləri ilə desəm, biz təkcə sahib olduqlarımızla yox, sahib olmadıqlarımızla da varlıyıq. Mənim ölkənin çox yerində sahib olduğum öz evim yoxdur, ancaq ölkənin çox yerində mənə sahib çıxacaq ev var: doğmalarımın evi, dostlarımın evi, oxucularımın evi. Mən ölkənin harasına getsəm, açmağa bir qapım var. Varlı olmaq bu deyil?!

Yeri gəlmişkən, bəşəriyyət Şopenhauerin: "Xoşbəxt olmaq üçün çox şey lazım deyil" düsturu üzrə yaşasaydı, korrupsiyanın kökünü çoxdan kəsərdi.

Dünyanı filosoflar idarə etmədiyi üçün dünya getdikcə idarəetmədən çıxır. Gah o ağaca çırpılır, gah o qayaya, gah o daşa...

Sizcə, dünyanı kim idarə edir?

**- Kim?**

**B.H:** "Dünyanı keçmişdəki kimi filosoflar idarə etmir artıq. Heç filoloqlar da idarə etmir. Dünyanı degenerat generallar, siyasi polismenlər və həris biznesmenlər idarə edir. Ona görə də dünyanın bir yerində atılan güllə hər yerində hər kəsə dəyir".

Bunu bir essemdə yazmışam.

Dünyanı bəşəriyyətin 90 faizinin yaratdığı dəyəri mənimsəmiş 10 faiz idarə edir. Üstəlik Tanrının verdiyi bütün təbii sərvətlərin üstündə oturub dimdikləyən quzgun sürüsü.

**- Bəlkə də dövrümüzdə filosof və ziyalının mənəvi dəyəri ucuzlaşdırılıb, bir status, bir mövqe səviyyəsinə endiyi üçün prosselər bu cür irəliləyir?**

**B.H:** Biz əvvəlcə anlayışları bir-birindən ayırmağı öyrənəcəyik. Kimdir filosof? Kimdir ziyalı? Dostlarla görüşdə də bu məsələyə ötəri toxundum: biz əksərən ayrı-ayrı faktlara fokuslanmışıq, ayrı-ayrı hadisələrə köklənmişik. Əslində isə proseslərin daxili məntiqini tuta bilmirik. Hər halda çox zaman. Biz ağaca baxırıq, arxasındakı meşəni görmək istəmirik. Problem burdadır. Biz ayrı-ayrılıqda necə yaşaya biləcəyimizin qovğasına düşəndə bölünüb, xırdalanıb bir-birimizlə didişəcəyik, amma əksinə cəmiyyət kimi necə yaşayacağımıza fokuslansaq, daha sıx birləşəcıyik. Antik düşüncə insanın təklikdə necə xoşbəxt ola biləcəyi üzərində qurulmuşdu, XIX əsrdə fəlsəfə dedi, yox, xoşbəxtlik - kollektiv axtarışın məhsuludur. Ancaq XXI əsrin əvvəlində Corctaun Universitetində Hilari Koen yeni bir hərəkat başladı, o vaxtdan insanlara neoliberal düşüncə aşılanır və dünya yenidən ifrat fərdiyyətçiliyə qayıdır. Bu, çox şeyi dəyişir. Çox zaman da çox pis tərəfə dəyişir.



**- Bəlkə də ayırmaq əvəzinə, bir-birinə kor-koranə caladığımız üçün mutant anlayışlar yaranır ?**

**B.H:** Calaq etməkdən söhbət getmir, yox. Hər qız da vaxtı gələndə öz ata evindən ayrılır, ancaq başqa bir ocaqda çıraq yandırmağa gedir. Ayrılığa neqativ anlam yükləmişik. Folklor, klassik, lap elə modern poeziya ayrılığı o qədər tündləşdirib ki! Oddan qorxan kimi qorxuruq.

**- Yaxşı, bəs, ümumiyyətlə, kimlər ziyalı sayıla bilər?**

**B.H:** Hə, yaxşı sualdır: ziyalı kimdir?

Səhv etmirəmsə, professor Xudu Məmmədov zamanında ziyalının tərifini üç prinsip əsasında verib: 1. Ziyalı - öz sahəsini dərindən bilən, bu sahədə avtoritet olan, öz sahəsinə yenilik gətirən şəxsdir; 2. Öz məktəbini yaratmış (davamçıları olan) şəxsdir; 3. Vətəndaş mövqeyi olan şəxsdir.

Filosof, ziyalı - əslində bunlar hamısı bir anlayışın içərisidir. Anadolu türkləri buna "içərik" deyir. Bunlar intellektual gücün içərisində barınan anlayışlardır. Ziyalı daha geniş məfhumdur. Filosof isə "mənanı sevən" deməkdir. Fəlsəfə - anlam sevgisidir. Bir var, sözə sevgi, bir də var, sözün mənasına sevgi. Həyat, ölüm, hər şey haqqında fundamental düşüncə sistemi, mexanizmi, nə deyirsinizsə, deyin artıq. Yəni fəlsəfə də, ədəbiyyat da, başqa yaradıcı güc elementləri, düşüncə fabrikləri hamısı o "intelligent" anlayışının içərisindədir.

**- Bir az əvvəl dediniz ki: "...ölkənin çox yerində sahib olduğum öz evim yoxdur, ancaq ölkənin çox yerində mənə sahib çıxacaq ev var..." Əlavə edim ki, hətta o qədər sahiblənirlər ki, Yerin və Göyün cazibə qüvvələrinin də gücü çatmır Sizi onlardan ayırmağa.**

**B.H:** Cazibə qüvvəsi, bəli, fizikanın anlayışıdır. Ancaq cazibə qüvvəsinin ən dəqiq adını soruşsanız, mən "Sevginin gücü" deyəcəm. Heç bir şey Sevginin gücü qədər yaradıcı talant daşımır. Göy üzünə atılan daşı Yer üzü sevməsə, çəkib öz sinəsinə salmaz. Təkcə ona görə deyildi ki, "Göy üzü daş saxlamaz". Bu misranı yazan şair də bilir ki, Göy üzü daşla doludur. Yerin sevgisinin gedib çatmadığı Göy nahiyələrində nə qədər istəsən daş var. Yerin cazibəsi öz daşına olan Sevginin gücüdür. Sevgi - qoruyucu, əzizləyici gücdür. Amma, bax, keçən əsrdə Avropanı nifrətin gücü iki dəfə Cəhənnəmə çevirdi, amma Sevginin gücü yenə üstün gəldi - Cənnət yaratdı. Hirosimaya, Naqasakiyə atom bombasını atan nifrətin hikkəsi idi, ancaq bugünkü Yaponiya sevginin meyvəsidir, elə deyilmi?! İnsan - Sevgiyə inananda insandır, sevgisizliyə tapınanda vəhşidən fərqi qalmır.

Bəlkə də cavabdan uzaqlaşdım. Sevginin cazibəsinə düşəndə, hər bir başqa güc gücsüz qalır qarşında.

**- Bahəddin bəy, "Ştaynhof klinikası" barədə məlumat verərdiniz oxuculara.**

**B.H:** Elfreda Yelinekun "Pianoçu qız" romanındakı "Ştaynhof klinikası" Aşağı Avstriyada yerləşir. Bu klinika yaxınlıqda yaşayan hamının ağlını itirməsində maraqlıdır. Axı ağlını itirmiş adamların müalicəsindən bu klinika pul qazanır. Romanın sonlarına doğru görürük bir oğlanın ağlını başından almaq üçün əlindən gələn hər şeyi edən pianoçu qız axırda özü "yaratdığı" ağılsızın zorakılığının qurbanı olur. Biz cəmiyyətin dərin düşüncə mühərrikini söndürsək, intellekt gücünü öldürsək, ağlını başından alsaq, özümüz bir gün öz yaratdığımız monstrın əlində qalacağıq. Artıq əlamətləri var. Biz vaxtilə Qərbin kütləvi mədəniyyət fenomenindən qorxurduq, indi daha pisi gəldi - kütləvi mədəniyyətsizlik sindromu.

Pərvanə xanım, hərdən mənə elə gəlir, çox qəliz sularda üzürük. Sualtı qayalara çırpılmaq qorxusu var. Bəlkə də çox adam oxuyanda anlamayacaqlar.

**- Haqlısınız. Mən də üzə bilmədiyim üçün, boğulmaq riskim daha çoxdur. Sahillə irəliləsək yaxşıdır.**

**Öz sözünüzlə desək, "qəhrəmancasına dəlilik" etmisiniz?**

**B.H:** Qəhrəmanlıq etmədiyim üçün bunu deyə bilməyəcəm. Çünki bilmirəm. Mən müharibə müxbiri olmuşam, amma buna işimin bir parçası kimi baxmışam. Müharibənin "şəklini" çəkmişəm. Bircə onu bilirəm ki, öz torpağında gedən savaşın "rəssamı" olmaq çox ağırdı, çox ağır...

**- Təvazökarlıq edirsiniz. Elə "təvazökarlıq" demişkən, insan hansı məqamlarda təvazökar olmalı və ya olmamalıdır?**

**B.H:** Təvazökar deyiləm. Çünki təvazökar adam yoxdur. Fokl orumuzda da bunun kodu var: "Heç kimsə ayranına turş deməz". Bu anlayışları, ümumiyyətlə, nəsə yaxına buraxa bilmirəm. Həm də çox kələ-kötür sözlərdir e bunlar, Pərvanə xanım. Təvazökar, qeyri-təvazökar. Elə bil asfaltdan çıxıb, daşlı, kəsəkli yolla gedirsən. Mənə görə dürüst insan var, bir də dürüst olmayan. İnsan özünə qarşı, özgəyə qarşı dürüst olanda həmin o Siz verdiyiniz sualın əlində əsir-yesir qalmayacaq. Başına-gözünə döyməyəcək ki: "Ay aman görəsən təvazökaram, ya yox?!" Artıq qayğılardır axı bunlar. Min dənə iş-güc, dərdimiz-odumuz var. Bu cür suallara niyə boş yerə vaxt itirməliyik?! Bir iş əlindən gəlir, de, əlindən gəlmir, de, alayarımçıq bacarırsan, onu da de. Vəssəlam. Bitdi, getdi. Məsələn, mən yazı yaza bilirəm. Başqa bir şey də bacarmıram. Seyran Səxavət dediyi kimi, heç maşın sürməyi də "bilmirəm".

**- İnanmaq istədiyiniz adamları tez-tez sınayırsınız?**

**B.H:** Yox. Mən kimsəni sınamıram. Sadəcə, müşahidə edirəm, sakitcə nəticə çıxarıram. Deyə bilmərəm, həmişə düz nəticə çıxarıram. İstənilən halda oyun oynamağı xoşlamıram, istəmirəm. Bacarmıram da.

**- Çaplinin dediyi kimi, leysan yağış altında gəzdiyiniz vaxlar olubmu?**

**B.H:** Göz yaşlarımı gizlətmək üçün?

**- Bəli.**

**B. H:** Vallah Bakıya yağış yağanda şəhəri su basır. Göz yaşlarımız da sel olub axır.

Doğrusu, bizdə göz yaşını gizlətmək də olmur. Bizə güclü olmağın yox, güclü görünməyin yollarını öyrədiblər. Ancaq insanıq, bir gün güclü olarıq, bir gün zəif. Bir gün xoşbəxt olarıq, bir gün bədbəxt. Bildim: mənim "Bədbəxtlik indeksi..." essemdən sual verirsiniz. Özünü davamlı olaraq bədbəxt sayan, ancaq İnstagramda xoşbəxt görünməyə can atan insanların cəmiyyətiyik. Bizi necə olmaq yox, necə görünmək narahat edir. Necə yaxşı yaşamaq yox, necə yaxşı yaşayırmış kimi görünmək. Bəlkə də hamıdan daha yaxşı... "sürünmək". O essemdə yazmışdım: şəhərdə gəzirsən, bilmirsən kim kimdir? Hamı cərrahi əməliyyatla özünü dəyişməyə çalışlb. Dəhşət içində bu nəticəyə gəlmişdim: özü ilə, üzü ilə barışıq olmayan, gör, sənə nə edər! Biz süni intellektlə işləməyə heç belə can atmırıq, süni zahiri effektə can atırıq. Bir mərasimə, məclisə, şənliyə-filan dəvət alanda, çox vaxt eləcə deyirik: "Gedim, heç olmasa, görünüm". Mən kimisə görüm, ünsiyyət, tanışlıqlar, bəlkə gələcək dostluqlar qurum" yox, görünüm. Sadəcə, görünmək üçün vaxt, enerji, pul, bəzən lap əsəb xərcləyirik. Görünürük. Çoxumuz məscidə də Allaha görünmək üçün gedirik. Ya da ən azı camaata görünmək üçün. Desinlər, filankəs də Allahın yoluna gəlib. Day demirlər: " Filankəs öz yolundan elə çıxmayıb ki..."

**- Görünmək istəyi və ya görünməmək qorxusu niyə bizi bu qədər narahat edir ki?**

**B.H:** Bizdə "daim üzdə olmaq" ehtiyacı var. Bir nəfər bu günlərdə mənə birbaşa sual verdi: "Niyə üzdə deyilsiniz?" Dedim: "Dənizə baxın: üzdə nə var, dərində nə var?!" Dəniz demişkən, fikir verirsiniz: dəniz sahilində yaşayan millətik, hələ də dənizin dilini öyrənə bilmirik. Üzməyi öyrənmirik. Bilirsiniz, niyə?!

**- Sizcə, niyə?**

**B.H:** Siz deyin...

(ardı 11-ci səhifədə)



Murad KÖHNƏQALA

# Aqil Abbasın bədii simfoniyası: "Rəmiş"

**Əziz dostum, sevimli yazıçımız Aqil Abbasın "Rəmiş" povestini oxuyarkən gənclik illərim gözümün qabağına gəlirdi: o illərin maqnitofonunda Rəmiş gitarada "ağladır", biz də - bir dəstə dost ağacın kölgəsində oturub onu dinləyirik. İndi isə Aqilin qələminin ifasında Rəmişin sehrli gitarasını yenidən dinlədim və sanki "Rəmiş" filminə baxdım...**

Əsəri oxuduqca mənə məlum olurdu ki, müəllifin məqsədi məşhur gitara ustasının həyatını xronoloji ardıcıllıqla nəql etmək yox, özünün bədii-mifik Rəmişini yaratmaqdır. Odur ki, əsərin maraq doğuran məqamları gitara ifaçısının real həyatı deyil, onun əfsanəvi həyatından yaranmış mif, magik əhvalatlar və müasir "hədis"lərdir.

Əsər başlayan kimi bilirsən ki, Aqilin qəhrəmanı real Rəmiş yox, əfsanəvi Rəmiş olacaq. Povestin girişində mələklərin görünməsi, ölümün metafizik çalarlarla təsviri, ürəyin bədəndən ayrılması kimi səhnələr bizi real həyatın sərhədlərindən kənara çıxarır. Bilirsən ki, Aqil bu əsərlə real bioqrafiya yazmır, mifik obraz yaradır. Odur ki, əsərin əsas qəhrəmanı Rəmiş real həyatın içindən sıyrılıb çıxaraq epos məkanın sakininə çevrilir. Əsərin bu xüsusiyyətini milli bioqrafik nəsrimizdə novator hadisə kimi qiymətləndirə bilərik.

Adətən roman-povest müəllifləri hadisələri doğumdan ölümə qədər, ardıcıl şəkildə nəql etməyə üstünlük verirlər. Aqil Abbas isə bu əsərində tamam başqa istiqamət seçir. O, real hadisələrdən, olaylardan daha çox qəhrəmanın iç dünyasını açıb göstərməyə çalışır. Beləcə, oxucu Rəmişi tanımamışdan əvvəl müəllifin onun haqda yaratdığı "mərd oğlan" ab-havasının içinə düşür. Müəllif öz qəhrəmanını ətraflı tanıtdığına görə əsəri bioqrafik povestdən daha çox mini-roman saymaq olar.

Rəmiş haqqında danışılan maraqlı söhbətlər, onun qeyri-adi həyat tərzi və sınırsız xarakteri gitaristi hələ sağlığında əfsanəyə çevirib. Bütün bunlara görə onun haqda maraqlı nəsə yazmaq, fanatlarına yeni söz demək, əlbəttə, çox çətindir. Çünki yazıçı ya qəhrəmanının ətrafında formalaşan həmin mifi dağıtmalı, ya da onun haqda yayılmış əfsanələrin əsirinə çevrilməlidir.

Lakin Aqil Abbas bu povestdə azacıq yan yolu seçir. O, mövcud Rəmiş mifini dağıtmır, əksinə, yaddaşlarda gəzən həmin mifdən bədii material kimi istifadə edir.

Rəmiş əsərdə yalnız istedadlı bir musiqiçi kimi yox, eyni zamanda azad sənətin simvolu kimi təzahür edir. Əsərdə biz Rəmişi yalnız taleyin əzizlədiyi azman sənətkar kimi deyil, eyni zamanda həyatın amansızcasına sınağa çəkdiyi bir insan kimi də görürük.

Bir daha vurğulamaq istəyirəm ki, "Rəmiş" povesti ənənəvi bioqrafik nəsrin çərçivələrinə sığmır. Əsər tarixi gerçəkliklə müəllif təxəyyülünün vəhdətindən yaranan mürəkkəb mətn strukturu kimi çıxış edir. Məhz bu xüsusiyyət onu sıravi həyat hekayətindən fərqləndirərək postmodern düşüncə estetikasına yaxınlaşdırır.

Əsərdə müəllif hadisələrin özündən çox, əhvalatların yaratdığı atmosferdən yazıb. Yəni, oxucuya faktlardan da maraqlı gələn duyğular ötürülür: o dövrün ab-havası, bir sənət haləsinin ətrafında dolaşan hisslər, əyarı duyğularla ölçülən cazibə...

Maraqlı məqamlardan biri də budur ki, Rəmişin sevimli dostu olan Aqil Abbas əsərdə xüsusi olaraq, öz obrazını oxucuya nümayiş etdirməyə çalışmır. Odur ki, əsər dost haqda yazılmış tərifnamə yox, öz dostunun real və mifik dünyasından danışan adamın təhkiyəsi üstündədir. Elə bu üsluba görə mən Aqil Abbasın "Rəmiş" povestini "şifahi dilin nəsri" adlandırardım.

Azərbaycan nəsrində bəzən müəlliflər yeni "ədəbi dil" yaratmaq naminə mətni süni pafosla yükləyirlər. "Rəmiş"də isə belə deyil. Bu əsər bir yazıçının (povestdə simvolik olaraq şairin) öz dostuna sevgidən yaranmış mifə, nağıla bənzəyir.

Əsərin dilini sadə bir bənzətmə ilə ifadə etmək istəsəm, deyərdim ki, bu dil sakit axan bir kənd çayıdır. Bu dil lazım olanda poetikləşir, ancaq heç vaxt özünü ön plana çıxarmağa çalışmır. Odur ki, ən adi oxucu belə, bu təbii, sadə cümlələrin yaratdığı mistik dünyaya girə bilir...

Diqqət çəkən başqa bir məqam da obrazların təqdim olunma üsuludur. Aqil Abbas personajları uzunuzadı xarakterizə etmir. Onların kim olduğunu izah etməyə çalışmır. Əvəzində bir baxış, bir replika, bəzən də adi görünən kiçik detal həmin adam haqqında uzun təsvirlərdən daha çox şey deyir. Bu metod nəsrdə ən çətin üsullardan biridir. Çünki oxucuya "bu adam belədir" demək asandır, ancaq bunu oxucunun özünün hiss etməsinə şərait yaratmaq yazıçıdan ustalıq tələb edir. Povestdə müəllifin bu cür priyomlarına tez-tez rast gəlirik. Burada personajlar müəllifin izahı ilə yox, öz davranışları ilə yadda qalır. Məsələn, əsərdə Əmir Teymur məclisində Qədir Rüstəmovun peyda olması və onun səsinin xilaskar qüvvə obrazı kimi verilməsi dediyimizə bir sübutdur.

Adətən, bioqrafik əsərlərdə müəllifin ən çox yol verdiyi səhvlərdən biri oxucunun hisslərini idarə etməyə çalışmasıdır. Bəzən qəhrəmanın taleyi elə təqdim olunur ki, oxucunun yalnız bir cür reaksiya verməsi gözlənilir: mütləq yazığı gəlməli, mütləq heyran olmalı, mütləq təsirlənməlidir. Aqil Abbas "Rəmiş"də bu yoldan imtina edir. O, Rəmişin taleyini müxtəlif rənglərdə göstərməyə çalışır, oxucunun əvəzinə hökm verməkdən uzaq dayanır.

Gələk povestdə istifadə edilmiş simvolik elementlərə: gitara, yol, külək, gecə, işıq, ölüm, sükut... Bunlar əsərdə sadəcə, gözəl, bəzəkli görünmək üçün işlədilmiş detallar deyil, bunların hər biri Rəmiş obrazının daxili aləminə açılan qapılardır. Yəni, əsərdə verilən hər bir simvol Rəmiş könlünə giriş üçün bir qapı rolunu oynayır.




Povestin kompozisiyası haqqında düşünəndə bir məqam xüsusilə diqqəti çəkir: Aqil Abbas klassik bioqrafik sxemi izləməyə çalışmır. Hadisələr sərt xronoloji ardıcıllıqla düzülmür. Mətn yalnız yaddaşın hərəkətinə uyğun inkişaf edir. Diqqət etsək, görərik ki, hər bir insan öz keçmişini elə bu cür xatırlayır. Bir xatirə digərini səsləyir, xatirə xatirəni çəkib uzadır və illərlə uzaqda qalmış səhnələr yaddaşımızda canlanır. "Rəmiş" povesti də dediyimiz həmin daxili ritmlə qurulub.

Deyim ki, yaxşı əsər oxunub unudula bilər, lakin yaxşı, canlı, rəngli yaradılmış bədii obraz illərlə oxucunun yaddaşında yaşayır. Bu mənada Aqilin Rəmişi unudulmazdır. Oxucu kitabı bağlayıb gözlərini yumur, lakin oxuduğu əsərin qəhrəmanının səsi, davranışları, taleyi onun düşüncəsində yaşamağa davam edir.

Əsəri gözəlləşdirən elementlərdən biri də dialoqların təbiiliyidir. Maraqlıdır ki, bu əsərdəki dialoqlar yazılı ədəbiyyat təsiri bağışlamır. Adama elə gəlir, müəllif onları uydurmayıb, sadəcə eşidib və olduğu kimi kağıza köçürüb. Əlbəttə, yarada bildiyi bu illüziyanı da yazıçının usta qələminin üstünə gəlirəm.

Yazıçının bir başqa xüsusiyyəti isə onun mikroskopik müşahidə qabiliyyətidir. Əlbəttə, bədii ədəbiyyatda böyük xarakterlər çox vaxt böyük hadisələrlə yox, kiçik detallar vasitəsilə də ötürülə bilir. Aqil Abbas bir yazıçı kimi bu priyomları yaxşı bacarır. Bir baxış, bir ifadə, adi görünən bir hərəkət bəzən uzun psixoloji izahlardan daha təsirli olur. Belə ki, hadisəyə xarakterik detalları seçmək bacarığı, necə deyərlər, hayku hissiyyatı Aqilin nəsrində həmişə hiss olunur.

"Rəmiş" povestində mənim diqqətimi çəkən başlıca bir məqam da var: mətndə müəllifin öz varlığını geri çəkmə təmənnasızlığı! O, hadisələrə öz münasibətini gizlətmir, eyni zamanda oxucunun yerinə qərar da vermir. Yəni, müəllifin səsi hər yanda eşidilir, lakin bu səs personajların səsini üstələmir. Təbii ki, bədii yaradıcılıqda bu cür tarazlığı qorumaq heç də hər yazara nəsib olmur. Fikrimcə, Aqil Abbasın məqsədi bioqrafik əsər yaratmaq yox, insan yaddaşının yaradıcılığını yazmaq olub. Bədii yaddaş isə heç vaxt hadisələri olduğu kimi saxlamır, onları zamanın, hisslərin və xatirələrin içindən keçiribən, öz əlavələrini edərək yenidən yaradır. Elə buna görə də əsərin bəzi məqamlarında real Rəmiş və onun haqqında formalaşmış mif bir-birinə qarışır.

**Əsəri oxuyub bitirdikdən sonra deyə bilərəm ki, Aqil Abbasın "Rəmiş"i ilə mənim tanıdığım Rəmişin arasında müəyyən fərqlər olsa da, mifik bağlılıq da var. Mənim Rəmişim qədim maqnitofondan səslənən, kasıb toylarında pulsuz çalan, uzun saçlı, çiynində meymun gəzdirən (bir taksistin mənə danışdığı kimi), bəzən corabının dabanı sökülmüş Rəmişdi. Aqilin Rəmişi isə Əmir Teymura meydan oxuyur, "şeytan" ləqəbli Paqaninini heyrətləndirir, Yanıq Kərəmin alovunu söndürür, mələklərlə uçur. Odur ki, əlbəttə, Aqilin yaratdığı Rəmiş mənim yaddaşımdakı Rəmişi "döyər".**

**/Ədəbiyyatqəzeti/**

**(əvvəli 10-cu səhifədə)**

# "Bütün arzuların çin olmaq haqqı yoxdur"

**- Batmaqdan qorxuruq, biraz da tənbəlik, özümüzə əziyyət vermək istəmirik.**

**B.H:** O öz yerində. Dənizin dilini öyrənmədiyimiz üçün yay başlayandan bəri 3-5 gündən bir kimsə batır. Biz, ümumiyyətlə, dərindən qorxuruq. İstər dəniz olsun, istər elm olsun, istər yaradıcılıq - heç birində dərinə getmirik. Nəsə bir problem olanda da dərinə gedib, kökünə enmirik. Daim nəticə ilə savaşırıq, səbəblə yox. Fəlsəfi mətnləri niyə az oxuyuruq, lağlağını çox?! Çünki fəlsəfi mətnlər dərindir axı. Üzgüçülük kursuna da getməkdən qorxuruq. İrrasional qorxudur, amma qorxudur bu. Düşünürük, üzməyi öyrənsək, sahildən çox uzağa gedəcəyik və... batacağıq. Ali məktəbə də çoxumuz elə diplom üçün getmişik. Bizdə üzdən getmək xəstəliyi var. Bir də, dediyim kimi, həmişə "üzdə olmaq" ehtiyacı. İstəyirik, hamı bizi tanısın, küçədə barmaqla göstərsinlər, desinlər: "Bir bax, filankəs gəlir..." Əslində bu fantom məşhurluq insana heç nə qazandırmır. "Fotogenom"da geniş yazmışam.

**- Ölüm qorxuludur ya həyat?**

**B.H:** Həyat daha qorxuludur. Bununla bağlı Kamyü, başqaları da yazıb. Ancaq belə bir fikir geniş yayılıb: "Mən ölümdən qorxuram, amma həyatdan daha çox qorxuram". Səhv etmirəmsə, Zolyadan oxumuşam. Mən "Həyat və ölüm dərsləri" adlı essemdə bu suala əslində geniş cavab vermişəm. Həmin essedə belə bir hissə var: "Bəs birdən "Gertsman sindromu"na uduzsam?!

Bax, bu, nəinki pensiyaya çıxmaq, tamam sıradan çıxmaq demək olardı. Bu, ölümün özündən də qorxuludur; həmin gün mənim üçün Həyatın çox erkən və daha əzablı sonu deməkdir. Bundan da daha qorxulusu romanda xatırlanan prozopaqnoziya kimi nevroloji pozğunluğa uğramaqdır. Bu xəstəliyə tutulan təkcə başqasının deyil, elə özünün də sifətini unudur. Bu, bir anlamda sifəti itirməyin kliniki adı olsa gərək. Əgər çox dramatikləşdirmədimsə. Hərçənd həyat onsuz da dramatikdir. Həm də ölümcül dərəcədə..."

"Gertsman sindromu" yəqin bilirsiniz nədir. Yazı yazmaq qabiliyyətini tam və ya qismən itirmək. Yazıçı üçün bu sindromla yaşamaq yaxşıdır, ya ölüm? Əlbəttə, ölüm. Mən oxucunun yerinə olsaydım, Pol Kalanitinin "Hava nəfəsə qarışanda" romanını yerin altından da olsa, tapıb oxuyardım. Amma yeri qazmaq lazım deyil, "Qanun" nəşriyyatı buraxıb, orda var.

"Həyat və ölüm dərsləri" essemi bu roman haqqında - bu əsərin üzərindən yazmışam. Peşəkar və fədakar həkimlərə həsr edərək...

**- Arzularınız çox çin çıxıb, yoxsa qorxularınız?**

**B.H:** Bunu məşhur yazıçı deyib: "Arzularınızla ehtiyatlı olun: onların çin çıxmaq kimi bir xasiyyəti var". Amma mənim arzularımın xasiyyəti, deyəsən, bir az tündməcaz, bir az da dəyişkəndir. Jurnalist olmaq istədim, bir az oldum, yazıçı olmaq istədim, lap az oldum. Ancaq elə arzular var, arzu olaraq qaldı. Yazıçı niyə "ehtiyatlı olun" deyir?! Çünki Lenin bir yeni, daha yaxşı quruluş arzuladı, arzusu çox pis çin oldu - sonu qanlı diktatura ilə bitdi. Hitler Almaniyanı dünyanın ağası kimi görmək arzusundaydı, arzusu ürəyində qaldı, on milyonlarla insan həyatını itirdi. Almaniya ən azı əlli il geri düşdü. Bu cür arzular da var. Çin olan, çin olmayan. Yəni bütün arzuların çin olmaq haqqı və ya şansı yoxdur...

**- "İnsan körpəlikdə aldığı heç bir travmanı həyata borclu qalmaq istəmir."- yazmısınız. Bəs Siz həyata nəyi borclu qalmaq istəmirsiniz?**

**B.H:** Əksinə həyat mənə borcludur. Məndən aldığı doğmalarımı. Bir də tarixin qasırğalarında itirdiyim cavan illərimi. Mənim də aldığım yaralar var. Ancaq o yaraların hesabını başqalarına ödətdirmək istəyəcək qədər zəif və aqressiv yetişmədim. Aleks Mixaelidesin personajı isə öz travmalarına yenilmişdi. Bələləri həyatda var: uşaqlıqda almadığı sevgini başqalarına da qısqanır. Körpələrə və uşaqlara sevgi vermək gərəkdir. Nə versən, bir gün geri dönür.

**- "Süni intellekt dəbə minəndən, təbii intellekt dibə düşüb." - deyirsiniz. Süni intellektin təbii hiss və duyğuları dibə endirməyi kimi bir təhlükə varmı?**

**B.H:** Sosial şəbəkə platformaları da həyatımıza daxil olanda qorxularımız var idi. İndi o qorxular gerçəyə çevrildi. Əlbəttə, çox üstünlükləri də var. Süni intellektin lap çox. Ancaq məni narahat edən həmişə bir nüans var: süni intellekt bir çox sənətləri əlimizdən alır. Alsın. Ancaq axı bizim adil və güclü sosial müdafiə sistemimiz yoxdur. Kütləvi işsizlik yaransa, necə olacaq? Uşaqpulu ala bilmədiyimiz yerdə kimdir işsizlərə "böyükpulu" verən?! Süni intellekt emosional intellekti hara, haraya qədər sıxışdıracaq və hansı küncə sıxacaq?! Cəmiyyətdə əlavə gərginlik xətləri, təzə çatlar yaranmayacaq ki? Bunlar süni intellektlə bağlı təbii narahatlıqlardır. Yoxsa biz (haşa!) texnologiya düşməni deyilik.

**- Bəlkə də elə" böyükpulu"muz uşaqpulu miqdarında olduğu üçün uşaqpulunu da ala bilmirik.**

**BH:** Nə bilim...

**- Texnologiya inkişaf etdikcə nədə irəli gedib, nədə geri getmişik?**

**B.H:** Baxır, nədə irəli getmişik, nədə geriləmişik. Bəzən görürsən, nə irəliləmişik, nə geri getmişik. Bu, daha qorxulu vəziyyətdir.

**-50 yaş kamil insan ömrüdürmü? Və ya 50 yaşını keçən hər insan kamil ola bilirmi?**

**B.H:** Zaman -yaşanan illər kamilləşmək üçün şansdır. Ancaq bu, heç də o demək deyil ki, 50 yaşa çatan hər kəs kamilləşir. Xeyr. Kamilləşmədə çox faktor rol oynayır. Zaman bu faktorlar arasında bəlkə də ən axırıncılardandır. İnsanın aldığı tərbiyə, təhsil, böyüdüyü mühit, özünə formalaşdırdığı çevrə, mütaliəsi, dünyagörüşü, düşüb çıxdığı situasiyalar - həyatdan aldığı dərslər və sair və ilaxır burada əsas faktorlardır. Ümumiyyətlə, insanın həyatına, xarakterinə təsir edən amillər sonsuz saydadır.

**- Sükutla dialoq quranda söhbətə kim birinci başlayır və nə deyir?**

**B.H:** Sükutla dialoq mövzudan və situasiyadan asılıdır. İnsan bəzən susaraq danışır, bəzən danışa-danışa susur. Qədim yapon fəlsəfəsində var: susmaq - heç nə deməmək deyil, həqiqəti deməməkdir. Bir narrativ isə bizə "pıçıldayır": elə həqiqətlər var, söyləmək üçün deyil.

**- Bahəddin Həzi oxuculardan nə gözləyir və nə istəyir?**

**B.H:** - Oxuculardan gözləntim: imkan tapan kimi oxusunlar. Texnologiya sürətlə irəli sığıyır, kitab sanki artefakta çevrilir, elə bil həyatımızdan çıxır. Jan Bodriyar deyirdi: "Artıq getdikcə daha çox informasiyanın, daha az mənanın olduğu dünyada yaşayırıq". Bu postulat doğrudursa, deməli, Dünya getdikcə informativləşir və mənasızlaşır. Ancaq bu, uzun müddət davam edə bilməz ki. İnsanlar nə zamansa yenə mənaya, mahiyyətə, narrativə qayıdacaq.

Oxuculardan istədiyim odur ki, bu çətin zamanda hakimə və həkimə işləri düşməsin. Hə, bir də nə vaxtsa oxucularıma bir sual verəcəm...

**-Bəlkə o "nə vaxtsa" elə indidir?**

**B.H:** Yox, o "nə vaxtsa"nın öz vaxtı var.

**- Söylənməyən həqiqətin və nə vaxtsa verəcəyiniz sualın intizarı ilə yekunlaşan müsahibəmizə, maraqlı və maraqla verdiyiniz cavablar üçün təşəkkür edirəm, Bahəddin bəy.**

**B.H:** Siz sağ olun.

**Pərvanə Eyvazqızı**



*Aysel KƏRİM*
*Azərbaycan Bəstəkarlar İttifaqının mətbuat katibi*

# Milli Mətbuatımız 151 İllik İşıqlı Yolda

**Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin 1875-ci il iyulun 22-də əsasını qoyduğu "Əkinçi" qəzeti sadəcə bir informasiya daşıyıcısı deyil, həm də xalqın özünüdərk, maarifçilik və milli azadlıq məfkurəsinin manifesti idi. Bu gün 151 illik şərəfli və zəngin bir tarixi geridə qoyan Azərbaycan mətbuatı, ölkəmizin ictimai-siyasi və mədəni intibahının ən etibarlı güzgüsü olmaq missiyasını uğurla davam etdirir. Müasir dövrdə informasiya məkanının dinamik inkişafı, jurnalistikadan təkcə operativlik yox, həm də dərin analitik təfəkkür, yüksək bədii zövq və milli dəyərlərə sarsılmaz sadiqlik tələb edir.**

**Mətbuat sadəcə informasiya ötürücüsü deyil. O, sözün qüdrəti, musiqinin harmoniyası və ədəbiyyatın fəlsəfəsidir. Bir yazıçı kimi sözün cümlədəki çəkisinə, bir musiqişünas kimi cümlələrin daxili nəbzinə və nəhayət, bir jurnalist kimi faktın obyektivliyinə eyni anda bələd olmaq, bu sahəyə daha geniş prizmadan baxmağa imkan verir. Yazıçılar Birliyinin, Jurnalistlər Birliyinin və Bəstəkarlar İttifaqının üzvü olan bir qələm adamı kimi tam məsuliyyətlə deyə bilərəm ki, müasir Azərbaycan mətbuatı ən dinamik inkişaf dövrlərindən birini yaşayır. Çünki mətbuat elə bir orkestrdir ki, burada hər bir xəbər düzgün notlar üzərində qurulmalı və ədəbi dilin ən saf forması ilə cəmiyyətə təqdim olunmalıdır.**

**Keçən bu dövr ərzində Azərbaycan mətbuatı zəngin və şərəfli inkişaf yolu keçmiş, ictimai fikrin formalaşmasında, milli şüurun oyanmasında əvəzsiz rol oynamışdır. Mətbuat, öz mahiyyəti etibarilə, cəmiyyətin intellektual potensialını birləşdirən bir platformadır. Təsadüfi deyil ki, tariximizin ən parlaq dövrlərində mətbuat fəaliyyəti hər zaman ədəbiyyatla və incəsənətlə paralel inkişaf etmiş, bir-birini qidalandırmışdır. Bu kontekstdə, milli mədəniyyətimizin və ictimai fikrimizin üç əsas sütunu - Yazıçılar Birliyi, Jurnalistlər Birliyi və Bəstəkarlar İttifaqı mahiyyət etibarilə eyni ali məqsədə: xalqın mənəvi ucalığına və milli dəyərlərin qorunmasına xidmət edir.**

**Jurnalistika həm də bədii təfəkkürün, publisist qələmin gücündən bəhrələnir. Sözün obrazlılığı və intellektual çəkisi publisistikanı sadəcə xəbər olmaqdan çıxarıb tarixin yaddaş salnaməsinə çevirir. Lakin bu vəhdət yalnız sözlə bitmir. İctimai fikrin formalaşmasında və mənəviyyatın zənginləşməsində musiqinin rolu əvəzsizdir. Bəstəkarlar İttifaqının yaradıcı mühiti insana zamanın və məkanın fövqündə duran bir harmoniya duyğusu aşılayır. Musiqi -sözün bitdiyi yerdə başlayan ən ali dildir. Üzeyir bəy Hacıbəyli fenomeni bu sintezin ən parlaq tarixi nümunəsidir. O, həm dahi bəstəkar, musiqi mədəniyyətimizin banisi, həm qüdrətli dramaturq-yazıçı, həm də dövrünün ən kəsərli publisisti, mətbuat xadimi idi. Üzeyir bəy məktəbinin ənənələri bu gün də yaşayır və sübut edir ki, mədəniyyət və mətbuat bir-birindən ayrıla bilməyən vahid bir orqanizmdir.**

**Bu gün müstəqil Azərbaycan mətbuatı həm də ölkəmizin beynəlxalq müstəvidə mədəni diplomatiyasının, multikultural dəyərlərinin və haqq səsini dünyaya çatdıran ən kəsərli silahdır. Professional mətbuat fəaliyyəti təkcə gündəlik xəbər istehsalı deyil, həm də xalqımızın zəngin mədəni irsini, musiqi və ədəbiyyat tarixini beynəlxalq arenada layiqincə təbliğ etmək missiyasıdır.**

**Bu inkişafın və intibahın arxasında isə heç şübhəsiz ki, güclü dövlət iradəsi və davamlı dəstək dayanır. Bu dəstək mətbuatımızın müstəqil, qərəzsiz və beynəlxalq standartlara cavab verən bir təsisat kimi formalaşmasını sürətləndirir.**

**Mətbuat Günü, sadəcə bir peşə bayramı deyil, eyni zamanda milli təfəkkürün, və yaradıcı ruhun zəfəridir. Fərqli yaradıcılıq ittifaqlarının prinsiplərini bir amala xidmət etdirmək -dövlətçiliyimizin, milli mədəniyyətimizin və mənəvi intibahımızın sabahına atılan mühüm addımıdır.**

**151 illik ulu bir çinarın kölgəsində böyümək və onun işıqlı yolunun son 18 ilinə qələmlə şahidlik etmək... Hələ 15 yaşımda heyranlıqla başladığım bu dövri mətbuat səyahəti, bu gün 33 yaşımda mənim üçün artıq bir həyat tərzinə, ömrün yarıdan çoxunu əhatə edən kəsintisiz bir xidmət missiyasına çevrilmişdir. Bu işıqlı yolda eyni inam və sadiqliklə addımlamaq peşəkar qürurumdur. Bu keçən illər ərzində qələmimin toxunduğu hər sətir, milli mətbuatımızın işıqlı ənənələrinə sadiqliyin və bu böyük irsə kiçik də olsa bir töhfə vermək amalının ifadəsidir.**

**Bu işıqlı yol sadəcə keçmişin ayaq izləri deyil; o, zamanın özünü belə addım-addım dirildən elə bir canlı ruhdur ki, tarixin ən dərin sükutu belə bu gün toxunduğumuz hər sətirdə yenidən nəfəs almağa başlayır. Unutmaq olmaz ki, zamanın heç bir tufanı bu yoldan keçən sözün gücünü silə bilmədi; çünki bu sətirlər sadəcə anı qeyd etmir, gələcəyin yaddaşına elə köçürülür ki, qoyulan hər son nöqtə bir sonluq deyil, əbədiyyətin ilk sədasına çevrilir.**

**Media nümayəndələrinə göstərilən dövlət qayğısına görə möhtərəm Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya sonsuz təşəkkürümü ifadə edirəm. Ölkəmizin tərəqqisinə xidmət edən YAP-ın gənc üzvlərindən biri kimi milli dəyərlərimizin qorunması yolunda bundan sonra da əzmlə çalışacağam. Milli Mətbuat Günümüz mübarək olsun!**

**(əvvəli 9-cu səhifədə)**

Mən, bu gün, öz arxivimə baxış edərkən arxaya, 34-il geriyə dönüş edib FÜZULİ ƏRAZİ ÖZÜNÜMÜDAFİƏ TABORUNUN orqanı olan hərbi qəzeti gördüm. Üstündən illər və on illər keçib, qəzetin vərəqləri saralıb, köhnəlib. Ancaq özündə daşıdığı yazılar canlı tarixə çevrilib. O, tarix ki, bizi gələcəyə, zəfərlərə, qələbələrə və qəhrəmanlıq salnaməsinə aparır.

Bu gün, yüzlərlə keçmiş döyüşçünün arxivində rəngi saralmış olan bu tarixi qəzet parçaları gələcəkdə hansısa tarixi araşdırmaçının təhqiqat materiallarına çevriləcək. Çünki, bu qəzet zamanında qanlı səngərlərdə düşmənə qarşı mübarizə aparan qəhrəman oğulların canıl olaraq səsini eşidib, cəsarət çöhrəsindən rəng alıb, onların şəhid olmuş arzularını dinləyib, torpağa güc verən qanından öpüb. Bax əsil canlı tarix budur. Dünənin qəzeti, bu günün əfsanəsi və canlı tarixi.


ВӘТӘН ТӘҺЛҮКӘДӘДИР
СИЗИНЛӘ ФӘХР ЕДИРИК
Тәки Вәтән јашасын

Ölkəmizin hər yerində olduğu kimi Naxçıva Muxtar Respublikasında da mətbuat və jurnalistika hər zaman peşəkarlığı ilə seçilmişdi. Ölkəmizə qarşı yönəldilmiş yanlış məlumatların qarşısının alınmasında hər zaman prinsipiallıq göstərmişdi. 2014-cü ilin oktyabr ayında Naxçıvan Ali Məclisinin gündəlik ictimai - siyasi qəzeti " ŞƏRQ QAPISI " nın və " ƏCƏMİ " nəşriyyat poliqrafiya birliyinin köməyi və dəstəyilə Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun orqanı olan " ÜMUMQOŞUN ORDUSU " hərbi qəzeti nəşrinə nail olduq. Hazırda həmin qəzetin nüsxələri M.S. Ordubadi adına Naxçıvan Dövlət kitabxanasında saxlanılır.

2020-ci ilin setyabrnda Qədim Qarabağın işğalda olan ərazilərinin tarixi ədalət və beynəlxalq hüquq normaları çərçivəsində düşməndən azad olunması uğrunda 44 gün ərzində aparılmış ədalətli Vətən müharibəsində 19 sentyabr 2023-cü ildə QARABAĞDAN seperatçı - fitnəkar qüvvələrin 23 saat ərzində təmizlənməsində, Müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyünün, suverenliyinin bərpa olunmasında Milli Mətbuatın və jurnalistikanın fəaliyyəti Milli Ordumuzun qəhrəmanlıq nümunələrinə bərabərdir.

Milli və hərbi mətbuatın, KİV-nin inkişafında, media nümayəndələrinin böyük əməyi olmuşdur. Onlar bu gün də öz şərəfli peşəsilə sevə - sevə xalqımıza, azad, suveren, müstəqil Azərbaycanımıza vicdanlı Vətəndaş mövqeyilə xidmət edirlər.

13 iyul 2026-,cı il tarixində IV ŞUŞA QLOBAL MEDİA FORMUNDA Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev media nümayəndələri qarşısında çıxışı zamanı ölkəmizə qarşı yönəldilmiş yanlış informasiya və məlumatların qarşısının alınmasında Azərbaycan Milli Mətbuatının yaradıcı peşəkar media əməkdaşlarının əməyini yüksək qiymətləndirmişdi.

22 iyul - Milli Mətbuat günü münasibətilə xalqımızı və bütün yaradıcı insanları təbrik edirik.

**BAYRAMINIZ MÜBARƏK OLSUN!**

# 22 İYUL – MİLLİ MƏTBUAT GÜNÜDÜR!

## *Gecələr niyə tərləyirik? - 5 əsas səbəb*

**Gecələr tərləmə bir çox insanın qarşılaşdığı narahatedici hallardan biridir. Adalet.az xəbər verir ki, mütəxəssislər bildirirlər ki, bu vəziyyət bəzən sadə səbəblərlə əlaqəli olsa da, bəzi hallarda sağlamlıq problemlərinin əlaməti ola bilər.**

Gecə tərləməsinin ən çox rast gəlinən səbəblərindən biri yataq otağının həddindən artıq isti olması və ya qalın yorğanlardan istifadə edilməsidir. Bu zaman orqanizm temperaturu tənzimləmək üçün daha çox tərləyir. Həkimlərin sözlərinə görə, hormonal dəyişikliklər də gecə tərləməsinə səbəb ola bilər. Xüsusilə menopauza dövründə olan qadınlarda bu hal daha tez-tez müşahidə edilir. İnfeksiyalar və yüksək hərarətlə müşayiət olunan xəstəliklər də gecələr güclü tərləmə ilə özünü göstərə bilər. Orqanizm infeksiyaya qarşı mübarizə apardıqda bədən temperaturunda dəyişikliklər baş verir.

Bəzi dərman preparatlarının qəbulu da gecə tərləməsinə yol aça bilər. Xüsusilə antidepressantlar və müəyyən hormonal preparatlar belə təsirlərlə əlaqələndirilir. Stress və narahatlığın da gecə tərləməsinin əsas səbəblərindən biri olduğu bildirilir. Güclü emosional gərginlik yuxu zamanı tərləməni artıra bilər. Həkimlər xəbərdarlıq edirlər ki, gecə tərləməsi uzun müddət davam edərsə və ya digər simptomlarla müşayiət olunarsa, mütləq tibbi müayinədən keçmək lazımdır.

*Əlirza Xələfli*

# Qəlbidəki qəlbin qələbəsi

### *yaxud bizə düşən qismətin ağ yolu*



**Faiq Qismətoğlunun qadası, bəlası getsin 50 il dostluq etdiyim, ancaq axırda çürük olduğunu bildiyim kimsələrin ürəyinə...**

**Vallah Emin Eminbəylinin sözü olmasın, sənFaiqi də mənə dostluq üçün allah göndərib... Yoxsa mənə qalsaydı qəlbimdəki Qismətin yerini kim tutacaqdı allah özü daha yaxşı bilər**



**Nəşriyyatın koridorunda ağzım qızışıb, hündürdən danışanda qəfil görmüşəm gəlir...**

**Utanmağım bəs olmayıb, hələ bir daldalanmaq da istəmişəm.**

**Qələminə, yazı istedadına, sözünün səliqəsinə görə ayrıca bir məktəbdir Faiq Qismətoğlu...**

**Mətbuatla ilgili ictimai təşkilatlar Faiq Qismətoğlu kimi jurnalistlərin müntəxəbatını, sisfemli xronikal dərsliklərini yaratmalıdırlar**

**Ayrılığın və həyat iztirablarının bəxş etdiyi ağrı acılarla savaşa. - savaşa yaradıcılıqdan qalmayasan..**

**Fəal jurnalist həyatında qələmin müəddəs vəzifəsini qoruyasan**

**Vicdana güvəncli olmağın yolu çox işıqlıdır**

**Axı Faiq adının mənası üstün, qəlbidə olan, qalib, fərqli... anlamlarını bildirir**

**Adına sahib çıxmaq, adına uyğun yaşamaq Faiq. Qismətoğlunun birinci qələbəsidir.**

## *Uşağın tək oynaması normaldırmı? - Səhiyyə Nazirliyinin psixoloqu valideynlərə tövsiyə verir*

**"Uşaq tək oynayırsa və oyuncaqlarını paylaşmaq istəmirsə, bu, onun psixoloji inkişafının tamamilə normal mərhələsidir. Belə vəziyyətlərdə uşağı digər uşaqlarla oynamağa və ya oyuncaqlarını paylaşmağa məcbur etmək müsbət nəticə verməyəcək".**

Bu fikirləri Səhiyyə Nazirliyinin rəsmi "Instagram" hesabında keçirilən canlı yayım zamanı nazirliyin Psixi Sağlamlıq Mərkəzinin psixoloqu Elnarə Baxışlı səsləndirib. Psixoloqun sözlərinə görə, adətən üç-dörd yaşına qədər uşaqlar oyuncaqlarını özlərinin bir hissəsi kimi qəbul edirlər. Bu səbəbdən onları zorla əlindən almaq və ya başqa uşağa verməyə məcbur etmək psixoloji travmaya səbəb ola bilər. "Uşaq tək oynayarkən onun şəxsi sərhədləri formalaşır. Bu, daxili "Mən"inin və sosial sərhədlərinin inkişafını göstərən təbii prosesdir. Uşaq öz muxtariyyətini qurur, ona aid olanlarla başqalarına aid olanları ayırd etməyi öyrənir. Bu dövrdə onun özünəməxsus, sirrləri və xəyal dünyası yaranır. Bəzən uşağın tək qalmağa, öz hekayələrini qurmağa və görünməz dostları ilə oynamağa ehtiyacı olur. Öz otağında rahat şəkildə tək oynaya bilməsi ona psixoloji rahatlıq və təhlükəsizlik hissi verir, bu isə gələcəkdə özgüvənin formalaşmasına müsbət təsir göstərir", - deyə Elnarə Baxışlı bildirib.



Mütəxəssis qeyd edib ki, uşaqlar oyun vasitəsilə ətraf aləmi dərk edir və onların qurduğu oyun ssenarilərində mənimsədikləri dünya əks olunur.

"Əgər oyunlar davamlı olaraq eyni ssenari üzrə qurulur, məhdud və ya aqressiv xarakter daşıyırsa, bu, uşağın dünyanı məhz həmin çərçivədə qavradığını göstərə bilər. Daim eyni oyuncaqlarla eyni formada oynamaq uşağın davranış modelinin məhdud olduğunu göstərir. Bununla yanaşı, uşaqlar müxtəlif mühitlərdə fərqli davranış nümayiş etdirə bilərlər. Məsələn, bir qrup tanış arasında utancaq və çəkingən görünən uşaq, başqa mühitdə daha ünsiyyətcil, zarafatcıl və enerjili ola bilər. Zaman keçdikcə uşaq öz duyğularını, yaşadıqlarını, daxili dünyasını və sevimli oyuncaqlarını valideynləri, baxıcısı və yaşıdları ilə bölüşməyi öyrənməlidir", - deyə psixoloq vurğulayıb.

Elnarə Baxışlı bildirib ki, uşaq birgə oyunlarda çətinlik yaşayırsa, ilk növbədə onun hüquqlarına və şəxsi sərhədlərinə hörmətlə yanaşmaq lazımdır.

"Əvvəlcə uşağınızın mülkiyyət hüququnu qəbul edin. Ona "yox" demək hüququ verin. Ən əsası isə oyuncağını paylaşmaq istəmədiyi üçün uşağı "acgöz" adlandırmayın və onu utandırmayın. Daha sonra onunla birlikdə müxtəlif oyunlar oynayın, baxdığı cizgi filmlərinin və ya oyun səhnələrinin süjetlərini birlikdə canlandırın. Bu, uşağınızın daxili dünyasını, düşüncələrini və maraqlarını daha yaxından tanımağınıza kömək edəcək", - deyə mütəxəssis əlavə edib.



**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# Bir ailənin hekayəti

**"Allahın hədiyyəsi" bir şair kimi tanıdığın və təqdir etdiyim Natella Nurun ilk nəsr əsəridir. Hər hansı şairin nəsr əsəri yazması o zaman baş verir ki, o, həyatda müşahidə etdiyi hadisə və olayları şeirin dili ilə canlandıra bilmir, təhkiyə üsuluna keçir. Nəsrdə müəyyən hadisələr təsvir olunur, bu hadisələr insan obrazları vasitəsilə, onların qarşılıqlı münasibətləri ilə tənzim olunur. Nəsr əsərini şeirdən fərqləndirən həm də dil faktorudur. Şeir dili müəyyən ahəng, ritm, vəzn üzərində qurulur, nəsrin dili isə nəql etmək üsuluna malikdir. Natella Nur bu səciyyəvi fərqləri az-çox dərk etdiyi üçün nəsrə müraciət edib.**

"Allahın hədiyyəsi" əsərində Natella Nur bir ailədə baş verən hadisələri qələmə almışdır. Əslində, bir ailənin timsalında cəmiyyətdə baş verən hadisələrin əks-sədası ifadə olunur. Çünki ailəni cəmiyyət həyatından təcrid etmək mümkün deyil.

Əsərdə Arzu və Fərhad adlı iki insanın ailə həyatında baş verən narazılıqlar öz əksini tapır, məlum olur ki, Arzu ərinə qarşı qısqancdır və ərinin sərxoşluğu - içkiyə meyilliyi onların arasında mənəvi birliyin sarsılmasına səbəb olur. Nəticədə, Fərhad ağır xəstəliyə tutulur.

Arzu peşəsinə görə jurnalistdir, həyatı, insanları sevir, ərini də sevir, lakin vəziyyətdən çıxış yolu tapmaqda çətinlik çəkir.

"Kənardan hər şey gözəl görünür... xoşbəxt saydığımız insanlar bəzən göründüyü kimi olmurlar". Görəsən, bir-birini ürəkdən sevən və bu sevginin reallaşdırıb ailə həyatı quran iki gənc niyə ayrılıq həddinə gəlib çıxdılar?

Arzu bunun səbəblərini belə izah edir: "İçki onu bu vəziyyətə saldı, nə qədər çalışdım sözümə qulaq asmadı". Amma məlum olur ki, Arzu və Fərhadın ailə həyatında təkcə qısqanclıq və içkiyə meyillilik əsas səbəb deyil. Sadəcə olaraq, bu ailədə bir-birinə etimad yoxdur, ər öz istədiyi kimi yaşayır, qadın isə onu bezdirir. Beləliklə, ailənin dağılmaq qorxusu yaranır.

Amma sevgi əsasında qurulan bu ailə dağılmaq təhlükəsindən xilas olur. Fərhad ağır xəstədir, xərçəngə tutulub və Arzu bunu həkim Sevinc xanımdan eşidəndə dəhşətə gəlir, təbii ki, onun ürəyində ilk sevginin və ailə həyatında yaranan münasibətin qığılcımları sönməyib. O, üzünü Allaha tutub deyir: "Ey kainatı yoxluqdan tək yaradan Rəhmanir Rəhim Allah, bizim günahlarımızı bağışla, özün bizi doğru yola yönəlt. Mən atasız, qəlbi sınıq böyüdüm. Nələr çəkdim sənə bəllidir. İstəmirəm mən çəkdiyim dərdləri uşaqlarım da çəksin. Mən buna dözə bilmirəm. Ümidim sənədir, əziz Allah! Fərhada şəfa ver! Qoy o, xərçəng xəstəliyindən tez sağalsın. Ailəmizi qoru, bizi birlikdə xoşbəxt elə". Beləliklə, etiraf səhnələri başlayır. Və Arzu yubanmadan xəstəxanaya yönəlir.

Yeri gəlmişkən qeyd edək ki, əsərdə "Qurani-Kərim"ə, Allaha inam xətti də mühüm yer tutur. Arzu ərinin sağalması üçün tez-tez Allaha dua edir. O, Fərhadın yanına gələndə dolabın üstündə "Qurani-Kərim" kitabını görür. Arzu "Qurani-Kərim"i "dünyanı bütün bəlalardan xilas edə biləcək müqəddəs kitab" adlandırır. Və ayrılarkən deyir: "Mən də bu kitabı mütləq oxuyacam. Başımıza gələnlər bizə həyat dərsini verdi". Və əsərin bir bölümündə Natella Nur Allaha xitabən yazdığı bir şeirini də əlavə edir. "Allah, hər an Səni duydum, Gözəl dünyana vuruldum. Çox sirlidir kainatın, Möcüzədi yaratdığın".

Beləliklə, hər ikisi öz səhvlərini etiraf edir. Arzu deyir: "Mən etdiyim günahların cəzasını çəkirəm. Bunları əməllərimlə yumalıyam. Əlimdən gələni edəcəm-ki, Fərhad sağalsın!" Beləliklə, əsərdə yeni bir xətt yaranır. Bu xətti şərti olaraq HƏYAT EŞQİ adlandıra bilərik. Əgər insan lap ağır xəstədirsə, ona dava-dərmandan daha artıq həyat eşqi - yaşamaq uğrunda mübarizə əzmi həyata qaytara bilər.

Əsərdə "Qızıl Qaydalar" məhz bu həyat eşqini alovlandıran bir vasitəyə çevrilir. Həkim Sevinc xanım Arzuya bir dəftər verir. Dəftərdə "Qızıl Qaydalar" və xərçəng xəstəliyindən sağalanların bu qaydalar haqqında müsbət fikirləri, rəyləri yazılmışdı. Biz bu "Qızıl Qaydalar"ın təfsilatına varmırıq, bunların əksəriyyəti sırf tibbi xarakter daşıyır. Həm inanılasıdır, həm də yox. Amma bu "Qızıl Qaydalar" mənəviyyatı saflaşdıran və gözəlləşdirən qaydalar kimi diqqəti cəlb edir. Yalnız birini xatırlayaq: "Kainatı yaradan Allaha sığının. Hər gün dualar edin. Ona şükür və məhəbbətinizi bildirin. Yalnız O sizi xeyir əməllərinizə görə xoşbəxt edər. Bu "Qızıl Qaydalar"a əməl edən Fərhad Arzunun fədakarlığı ilə həyata qayıdır.

Əsərdə Arzunun və Fərhadın uşaqlar evinə baş çəkməsi, valideynsiz, atılmış uşaqları sevindirmələri ən təsirli səhnələrdən biridir. Onlar bir daha dərk edirlər ki, ailə həyatında yaranan ziddiyyətlər, uşaqlardan imtina mənəvi böhrana səbəb olur.

Əsərin son bölümlərindən biri "Allahın möcüzəsi" adlanır. Fərhad xərçəng xəstəliyindən xilas olur. Burada Sevinc həkimin rolu böyükdür. Və Fərhadın etirafları: "Sevinc xanım, mən indi başa düşürəm ki, qadınlar ailəni qoruyub saxlamaq üçün kişilərdən daha çox əziyyət çəkirlər. Dünyaya uşaq gətirmək, tərbiyə etmək, ailənin hər qayğısına qalmaq, üstəlik də qazanc naminə hər hansı bir yerdə işləmək, bütün bunlar birlikdə qadın üçün nə qədər çətindir". Qadın və kişi tandemi əsərdə Birlik simvoluna çevrilir.

Əsərdə Arzu və Fərhaddan başqa Zümrüd xanım, Nadir, Sevinc həkim, İradə xanım obrazları da diqqəti cəlb edir. Bunlar epizodik surətlər olsa da, hər biri əsas obrazların xarakterlərinin açılmasında müəyyən rol oynayırlar.

Zümrüd xanım Arzunun anasıdır. Zümrüd xanım dünya görmüş, xeyirxah, nurani bir qadın idi. Yeganə övladı olan Arzunu xoşbəxt görmək üçün ona əlindən gələni əsirgəmirdi. Amma evlilik həyatında Zümrüd xanımın bəxti gətirməyib. Arzunun 10 yaşı olanda əri Bəxtiyar Moskvada evlənib, bu evlilikdən iki uşaqları da var. Ona görə də o, qızına deyir ki, mənim etdiyim səhvləri sən təkrar etmə!

Əsərdə ən çox yadda qalan həkim Sevincdir! O, xilaskar bir obraz funksiyasını yerinə yetirir. Həkim Sevinc xanım əsərdə təkcə həkim rolunu ifa etmir. O, daha çox xeyirxah mələk təsiri bağışlayır. Fərhad onun xəstəxanasında müalicə olunur. Arzu onunla görüşəndə görün, nə deyir: "Arzu xanım, əslində, həkim xəstəni müalicə edəndə dərmanlardan çox mənəvi cəhətdən ona müsbət təsir göstərməli və ruhlandırmalıdır. ...Bütün xəstəliklərin başında əsəb, stress, mənəvi sarsıntılar durur". Sevinc həkim məhz xəstələrinə bu prinsiplə yanaşır. O, Fərhadı müalicə edərkən ilk növbədə, onun ailə həyatı ilə maraqlanır. Arzu xanıma məsləhət görür ki, köhnə söz-söhbəti unutsun, sabaha ümidlə, nikbin ruhla baxsın, uşaqlarla birlikdə ona qayğı göstərsin. Nəticədə, onun tövsiyə və məsləhətləri öz bəhrəsini verir.

Əsərin əsas qəhrəmanları emosional ruha, kövrək və incə qəlbə malikdirlər. Fərhad da, Arzu da elə uşaqlıqdan ağrı-acılarla yaşamışlar. Onlar uşaqlar evinə gedəndə hər ikisi uşaqikən yaşadıqları acıları xatırlayırlar: Fərhad deyir: "Atasız-anasız böyüməyin nə demək olduğunu mən çox yaxşı bilirəm... Nə qədər nənə, baba, qohum-əqrəba əzizləsə də, heç vaxt valideyn məhəbbətinin yerini verə bilməz. Mən 5 yaşından bu acıları yaşamışam".

Arzu da eyni taleyi yaşayıb: "10 yaşım vardı. Düzdür, anam məni gözləri üstə bəsləyib, amma atanın da öz xüsusi yeri var. Rəfiqələrimin atası məktəbə gələndə, onları gəzməyə aparanda, mən gizlicə ağlayıb, fikir edirdim. Düşünürdüm ki, kaş mənim də atam yanımızda olaydı. Uşaqlıqdan ata nəvazişi, sevgisi görməyənin qəlbi sınıq, kövrək olur".

Deməli, Arzunun da, Fərhadın da həyatında tale oxşarlığı var. Əgər aralarında olan bu soyuqluq, anlaşılmazlıq davam etsəydi, onların da taleyi valideynlərinin taleyini təkrar edəcəkdi. Amma həyatda gözəl, xeyirxah insanlar var, onların qayğısı ilə bu ailə dağılmır, xoşbəxtliyə qovuşur.

**"Allahın hədiyyəsi" əsəri ilə Natella Nuru bir nasir kimi də tanıdıq. Ona bu yolda uğurlar arzulayaq!**

# Taxt-taca çıxacağı üçün 3 il əsgərlik çəkdi - 150 ildən sonra ilk

**İspaniya şahzadəsi Leonor üç ildən ibarət hərbi hazırlığını rəsmi olaraq başa vurub.**

Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, o, quru qoşunları, hərbi dəniz qüvvələri, hava və kosmik qüvvələrdə təlim keçərək gələcəkdə İspaniya Kraliçası və Silahlı Qüvvələrin Ali Baş Komandanı vəzifəsinə hazırlaşır.



Məlumata görə, təlim zamanı Leonor həm gündüz, həm də gecə paraşüt tullanışlarını uğurla yerinə yetirib və bununla da paraşütçü ixtisası alan ilk İspaniya kral ailəsi üzvü olub.

Qeyd edək ki, Leonorun təxminən 150 ildən sonra İspaniyanın taxta çıxacaq ilk qadın hökmdarı olacağı gözlənilir. Bu baxımdan, onun hərbi hazırlığını başa vurması ölkə tarixində əlamətdar hadisə kimi qiymətləndirilir.

*Emin Eminbəyli*



# ALLAHIN QİSMƏTİ - FAİQ QİSMƏTOĞLU

**Düşdü yadıma keçən günlərim,əfsus olsun,
Bizi məyus edən dəhrdə məyus olsun.
Məhəmmədəmin Dilsuz
Qohumlar iki cür olur.**

**1.İrsiyyətə görə-yəni ki,beldən gələnlər.**

**Əmioğlu,xalaoğlu,bibioğlu və yaxud dayınəvəsi bunlar irsiyyətlə bağlıdır.**

**Xoşun gəldi və ya zəhlən getdi,heç nəyi dəyişə bilməzsən.Genetikanın zibilidir.**

**Təqribən,deputat seçkisi kimi bir şey.Ürəyincə oldu-olmadı,istədin-istəmədin,təbin çəkdi-çəkmədi sənin rəyinə zad eləyən yoxdur.Dəyişmək gücündə deyilsən.**

**2.Sonradan qazanılanlar-eldən gələnlər.**

**Yeznədir,bacanaqdır,qaynatadır,qaynanadır,qudadır,...burada,üç aşağı-beş yuxarı,sənin səlahiyyətli olmasa da,məşvərətçi səsin olur.**

**Dost da elədir.**

**Ya öz seçimindir,ya da Allahın qismətidir.**

**Faiq Qismətoğlu mənim öz seçimim deyil, Allahın qismətidir.**

**Şükürlər olsun ki,mənim öz seçimim deyil.**

**Çünki bu yaşa qədər,ən ciddi məsələdən tutmuş,1 manatlıq coraba qədər,özümün yönnü seçimim olmayıb.Minlərlə abırlı,həyalı,qanacaqlı adamın içərisində bir dənə urvatsız,ləyaxsız,lağlviyat,düşük olsa mən,axtarıb-arayıb, mütləq həmin bambılını seçəcəm.**

**Qurban olduğum mənə belə bir qeyri-adi istedad verib.**

**AZ QALA YARIM ƏSRİN SÖHBƏTİDİR**

**Jurnalistikada mənim ilk yaxınlıq elədiyim adam Faiq Qismətoğlu olub.Sonra bu yaxınlıq dostluğa çevrilib.Və az qala 50 ildir ki, davam edir.**

**Faiq Qismətoğlunun yaradıcılığından danışmayacam,çünki mən yazmağı Ondan öyrənmişəm.**

**Onun bir neçə insani keyfiyyətlərindən danışacam.**

**Mən hələ bu yaşa qədər Faiq Qismətoğlu qədər qədərindən,qismətindən,taleyindən razı olan adam görməmişəm.**

**Dilindən şükranlıq əskik olmayan adam görməmişəm.**

**Allahdan bu qədər razı olan adam çətin tapıla.**

**Faiq bir dəfə olsun maddi sıxıntıdan tıncıxmayıb,Ona qarşı edilən haqsızlığı dilə gətirməyib,kiminsə qeybətini eləməyib,dalınca danışmayıb,pisliyini istəməyib.Bu yaşa çatıb,kiməsə həsəd aparmayıb.**

**Dünya malına Faiq qədər ögey münasibət bəsləyən adam görməmişəm.**

**Çox imkanlı kişinin oğlu ola-ola ömrü boyu var-dövlətə laqeyd olub,dünya malını qəlbinə nəinki soxmayıb,heç həndəvərinə də yaxın buraxmayıb.**

**Onun qədər dilindən Allah kəlamı düşməyən,qəlbindən Allah xofu çıxmayan az adam tanıyıram.**

**Azərbaycanda peşəkar qələm sahibi çoxdur.Amma onların içərisində Faiq Qismətoğlu kimi insan çox azdır.**

**Həddindən artıq azdır.**

**Russodan başlamış,Turgenyevə,Məmməd Rahimdən başlamış Sergey Mixalkovun zırpı gədələrinə qədər dünyada istedad itinətök qədər çoxdur.**

**Amma istedadla birlikdə insan olaraq qalmaq hər kəsə nəsib olan şey deyil.**

**Əziz qardaşım,Azərbaycan jurnalistikasında peşəkarlığına görə yəqin ki,Sən birinci yerdə deyilsən.Bizdən istedadlılar,
maşallah olsun,kifayət qədərdir.**

**Amma bir şey şəksizdir, yazıları ilə dostlarına,müəllimlərinə,həmkarlarına.... etibarlığına görə bu gün Azərbaycan jurnalistikasında Səndən irəlidə olanı yoxdur.**

**Bu,insaniyyətin göstəricisidir.**

**Etibarlılığın əmsalıdır.**

**Sədaqətliliyin ekvivalentidir.**

**Təmənnasızlığın dərəcəsidir.**

**Dünyada ən çətin şey də elə bunları bacarmaqdır ki,Sən onu çox asanlıqla və rahatlıqla bacarırsan.**

**Əziz qardaşım,Səni mənə və mənim kimi Səni sevən dostlarına ürcah eləyən Allaha göydəki ulduzların sayı qədər həmd və sənalar olsun.Zərrə qədər şübhəm yoxur ki,Səni tanıyanların hamısı mənim fikirlərimə şərikdir.**

**SONDA**

**Jurnalistikanı bir qırağa qoyaq,desəm ki,indi Sənin kimi insanların özü azdır,bu bir az düz ifadə olmaz.**

**İndi Sənin kimi insanlar ÇOX AZDIR.**

**Təəssüf ki,böyük Füzulinin:**

**"Az olsa bir məta,ona el çox bəha verər"**

**iqtisadi-psixoloji-əxlaqi prinsipi bu gün digər normal prinsiplər kimi Azərbaycanda işləmir.**

**Amma orası da var ki,bu həyatda biz çox işlək olmayan prinsiplərin gedərgəlməzə tolamazlanmağının şahidi olmuşuq.İnşaallah qalanlarının da şahidi olarıq.**



# BAYAT



№ 89 (949)

# Yupyumru bir eşq ilə



Vaqif Bayatlı Odər

## Yupyumru eşq ilə

Sevir kimsə kimsəni,
Bir kimsənin üstünə
gəl, mən də sevim səni
yupyumuru,yepyeni bir eşq ilə
yenə sənin üstünə.

Gör, sevgi üstə sevgimi
eşq eşqdən baş alan kimi,
eşq eşqi daşıran kimi,
Allah da aşıran kimi
hər ləçəyi ləçəyin,
gülü gülün üstünə,
göyü göyün, ayı ayın,
günü günün üstünə.

Gör, quş quşa şığıyantək,
gül gülə sığınantək,
son nəğmə oxunantək
ilk nəğmənin üstünə.

Gör, ikiqat sevgidən,
ikiqat eşqdən bu naşı da dəm,
gözünün yaşı da dəm,
ha içər yenə də kəm
qəmi dəmin üstünə,
dəmi qəmin üstünə.

## Səni sevmək istəyirəm

Dünyanın ən güclü adamı
ola da bilmərəm,
olmaq da istəmirəm.
İstəmirəm bir kimsə
mənimlə qorxuda bir kimsəni.

Dünyanın ən varlı adamı
ola da bilmərəm,
olmaq da istəmirəm.
Mənə ən böyük dünya varı
qapı,pəncərəsi açıq
üzü-gözü gülən bir alaçıq!

Mən səni, mən səni
Dünyada hamıdan çox
sevə də bilmərəm,
sevmək də istəmirəm,
çünki ancaq yalandan sevənlər
hamıdan çox sevirlər.

Mən səni sakitcə, yavaşca
sevmək istəyirəm.
Sevmək istəyirəm Tanrıdan yazılantək,
Bir balaca quş
Öz balaca yuvasının
küncünə qısılantək

***

Səni sevən ölüm kimi,
Səni candan ata bilməz.
Səni sevən vətən bilməz,
Ana bilməz, ata bilməz.

Səni sevmək təhlükəli,
Səni sevib, sevib təkcə,
Yaşamaq da mümkün deyil,
Səni sevib ölmədikcə.

Bəlkə bir gün, bəlkə min il,
Sevgiyə azadlıq gərək.
Heç Allah da azad deyil,
Sən azad olduğuntək.

İnsan sevməz min illərcə,
İnsan bu gün, sabah sevər.
Sən istəyən, sən sevəntək,
Bəlkə, ancaq Allah sevər.

***

Qara qız ol, qara torpaq,
ol dəlin olum sənin.
Gir qoynuma, tək məni sev,
Son sevgilin olum sənin.

Gir qoynuma, dol canıma,
Tapmasın heç bir ölkə,
Heç bir ölüm, din səni.
Gecə-gündüz öpə-öpə,
Sən cücərdən güldən gözəl,
Canımdan cücərdim səni,

Bir də tökülmə gözümə,
Tökülmə üstümə bir də,
Qara qız ol, qara torpaq,
Qara qız ol,
Elə sevim ki, səni,
Heç kimi istəmə bir də.

***

Sevdim Allaha bənzədim,
Öldüm, sevgimi bəzədim,
Mən səni min il gözlədim,
Sevdim keçdim təzə minə.

Kim sevmirsə, demək gülmür,
Sevib gül olmayıb hələ,
Bəlkə Allah görmür onu,
Bəlkə doğulmayıb hələ.

Ancaq eşqdən bir dünyayçün
Ölümü də sevib ötdüm,
Ölümüm də döndü gülə,
Hər iki dünya! Mən getdim
Xoşca qalın! Gülə-gülə!

***

Bu dünyada sirr axtarma,
bu dünyanın sirri yoxmuş.
Yaşamağa yer axtarma,
ölməyə də yeri yoxmuş.

Sevişməyə bir dəli yox,
asılmağa bir teli yox,
Yürüməyə irəli yox,
qayıtmağa geri yoxmuş.

Önər belə dərdə dönmüş,
dərd də yoxdu, dərdi dönmüş.
gördüm Allah burda imiş,
döndü üzü bəri, yoxmuş.

## Bir qızın telləri əsdi üzümə

Gizlicə-gizlicə gəldi buludlar,
Gizlicə-gizlicə döndü ümidlər,
İndiki buludlar beləcə gəlmir,
İndiki yağışlar beləcə yağmır.
İllərin o başından
bir qız yaylığı üstdə
bir ipək xatirə döndü qəlbimə,
bir qızın telləri əsdi üzümə.

Gülüm yağış! Çiçəyim yağış!
O ipək illərdən,
atlaz günlərdən,
Gilənar göylərdən dolan yağışım,
yollarda yorulub
gözümdə, könlümdə qalan yağışım,
bir çinar üstündə
qoyub gəlmişdim səni,
çinarın altında bir gilənar qız.
İndiki yağışlar beləcə yağmır...
Bu gilənar yağış
mənim qəsdimə yağır,
O dost çinarın üstündən yağır,
On ildən, beş ildən, dünəndən yağır,
bütün sevgilərin
dönən yerindən yağır.
Bəlkə də, bəlkə də lal məhəbbətlərin
dinən yerindən yağır.

İllərin altında solmaz o tellər,
Hər bulud lələyi ümidlə gələr,
O barlı illərin sevgisi qızlar
Bir də gilə-gilə qızardı bəlkə...

## Bir də kimsəni sevməyəcəyəm

Bir də kimsəni sevməyəcəyəm
Bu gecə nədəndir hamıdan qabaq
ağrıyan, qəlbimə yanıram dostlar,
Bir də sevda nədi, bilməyəcəyəm,
Bir də bir kimsəni sevməyəcəyəm.

Bir də bu dünyada eşqdən yazmağa,
Gecələr azmağa daha halım yox.
Bu xan oğlanlara, xanım qızlara
Qara sevda nədi, bir sualım yox.

Getdi gözlərimdən bir dəvə kini,
Getdi qollarımdan küçə davası.
Bahar ağaclardan çəkilən kimi.
Çəkildi başımdan gənclik havası.

Könlüm dəliliyi unutdu çoxdan,
Axır ki, ağlımın səsinə uydum.
Qonur gözlərimdə yorğunluq - haqdan,
doydum küçələrdən, yollardan doydum.

Bir də sevda nədi, bilməyəcəyəm,
Bir də kimsəni sevməyəcəyəm.

***

Bir ocaq başında yarıyuxulu
Analar qısılıb böyür-böyürə,
Qalıb balalara dünyanın çoxu.
Hərənin sözündən bir şey qanılar
Biri balasını tərifləyəndə -
Yana baxa-baxa susub qalanlar
Ağlayar üzünün bir tərəfində,

Göydən dillənən yox,
göydən baxan yox,
Taleyin sonunda donub gözləri
Başını qaldırıb göyə baxan yox,
Böyük Göyüzündən küsüb üzləri.

Allahdan, bəndədən qaçıb gizlicə
Ağlayar analar hey için-için.
Ağlamaqdan asan dünyada nə var
Ağ telli, ağ üzlü analar üçün?!

Nəyə lazımıdı bu boyda dünya
Çoxda ki, ocaqlar his eləyirdi?
Fağır analara, gül balalara
Bu ocaq yanı da bəs eləyirdi...

## Sevgidən dəli olmağa bu dünyada eşq azımış

Ay ürək, ay baş, ay bədən,
əl çəkin, əl çəkin, məndən,
ancaq canım açanda,
canım uçanda bilirəm

siz varsınız,
bu göy, göyüzü deyilən
qəfəs sizdən yaxşıdı,
siz göydən də,
göyüzündən də darsınız.

Ancaq bu can açanda,
bu can uçanda bilirəm
nə qış qış, nə də yaz yazmış,
sevgidən dəli olmağa
bu dünyada
eşq də, dəlilik də azımış.

Çıxıb gedirəm, gedirəm,
Bu göyüzünün altında
Sevmədiyim bir tikan,
Bir gül qoymaya-qoymaya,
gedirəm, gedirəm,
daha eşqli bir dünyaya,
bu dünyada eşq tikanından da,
gülündən də doymaya-doymaya.

***

Hər şair elə bilir
dünyanın son şeirini
o yazacaq, o ancaq,
bu dünyada şeir də, söz də
onunla qurtaracaq.

Bəlkə bundadı ləzzəti
elə şeir yazmağın da,
bu böyüklükdə dünyanı,
bu balaca külünglə -
bu qələmlə qazmağın da.

Mən də hər an bir daha
ruh kimi uçub Allaha,
söz kimi görünüb gözə,
yoxladım dünyanın sözə,
sözün dünyaya tabını,
beləcə batıb günaha

mən də, mən də yazıb getdim
dünyanın son kitabını.

Elə dünyadan qurtarcaq
anladım insan alnına
tale, alın yazısı yox,
şeir yazır Allah ancaq,
anladım bu dünyada
ən son şeir Tanrı şeiri,
ən son kitab
Tanrı kitabı olacaq.

Anladım, Tanrım, anladım,
alınmaz sənin üçün
Şeirin ən gözəl görünən,
ən gözəl yazılan yeri,
qələmin quş kimi süzən,
min naz ilə gəzən yeri,
xəttin eşqdən süzülən,
eşqdən nazilən yeri.

Anladım biz hamımız
bir tək ələ,
bir tək qələmə tabeyik,
bütün alınlar yan-yana
allahın şer kitabıyıq.

Hər şairin şeiri də
Tanrı şeiri içində
yazı içində yazı,
can içində can kimi,
qəfil gülədən sıçrayıb
ən uzaq ulduza qonan
yaralı ceyran kimi.

## Mən zalım adamam, kamança

Qardaşım ağaclar, bacım çiçəklər,
bir də söz tutdu sizi,
söz tutdu, sevda qurutdu,
üz tutub yüyürməyin mənə sarı,
bağlanıb gözümün
yaş qapaqları.

Dünyanın bəla qapıları
qala qapıları, daş qapıları,
yetim qapıları, boş qapıları
bağlanıb könlümə, bağlanıb
bağlanıb gözümün yaş qapaqları
Mən söz bəlasıyam,
zalım tifili.

Sürüşüb alnımdan tanrının əli
daha sən də
sən də ağladammazsan məni
mən zalım adamam, kamança.

# Ekologiya və ətraf mühitin mühafizəsi

№ 27 (2499) 24 iyul 2026-cı il

# MEŞƏLƏR YANIRSA...



**Dünyanın hər yerində bir-birindən gözəl meşələr, yaşıllıqlar mövcuddur. Aydındır ki, bu meşələr nə qədər çox qorunarsa, mühafizə olunarsa ağacların da ömrü bir o qədər artıq olar. Hansı ölkədə ki böyük meşə zolaqları var, o məmləkət demək olar ki, dünyanın ən gözəl yerlərindən biri hesab edilir. Allah-Təala bizim milləti də çox istədiyindən ölkəmizdə bir-birindən gözəl meşələr, yaşıllıqlar və insanı heyran edən məkanlar var. Təbii ki, bu gözəlliklər biz insanlar üçündür.**

Amma gəlin görək biz ucu-bucağı görünməyən, təbiətimizə əsrarəngiz gözəllik verən meşələri bir vətəndaş olaraq qoruya bilirikmi?! Təbii ki, bu suala birmənalı cavab vermək olmur. Çünki meşələri qoruyan da və ona qənim kəsilib, qırıb-talayan da var. Hələ üstəlik elə insanlar olur ki, meşələrə gedir, orda doyunca istirahət edir, kölgəsində dincəlir, bulaqdakı sudan ürəyi istədiyi qədər içir. Bütün bunlar hamısı meşələrdə olan gözəlliklərdir. Hansı rayona getsən orda hardasa qeyri-adi bir ağaclara, meşələrə rast gələcəksən. Yayın istisində ürəyimiz təngiyəndə o dəqiqə sərin yer axtarırıq. Ya meşələrə üz tuturuq, ya da dənizə, çaya, gölə.

Xoşbəxtlikdən Azərbaycanımızın hər yerində meşələr, zəngin ağaclar, güllər-çiçəklər var, buz-bulaqlar var. Qubada, Qusarda, Xaçmazda, Qəbələdə, İsmayıllıda, Zaqatalada, Qaxda, Lənkəranda, Masallıda, Lerikdə, Qazaxda, Göygöldə və işğaldan azad olunmuş, dünyanın ən gözəl yerlərindən olan Xocavənddə, Şuşada, Laçında, Kəlbəcərdə... nə qədər və ucu-bucağı görünməyən meşələr var. Allaha and olsun, bunların hər biri möcüzədir, desək yanılmarıq. Çünki göydən od yağanda, nəfəsimiz təngiyəndə özümüzü o meşələrdəki nəhəng ağacların kölgəsinə çatdırırıq. İçimiz, ürəyimiz və qəlbimiz sərinləyir. Amma bütün bunların fövqündə hər il ölkəmizdə meşə yanğınları zamanı yüzlərlə uzun ömürlü ağaclar, təbiətə nəfəs verən yaşıllıqlar yanaraq məhv olur.




İnsanlar meşələrdə istirahət yerinə gedirlər, ocaq qalayıb kabab bişirirlər, samovar qaynadırlar, bir sözlə, kef edirlər, amma qayıdanda yandırdıqları ocağı tamamilə söndürmürlər. Elə yanılı vəziyyətdə də qoyub gedirlər. Bu vaxt əsən külək həmin ocaqdakı hər hansı bir közü qurumuş otların, kolların, kosların arasına aparıb atır və bu zaman da meşə yanğınları başlayır. Biz belə meşə yanğınlarına ötən il, eləcə də əvvəlki illərdə Şamaxıda, Zaqatalada, Balakəndə, Qəbələdə, Xızıda, Qubada rast gəlmişik.

Aydındır ki, meşə yanğınları başlayanda ilk növbədə onun söndürülməsi ən vacib məsələlərdən biridir. Çünki ölkəmizdə yanğınlar zamanı yüz hektarlarla meşə zolağı yanaraq külə dönüb. Bu yanğınlar təbii ki, həm ekoloji tarazlığı pozur, həm də atmosferi çirkləndirir. Yanğınların qarşısını almaq üçün ilk növbədə biz Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürənlərin fəaliyyətini qiymətləndirməliyik. Çünki hamıya gün kimi aydındır ki, meşə yanğınları dağlıq ərazidə baş verdiyinə görə çox vaxt onu qurudan söndürmək mümkün olmur. Düzdür, yanğınsöndürən maşınlarla, eləcə də digər avadanlıqlarla dağlıq ərazilərdə yanğının qarşısını xeyli almaq mümkün olur, amma tam o yanğını dayandırmaq həddindən artıq çətinləşir. Bax, bu zaman Fövqəladə Hallar Nazirliyinin təyyarələrindən və helikopterlərindən istifadə olunur. Bu isə o qədər asan məsələ deyil. Çünki havadan yanğını söndürmək üçün çoxlu xərc tələb olunur və üstəlik də helikopterin və təyyarənin qəzaya düşmə ehtimalı da mövcuddur. Amma bütün bunlara baxmayaraq, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları riskə gedərək helikopter və təyyarələrlə çətinliklə də olsa yanğını söndürməyi bacarır. Burda bir vətənpərvərlik, millətsevərlik elementləri də var.

Biz həmişə ən çətin vəziyyətlərdə Fövqəladə Hallar Nazirliyinin şiddətli yanğınlar zamanı necə qəhrəmanlıq göstərdiyinin şahidi olmuşuq. Şahidi olmuşuq ki, onlar yanğın zamanı xəsarət alsalar belə axıra qədər tapşırılan işə məsuliyyətlə yanaşır və baş vermiş yanğının geniş yayılmasına imkan vermir, yüksək peşəkarlıq və operativliklə yanğını söndürməyə nail olurlar.

Bəs, biz vətəndaşların üzərinə təbiəti qorumaq üçün hansı vəzifələr düşür? Böyük Məmməd Araz yazır ki, vətən daşı olmayandan olmaz ölkə vətəndaşı. Amma bir çoxları nəinki ölkə vətəndaşları olur, əksinə, ölkə üçün çox böyük problem yaradır. Elə bu ilk növbədə meşələrimizlə bağlıdır.

Bu yaxınlarda Laçında olan yaxın dostum Arif qardaşımız deyir ki, gördüm ki, meşənin içində ocaq qalayıb kabab bişirirlər, kənarda da samovar qaynadıb çay dəmləyirlər, masanın da üstündə nə qədər spirtli içki var idi. Mən də kənarda bir dostumla nahar edirdim. Dostum dedi ki, çıxaq gedək, bildirdim ki, hələ bir az dayan, görək bunların axırı nə olur? Bir saatdan sonra gördüm ki, onların hamısı sərxoşdu, ocağı da yanılı qoyub çıxıb getdilər. Ətrafda bulaqdan su gəlirdi, maşındakı vedrəni götürüb su ilə doldurdum və gətirib tökdüm sönməmiş ocağın üstünə. İki vedrə su tökəndən sonra gördüm ki, ocaq tamamilə söndü. Meşədən çıxmaq istəyəndə bir külək qalxdı ki, gəl görəsən. Əgər o ocağı söndürməsəydim heç şübhəsiz, meşədə yanğın baş verəcəkdi.

**Bax, görürsünüzmü hər bir insan öz üzərinə düşən vəzifəni yerinə yetirsə, yəni meşələrə gedib istirahət edərkən yandırdığı ocağı söndürsə, meşə yanğınları da bir o qədər baş verməz. Düzdür, elə meşə yanğınları var ki, onu insanlar törətmir, təbii proseslər zamanı baş verir. Bir də görürsən ki, ildırım düşdü, meşədə yanğın yarandı, amma bu tam başqa bir məsələdir. Ancaq görünən odur ki, biz özümüz məsuliyyətli olsaq, meşələrimizdə istirahət edib qayıdarkən yandırdığımız ocağı söndürsək meşə yanğınları bir o qədər də çox olmaz. Başqa sözlə demiş olsaq, bəlkə də heç baş verməz!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



SEYMUR BAYCAN

# Açıq-aşkar biabırçılıqdır

**İlham Əziz ədəbiyyata gec gəlsə də, onun çox ciddi bir üstünlüyü var. İlham sovet dövrünü, sovetin dağılmasını, 90-cı illərdə baş verən hadisələri görüb və bu üstünlükdən romanında kifayət qədər yaxşı istifadə edib. Açığını desəm, İlhamın belə bir roman yazacağını qətiyyən gözləmirdim. Yaxşı mənada xeyli təəccübləndim. Çünki İlhamın bəzi hekayələrini oxumuşdum. Oxuduğum hekayələri meşşanların ədəbiyyat təsəvvürlərinə, meşşanların nəsr meyarlarına, zövqlərinə daha çox uyğun gəlirdi. Bəzi qələm yoldaşlarım onun hekayələrinə palaz-palaz bəy tərifləri vursalar da, şəxsən mən tərifləməli elə bir ciddi cəhət görmürdüm. Başqa cür ifadə etsəm, İlham hekayələrində həyata mənasız yerə əlvan rənglər əlavə etmiş, hadisələrə heç bir ehtiyac olmadığı halda mənalar yükləmişdi. Çox güman, böyük ehtimalla bu lazımsız ədəbi gedişlər, əsl həyatdan, reallıqdan yan keçib psevdohəyata meyl salmaq, psevdolirikaya aludə olmaq qələm təcrübəsizliyindən irəli gəlirdi.**

Romanda isə mən tamamilə başqa, sadə, rahat, özünə arxayın, mənasız yükləri çiyinlərindən atmış bir İlham gördüm. Roman çox sadə, rəvan, oynaq dildə yazılıb. Akop Martayanın yaratdığı süni dilin təsirləri, havası arada cüzi hiss olunsa da, xoşbəxtlikdən İlhamın dili ciddi aşınmaya məruz qalmayıb. Məni ən çox təəcübləndirən romandakı incə yumor, koloritli səhnələr oldu. Sən demə, İlhamın çox incə yumor hissi, koloritli qələmi var imiş. Bax bunu heç gözləmirdim. Bir neçə yerdə məni möhkəm gülmək tutdu. Koloritli səhnələrdə isə bir oxucu kimi hədsiz dərəcədə həzz aldım. Romanda zərrə qədər də intellektual pafos, psevdofəlsəfə, ”müdriklik” yoxdur, İlham sadə, oynaq dillə 90-cı illərin ab-havasını yaratmağı bacarıb. Ona görə də 90-cı illərin ab-havasını hiss etmək istəyən adamlara, xüsusən gənclərə bu romanı oxumağı şiddətlə tövsiyə edirəm.

İndi isə kitabın nöqsanlı tərəflərinə keçək.

Kitabın adından başlayaq. Bəzəksiz-düzəksiz, birbaşa deyim ki, ”Qəvvas” çox uğursuz addır. Kitabın adı ”ay oxucu, bu kitabı alma, bu kitabı oxuma, bu çox mənasız kitabdır, bu kitabın əvəzinə get başqa kitab oxu” qışqırır. Mənə desəydilər ki, bu kitab üçün çox uğursuz bir ad tapmaq lazımdır, aylarla yox, illərlə oturub fikirləşsəydim, belə uğursuz ad ağlıma gəlməzdi. Bu cür uğursuz adı kim kitaba qoyub? Əgər həmin adamın məqsədi kitaba çox uğursuz bir ad qoymaq, kitabı gözdən, urvatdan salmaq, oxucunu kitabdan kənara itələmək olubsa, onu təbrik etmək lazımdır. Məqsədinə tam nail olub.

Annotasiyadan heç danışmağa dəyməz. Annotasiya sovet yazıçılarının kitablarına yazılmış annotasiyaları xatırladır. Hətta mənə elə gəldi ki, kimsə bu annotasiyanı sovet dövründə nəşr olunmuş hansısa kitabdan köçürüb. Kitabın üz qabığı da oxucuya heç nə demir, heç bir mesaj ötürmür, heç bir emosiya yaratmır. ”Qəvvas”ın üz qabığı serializm janrında yazılmış kitabların üz qabığına oxşayır. Müxtəsər, kitabın adı, annotasiya, üz qabığı açıq-aşkar biabırçılıqdır.

Kitabın sırf məzmunundan danışsaq, İlham 90-cı illərdə bir tikə çörək dalınca Rusiyanın şəhərlərinə, çöllərinə getmiş adamların həyatını fikrimcə daha geniş yazmalı idi. 90-cı illərdə Rusiyanın şəhərlərində yüzlərlə yox, minlərlə yox, on minlərlə adamın həyatı məhv olub. Söhbət təkcə İlhamın kitabından getmir, ümumiyyətlə, bu dəhşətli faciə haqqında çox az yazılıb. Nədənsə 90-cı illərdən söhbət düşəndə, yazanda müəlliflər daha çox Qarabağ müharibəsinə fokuslanırlar. Əslində isə nə qədər kobud alınsa da, nə qədər qəddar səslənsə də, deməliyəm ki, 90-cı illərdə Rusiyada ölən adamların sayı Qarabağ müharibəsində ölənlərin sayından qat-qat çoxdur.

90-cı illərdə yay aylarında N. Rayonunda yaşayırdım. Yaşayırdım demək xeyli təntənəli, dəbdəbəli alındı, yaxın bir tanışımın qoyun fermasında, hər şeyi öz adıyla çağırsaq, çobanlıq edirdim. Etiraf edim ki, heç düz-əməlli çobanlıq da etmirdim, qoyun-quzu yeməklə məşğul idim. 90-cı illərdə hər həftə rayonun hansısa kəndinə Rusiyadan meyit gəlirdi. Filankəsin oğlunu güllələyiblər, filankəsin əmisi oğlunu bıçaqlayıblar, filankəsin dayısıoğlu itkin düşüb... Bu cürə xəbərləri, söhbətləri daima eşidirdim. Elə bil hardasa müharibə gedirdi və bu müharibədən daima qara xəbərlər gəlirdi. O vaxtlar bir kənddən Rusiyaya o qədər adam getmişdi ki, belə bir lətifə yaranmışdı. Guya bir arvad toyuq kəsdirmək üçün küçəyə çıxır, nə qədər axtarsa da kəndə toyuq kəsməyə kişi tapa bilmir. ”Toyuq kəsməyə kişi qalmayıb” - bu söz o vaxtlar bəzi rayonlarda, kəndlərdə yaranmış vəziyyəti, Rusiyaya çörək dalınca nə qədər adamın getdiyini çox dəqiq göstərirdi.

İlham bu adamların həyatını, faciəsini yaxından görüb, yaxından müşahidə edib və bu faciəli həyatları, taleləri geniş, əhatəli yazmaq hər şeydən əvvəl bir müəllif kimi onun mənəvi borcu idi. Ümid edirəm kitabın növbəti nəşrində, yaxud da gələcəkdə başqa bir əsərində İlham bu səhvini düzəldər.

İmperiyanın dağılması, bunun nəticələri kino, ədəbiyyat, sənət üçün çox qiymətli mövzulardır. Bizim insanlar, yazıçılar, rejissorlar, sənət adamları, tarixçilər çox dəhşətli bir səhvə yol verirlər. Marketinq strategiyası nöqteyi-nəzərdən imperiyanın dağılmasının, bunun nəticələrinin nə qədər qiymətli mövzu olduğunu başa düşmürlər. İmperiyanın dağılmasını, bunun nəticələrini kənara qoyub Adilə Naşit haqqında film yayımlanacaq (özü də yayımlanacaq e), türk filmlərinin ən komik aktyorları, Cansu Dere ”Sadakatsız” serialından ayrıldı, Cemal Suraya toyuq dönəri yedi, Oğuz Atay at çapdı, Can Yücel balıq tutdu kimi mövzulara baş qoşmaq, ümumiyyətlə, Türkiyədən qidalanmaq, Türkiyənin artist, hoqqabaz şairlərinə, yazıçılarına palaz-palaz bəy tərifləri vurmaq, oradakı mövzulara girmək cinayətdir. Həqiqətən cinayətdir. Dəhşətli cinayətdir. Bizim insanlar oturublar nəhəng bir xəzinənin üstündə, gedib peyinlikdə eşələnirlər. Nə etdiklərini, nəyi nəyə dəyişdiklərini bilsələr dəli olarlar. Yaxınlarda bu mövzuda geniş yazı yazacam.

İndi İlhama nə lazımdır?

İlham sovet tarixini, ədəbiyyatını, kinosunu, 90-cı illərdə baş vermiş hadisələrin səbəb və nəticələrini daha dərindən öyrənməlidir. Yazının əvvəlində qeyd etdiyim üstünlüyünü intellektual cəhətdən daha da təkmilləşdirməlidir. Dilini daha da inkişaf etdirməli, Akop Martayanın yaratdığı süni dilin cüzi təsirlərini dilindən silib-təmizləməlidir. Xüsusən yerli ədəbiyyatı sistemli şəkildə oxumaq indi İlhama hava-su kimi lazımdır. Əgər yerli ədəbiyyatı sistemli şəkildə oxusa İlhamın bədii təfəkkürü daha da güclənəcək, qələmindəki kolorit daha da artacaq, bütün potensialı ortaya çıxacaq, sözün həqiqi mənasında, özünü tapacaq. Qəti şəkildə əminəm ki, əgər İlham romanı yazmamışdan əvvəl çox yox, cəmisi iyirmi yerli roman oxusaydı romanda qat-qat yüksək yüksək performans göstərə bilərdi. Eybi yox, heç nə heç vaxt gec deyil. Necə deyərlər, gec olsun, güc olsun.

**Bütün hallarda ”Qəvvas” son illərdə yazılmış ən uğurlu romanlardan biridir. Romanda Gülgəz arvad, Məcid kişi kimi arxaik obrazlar, aqrar söhbətlər, infantil xatirələr yoxdur. Mövzu, mövzuya yanaşma, mövzunun bədii həlli, dil aqrar deyil. Qoy vaxtsız qocalmış, intellektual pafosdan, ”ifrat müdriklikdən”, psevdofəlsəfədən əziyyət çəkən gənc müəlliflər bu romanı oxuyub necə yazmağı öyrənsinlər.**

**/Yenisabah/**

# Bilal Alarlıdan Muğan folklorunun salnaməsinə daha bir sanballı töhfə

**Azərbaycan elminin və folklorşünaslığının tanınmış nümayəndələrindən biri, filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialının baş müəllimi, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Aşıqlar Birliyinin üzvü Bilal Alarlı Hüseynovun növbəti elmi əsəri- ”Muğan aşıqları” monoqrafiyasının I kitabı işıq üzü görüb. Bu nəşr müəllifin sayca 41-ci kitabıdır və onun uzun illər apardığı elmi araşdırmaların məntiqi davamı kimi xüsusi əhəmiyyət daşıyır.**







”Elm və təhsil” nəşriyyatında çap olunan monoqrafiyanın redaktoru və ön sözünün müəllifi Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlıdır. Kitabın ön sözündə də vurğulandığı kimi, Muğan aşıq mühitinin yaradıcılıq imkanları indiyədək bu miqyasda və sistemli şəkildə araşdırılmamışdı. Məhz bu baxımdan Bilal Alarlının yeni tədqiqatı Azərbaycan folklorşünaslığı üçün mühüm elmi hadisə hesab oluna bilər.

208 səhifədən ibarət olan monoqrafiyanın birinci kitabında Muğan aşıqlarının həyat və fəaliyyəti, yaradıcılıq nümunələri, qoşma və gəraylıları geniş şəkildə araşdırılır. Müəllif ilk dəfə olaraq Muğan aşıq mühitinin yaradıcı potensialını bütöv bir elmi sistem daxilində təqdim edir. Kitabda Cəlilabad, Biləsuvar, Yardımlı, Salyan, Neftçala və digər Muğan bölgələrinin aşıq mühiti, bu mühitin görkəmli nümayəndələri, onların ədəbi irsi və sənət ənənələri faktlar əsasında tədqiq olunur.

Bilal Alarlının yaradıcılığının əsas üstünlüklərindən biri onun kabinet alimi olmaqla kifayətlənməməsidir. O, illərdir kəndbəkənd, oba-oba dolaşaraq aşıqları, el şairlərini, yaşlı nəslin nümayəndələrini dinləyir, unudulmaqda olan rəvayətləri, dastanları, qoşmaları və tarixi məlumatları birbaşa mənbədən toplayır. Bəzən elə faktlara rast gəlir ki, həmin məlumatlar sənətkarların öz övladlarına belə məlum olmur. Bu zəngin materiallar sonradan elmi təhlildən keçirilərək kitab səhifələrində əbədiləşdirilir.

Əslində diqqət yetirsək, Bilal Alarlı səmərəli fəaliyyətini yalnız kitab yazmağa həsr etməyib. O, uzun illərdir Cənub bölgəsinin ədəbi mühitinin canlanmasına, gənc qələm sahiblərinin yetişməsinə, poeziyaya marağın artırılmasına yorulmadan xidmət göstərir. Gənclərin ilk qələm təcrübələrinə diqqətlə yanaşır, onları həvəsləndirir, istiqamətləndirir və zəngin ədəbiyyat xəzinəsinə aparan yolda dəstəyini əsirgəmir. Bu fədakarlıq bölgənin ədəbi həyatında xüsusi rəğbətlə qarşılanır.

”Muğan aşıqları” monoqrafiyası da yalnız folklor nümunələrinin toplusu deyil. Bu əsər xalqın yaddaşına, milli-mənəvi irsinə, keçmişinə və mədəni köklərinə işıq salan sanballı elmi mənbədir. Kitab gələcək tədqiqatçılar, folklorşünaslar, müəllimlər, tələbələr və ümumilikdə milli irsimizə maraq göstərən hər bir oxucu üçün qiymətli vəsait olacaq.

Tarixini yaşadan xalqlar gələcəyini daha inamla qururlar. Bilal Alarlının qələmə aldığı bu əsər də Muğanın zəngin söz xəzinəsini, aşıq sənətini və xalq yaddaşını gələcək nəsillərə çatdıran etibarlı körpülərdən biridir. Sayca 41-ci kitabını oxuculara təqdim edən alimin növbəti elmi fəaliyyət barı, həm də milli-mənəvi irsimizə göstərilən böyük vətəndaşlıq xidmətidir.

Sonda dəyərli alim, fədakar folklorşünas Bilal Alarlını ”Muğan aşıqları” monoqrafiyasının işıq üzü görməsi münasibətilə ürəkdən təbrik edir, bu sanballı elmi əsərin Azərbaycan folklorşünaslığına və milli-mənəvi irsimizin öyrənilməsinə mühüm töhfə verəcəyinə inanırıq. Bilal müəllimə möhkəm cansağlığı, tükənməz yaradıcılıq enerjisi, yeni elmi uğurlar və oxucularını sevindirəcək neçə-neçə dəyərli kitablar arzulayırıq. Qələmi iti, yolu daim açıq olsun!

**Samir Qurbanov,**
**”Region-Press” qəzetinin redaktoru,**
**AJB-nin üzvü**

## *Əməkdar artist: ”Maşın sürməkdən qorxuram”*



**Əməkdar artist Dilarə Əliyeva şəxsi həyatı ilə bağlı maraqlı açıqlamalar verib.**

Adalet.az xəbər verir ki, daha çox maşın sürməkdən qorxduğunu etiraf edib: ”Demək olar ki, heç bir ev işi görmürəm. Hətta saçımı daramağa vaxtım yoxdur. Mən ancaq aktrisa kimi, aparıcı kimi işimlə məşğul oluram. Marketə getmirəm, mətbəxə girmirəm, ev işləri görmürəm. Maşını isə sürücü idarə edir. Heç vaxt maşın sürmək arzum olmayıb. Həm buna səbrim də yoxdur. Ən əsası isə maşın sürməkdən qorxuram. Bəlkə də ona görə mənə maraqlı deyil”.

**Əntiqə**

## *Müğənni: “Oğlum hər şeyin şahidi idi”*

**Şəxsi həyatı və ifaları ilə gündəm olan Kəmalə Günəşli sosial şəbəkələrdə canlı yayımda onu və oğlunu qınayanlara cavab verib:**

Adalet.az xəbər verir ki, müğənninin izləyiciləri ilə aqressiv danışmağı diqqət çəkib: ”Hər kəs mənə deyir ki, oğlunu düşün, oğlun var. Mən oğlumu alçaldacaq nə etmişəm? Hətta deyirlər ki, sənin hərəkətlərinə oğlun nə deyir? Oğlum mənə nə deyə bilər ki? Mən onun valideyniyəm, o mənim valideynim deyil ki. Mən nə edəcəyimə özüm qərar verirəm, oğlum yox. Oğlum dərsləri ilə məşğul olur, idman edir, sevdiyi məşğuliyyəti ilə maraqlanır. Mən də öz işimlə məşğulam. Oğlum çox gözəl bilir ki, bizim çətin günlərimizdə,bizə heç kəs dəstək olmadı. Mən öz zəhmətimlə, öz gücümlə irəliyə doğru addımladım. Oğlum isə bütün bunların şahidi idi”.

**Əntiqə**

| | | | | |
|---|---|---|---|---|
| Təsisçi və baş məsləhətçi: Aqil ABBAS<br>Baş redaktor: İradə TUNCAY | Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.<br>Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. | KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.<br>kod: 200112 h\h<br>Müxbir hesab: 0137010001994<br>S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161<br>İndeks:0107 Qeydiyyat nömrəsi 100 | Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A<br>Telefon: (012) 491-23-53<br>adaletqezeti@rambler.ru<br>adaletqezeti@mail.ru, adaletqezeti@box.az | Tiraj: 1500<br>Sifariş: 287<br>Çapa imzalanmışdır: 23.07.2026 |